RƏSMİ DÖVLƏT QƏZETİ



AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 258 (8574) ÇƏRŞƏNBƏ, 9 dekabr 2020-ci il

Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur

www.azerbaijan-news.az

# XİLASKAR



# Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun (“YAŞAT” Fondu) Himayəçilik Şurasının tərkibinin təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun (“YAŞAT” Fondu) Himayəçilik Şurasının aşağıdakı tərkibi təsdiq edilsin:

Abdullayev Çingiz Akif oğlu
Alızadə Sevinc Əsgərxan qızı
Aslanov Novruzəli Davud oğlu
Aşina Məsud
İbrahimov Mənsum İsrafil oğlu
İsgəndərov Anar Camal oğlu
Qasımov Balakişi Ələkbər oğlu
Novruzov Cahangir Mütəllib oğlu
Ramaldanov Şair Ramaldan oğlu
Səfərəliyeva Rəna Teymur qızı
Zəkiyev İlham Əzizağa oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 dekabr 2020-ci il*

# Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun (“YAŞAT” Fondu) yaradılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikasının Silahlı Qüvvələri ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi, Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərin azad edilməsi uğrunda aparılan döyüşlərdə əsl qəhrəmanlıq nümunəsi, misilsiz şücaət və rəşadət göstərmişlər. Xalqımızın bir sıra igid övladları işğalçı düşmənə qarşı həyata keçirilən əməliyyatlar zamanı şəhid olmuş, sağlamlığını itirmişlər.

Azərbaycan Respublikasında hərbi qulluqçuların və şəhid ailələrinin sosial müdafiəsi və onların rifahının yaxşılaşdırılması daim dövlət siyasətinin əsas tərkib hissəsi olmuşdur. Bu istiqamətdə geniş dövlət dəstəyi mexanizmləri formalaşdırılmış, onlar hərtərəfli dövlət qayğısı ilə əhatə olunmuşlar.

Bununla yanaşı, şəhid ailələrinin və Vətənin müdafiəsində iştirak edən şəxslərin maddi-sosial vəziyyətinin yaxşılaşdırılması daim vətəndaş cəmiyyətinin də diqqət mərkəzindədir. Azərbaycan xalqı xeyirxahlıq, fədakarlıq və humanizm prinsiplərini rəhbər tutaraq, təmənnasız kömək ənənələrini davam etdirir, vətəndaşlarımız, xarici ölkələrdə yaşayan soydaşlarımız, sahibkarlar, humanitar və digər təşkilatlar şəhid ailələrinin və hərbi əməliyyat iştirakçılarının zəruri ehtiyaclarının təmin edilməsinə, maddi, tibbi və digər sosial xərclərinin ödənilməsinə yardım sahəsində həmrəylik nümayiş etdirirlər.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, şəhid ailələrinin və hərbi əməliyyatlar nəticəsində əlilliyi müəyyən olunmuş şəxslərin sosial müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi istiqamətində vətəndaş cəmiyyəti təşəbbüslərinin reallaşdırılması üçün müvafiq platformanın yaradılması, bu sahədə şəffaflığın, hesabatlılığın və ictimai nəzarətin təmin edilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu - “YAŞAT” Fondu (bundan sonra - Fond) yaradılsın.

2. Fondun vəsaitinin formalaşdırılması, idarə olunması və ondan istifadə Qaydası” təsdiq edilsin (əlavə olunur).

3. Müəyyən edilsin ki:

3.1. Fond aşağıdakı şəxslərin sosial müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi (maliyyə yardımlarının göstərilməsi və digər dəstək tədbirlərinin həyata keçirilməsi) üçün şəffaf, effektiv və əlçatan platformanın formalaşdırılması məqsədilə yaradılır:

3.1.1. Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən olunmuş hərbi qulluqçulara və şəhid olmuş şəxslərin ailələrinin üzvlərinə;

3.1.2. işğaldan azad edilmiş ərazilərdə xidməti vəzifələrini yerinə yetirərkən, habelə hərbi əməliyyatlar bitdikdən sonra onun nəticələrinin aradan qaldırılmasında iştirak etməsi nəticəsində əlilliyi müəyyən olunmuş dövlət orqanlarının (qurumlarının) əməkdaşlarına və ya həlak olmuş əməkdaşların ailə üzvlərinə;

3.2. Fondun vəsaiti Azərbaycan Respublikası vətəndaşlarının, xarici ölkələrdə yaşayan soydaşlarımızın, digər fiziki və hüquqi şəxslərin könüllü olaraq maliyyə vəsaiti şəklində verdiyi yardımlar (ianələr), habelə qanunla qadağan olunmayan digər mənbələr hesabına formalaşdırılır;

3.3. Fondun vəsaitinin sərəncamçısı Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyidir (bundan sonra - Dövlət Agentliyi);

3.4. Fondun vəsaitinin formalaşdırılmasına və idarə olunmasına ümumi nəzarəti Azərbaycan Respublikası Prezidentinin yaratdığı Himayəçilik Şurası həyata keçirir.

4. Himayəçilik Şurası:

4.1. Fondun vəsaitinin formalaşdırılmasına və xərclənməsinə nəzarəti həyata keçirir;

4.2. Fondun vəsaitinin formalaşdırılması və xərclənməsi istiqamətlərinə dair müzakirələr aparır, habelə daxil olan vəsaitin məbləği nəzərə alınmaqla, onun xərc istiqamətlərini müəyyən edir;

4.3. Fondun vəsaitinin idarə edilməsi ilə bağlı kənar auditor yoxlamalarının keçirilməsinə dair tədbirlər görür;

4.4. Fondun vəsaitinin idarə edilməsi ilə bağlı digər məsələləri həll edir.

5. Fondun vəsaitlərinin idarə edilməsinin təmini üçün Dövlət Agentliyinin işçilərinin say həddi 20 ştat vahidi artırılsın.

6. Dövlət Agentliyi:

6.1. bu Fərmanın 3.1-ci bəndində nəzərdə tutulmuş şəxslərin müraciətlərinin qəbulunu və onlara baxılmanı təmin etsin;

6.2. fiziki və hüquqi şəxslərin Fonduna könüllü olaraq maliyyə vəsaiti şəklində verdiyi yardımların (ianələrin) bank və ya poçt vasitəsilə, eləcə də elektron qaydada qəbulunu təşkil etsin;

6.3. Fondun vəsaitlərinin idarə edilməsini və əlavə dəstək tədbirlərinin həyata keçirilməsini təmin edən informasiya sistemini formalaşdırsın;

6.4. Fondun vəsaitlərinin idarə olunması ilə bağlı elektron hesabatlılığı, habelə daxil olan və xərclənən vəsaitin məbləği və istiqamətləri ilə bağlı məlumatların Fondun rəsmi internet səhifəsində yerləşdirilməsini və daim yenilənməsini təmin etsin;

6.5. Fond vasitəsilə həyata keçirilən tədbirlərə könüllüləri cəlb etsin;

6.6. Fondun vəsaitindən istifadəyə dair Himayəçilik Şurasına təkliflər versin;

6.7. Fondun vəsaitinin idarə edilməsinə dair yarımillik və illik hesabatları, habelə digər zəruri məlumatları Himayəçilik Şurasına təqdim etsin.

7. Dövlət Agentliyi və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu Fərmanın 3.1-ci bəndində nəzərdə tutulmuş şəxslərə Fond vasitəsilə göstərilən dəstək tədbirlərinin həmin şəxslərin sosial müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərlə uzlaşdırılmasını, habelə bu sahədə informasiya mübadiləsini təmin etmək üçün müvafiq informasiya sistemlərinin inteqrasiyasını təşkil etsinlər.

8. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 dekabr 2020-ci il*

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 8 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir

# Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun (“YAŞAT” Fondu) vəsaitinin formalaşdırılması, idarə olunması və ondan istifadə qaydası

**1. Ümumi müddəalar**

1.1. Bu Qayda Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun (“YAŞAT” Fondu) (bundan sonra - Fond) vəsaitinin formalaşdırılması, idarə olunması və həmin vəsaitdən istifadə ilə bağlı münasibətləri tənzimləyir.

1.2. Fondun məqsədi “Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun (“YAŞAT” Fondu) yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 8 dekabr tarixli Fərmanının 3.1-ci bəndində qeyd olunan şəxslərin (bundan sonra - şəxs) sosial müdafiəsi sahəsində dövlətin həyata keçirdiyi tədbirlərə əlavə dəstək verilməsidir.

1.3. Fondun vəsaitinin sərəncamçısı Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyidir (bundan sonra - Dövlət Agentliyi).

**2. Fondun vəsaitinin formalaşdırılması və ondan istifadə**

2.1. Fondun vəsaiti aşağıdakı mənbələr hesabına formalaşdırılır:

2.1.1. fiziki və hüquqi şəxslərin könüllü olaraq maliyyə vəsaiti şəklində verdiyi yardımlar (ianələr);

2.1.2. qanunla qadağan olunmayan digər mənbələr.

2.2. Fondun vəsaitinin toplanması və ondan təyinatı üzrə istifadə edilməsi məqsədilə bank hesabı açılır.

2.3. Fondun vəsaiti Azərbaycan manatı ilə və xarici valyutalarla formalaşdırılır.

2.4. Maliyyə vəsaiti şəklində verilən yardımların (ianələrin) Fond tərəfindən toplanılması aşağıdakı üsullarla həyata keçirilir:

2.4.1. onlayn qaydada - fiziki və hüquqi şəxslərin Fondun rəsmi internet səhifəsi və elektron ödəniş sistemləri üzərindən etdikləri ödənişlər;

2.4.2. SMS vasitəsilə - fiziki və hüquqi şəxslərin Fondun qısa nömrəsinə SMS göndərməklə etdikləri ödənişlər;

2.4.3. bank köçürməsi vasitəsilə - Fondun bank hesabına fiziki və hüquqi şəxslərin banklar və pulköçürmə sistemləri vasitəsilə etdikləri ödənişlər;

2.4.4. terminal vasitəsilə - fiziki və hüquqi şəxslərin xüsusi ödəmə terminalları vasitəsilə etdikləri ödənişlər;

2.4.5. qanunla qadağan olunmayan digər ödəniş vasitələrindən istifadə etməklə edilən ödənişlər.

2.5. Fondun vəsaitindən aşağıdakı istiqamətlərdə istifadə olunur:

2.5.1. şəhid ailəsi statusu alana və ya əlilliyi müəyyən edilənədək götürülən istehlak kreditlərinin və digər borc öhdəliklərinin qarşılanması;

2.5.2. müalicə və psixoloji dəstək xərclərinin ödənilməsi;

2.5.3. təhsil almasına, habelə əlavə təhsilinə, peşə hazırlığının artırılmasına, eləcə də yaradıcı potensialının inkişafına kömək edilməsi ilə bağlı xərclərin ödənilməsi;

2.5.4. məişət şəraitinin yaxşılaşdırılması;

2.5.5. Himayəçilik Şurasının müəyyən etdiyi digər istiqamətlər.

2.6. Fondun vəsaiti bu Qaydanın 2.5-ci bəndində nəzərdə tutulmayan istiqamətlərdə istifadə edilə bilməz.

**3. Müraciətlərin qəbulu və ehtiyacların prioritetləşdirilməsi**

3.1. Fond tərəfindən şəxsə əlavə dəstək onun müraciəti əsasında göstərilir.

3.2. Şəxsin müraciəti elektron qaydada Fondun rəsmi internet səhifəsi üzərindən qəbul edilir. Müraciətlərin elektron qaydada formalaşdırılması ilə bağlı könüllülər müraciət edən şəxsə yardım göstərirlər.

3.3. Fonda edilən müraciətlər, ehtiyacların prioritetliyi nəzərə alınmaqla, Dövlət Agentliyinin bu məqsədlə yaratdığı informasiya sistemində növbəlilik prinsipi ilə sıralanır. Ehtiyacların prioritetliyi müvafiq dövlət orqanlarından (qurumlarından) və müraciət edən şəxsdən əldə edilmiş məlumatlar nəzərə alınmaqla, aşağıdakı meyarlar əsasında Dövlət Agentliyinin müəyyən etdiyi əmsallara uyğun olaraq qiymətləndirilir:

3.3.1. bu Qaydanın 2.5-ci bəndinə müvafiq ehtiyac istiqaməti;

3.3.2. müraciətin ilkin və ya təkrar olması;

3.3.3. müraciət edən şəxsin maddi vəziyyəti, orta aylıq gəliri;

3.3.4. himayəsində azyaşlı uşağın olması;

3.3.5. ailədə əmək qabiliyyətli şəxslərin sayı;

3.3.6. Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar dövlət təltiflərinin olması;

3.3.7. dövlət tərəfindən digər dəstək tədbirlərinin göstərilməsi.

**4. Müraciətlərə baxılma qaydası və dəstək göstərilməsi müddəti**

4.1. Dövlət Agentliyi daxil olan müraciətlərə “Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq baxır və nəticəsi barədə müraciət edən şəxsə bildiriş göndərir.

4.2. Şəxsə dəstək göstərilməsi barədə qərar qəbul edildikdən sonra 10 iş günü müddətində maliyyə yardımı müraciət edən şəxsə bank vasitəsilə təqdim olunur.

4.3. Eyni müraciətlə bağlı Fondun vəsaiti hesabına və ya müvafiq dövlət orqanının (qurumunun) əvvəllər yardım etdiyi, habelə müraciətdə göstərilən dəstəyin verilməsi üçün Fondun balansında kifayət qədər vəsait olmadığı hallarda, müraciət edən şəxsin razılığı ilə alternativ maliyyələşdirmə üsulu tətbiq olunur. Alternativ maliyyələşdirmə üçün şəxsin müraciəti Fondun rəsmi internet səhifəsində yerləşdirilir və onun fiziki və ya hüquqi şəxslər tərəfindən maliyyələşdirilməsinə imkan yaradılır.

**5. Fondun vəsaitinin formalaşdırılmasına və ondan istifadəyə nəzarət**

5.1. Fondun vəsaitinin formalaşdırılmasına və idarə olunmasına ümumi nəzarəti Azərbaycan Respublikası Prezidentinin yaratdığı Himayəçilik Şurası həyata keçirir. Himayəçilik Şurası Dövlət Agentliyinin təklifləri əsasında Fondun xərc istiqamətlərini müəyyən edir;

5.2. Dövlət Agentliyi:

5.2.1. Fonda daxil olan vəsaitin xərclənməsi istiqamətlərinə dair təkliflərini Himayəçilik Şurasına təqdim edir.

5.2.2. Himayəçilik Şurasının qərarına əsasən Fondun vəsaitinin idarə edilməsi ilə bağlı cəlb edilmiş kənar auditor yoxlamalarının keçirilməsinə lazımi şərait yaradır;

5.2.3. Fondun vəsaitinin idarə edilməsinə dair yarımillik və illik hesabatları, eləcə də digər zəruri məlumatları Himayəçilik Şurasına təqdim edir.

# *Mehriban ƏLİYEVA:* “Heydər Əliyev Fondu qədim Qarabağ torpağında dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə başlayır”

*Heydər Əliyev Fondu qədim Qarabağ torpağında dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə başlayır.*



AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın rəsmi “Instagram” səhifəsindəki paylaşımında bildirilir. Paylaşımda deyilir:

“Əziz həmvətənlər!

Bu günlər biz hamımız Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasının qürurunu və sevincini yaşayırıq. 30 ilə yaxın Ermənistanın işğalı altında olan torpaqlarımız Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında qəhrəman əsgər və zabitlərimizin şücaəti sayəsində azad edilmişdir.

Əlbəttə, işğaldan azad olunmuş torpaqlarımızdakı hazırkı mənzərəni hər birimiz ürək ağrısı ilə seyr edirik. Erməni təcavüzkarları bu illər ərzində şəhər və rayonlarımızı, oradakı yaşayış və inzibati binaları, bütün infrastrukturu dağıtmış, təbii sərvətlərimizi talan etmiş, bu ərazilərdəki dini, tarixi, mədəni abidələrimizi vandalizm aktlarına məruz qoymuşdur. Bir vaxtlar Azərbaycanın dilbər guşəsi olan Qarabağ bölgəsindəki abadlıqdan əsər-əlamət qalmamışdır.

Amma əminliklə bildirmək istəyirəm ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün Qarabağ bölgəsini Azərbaycanın ən gözəl bölgələrindən birinə çevirəcəyik. Burada yenidən həyat canlanacaq, bütün rayonlarımız bərpa olunacaq, vətəndaşlarımız öz doğma yurd-yuvalarında yaşayıb, yaradacaqlar.

Əziz həmvətənlər!

Heydər Əliyev Fondu fəaliyyət göstərdiyi ilk gündən Azərbaycanda müxtəlif sahələri əhatə edən layihə və proqramlar həyata keçirir. Fondun tarixi, mədəniyyət və dini abidələrin qorunub saxlanılması və bərpası istiqamətindəki fəaliyyəti hər kəsə məlumdur. Bu gün isə qürur hissi ilə sizə Heydər Əliyev Fondunun qədim Qarabağ torpağında Azərbaycan xalqının milli sərvəti olan dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə başladığını bildirmək istəyirəm. Layihə çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması həyata keçiriləcəkdir. İşğal illəri ərzində Şuşa şəhərində və Ağdam rayonunda dağıntılara məruz qalmış dini ibadət yerlərinin bərpası üzrə müvafiq işlərə artıq başlanılmışdır.

Bir zamanlar ermənilərin vəhşicəsinə dağıtdığı, tövləyə çevirdiyi müqəddəs dini məkanlarımız yenidən dirçələcək və bütün Qarabağ ərazisindəki məscidlərimizdə azan səsləri eşidiləcək, dualar oxunacaqdır!

Dərin hörmət və sevgilərlə,
Sizin MEHRİBAN”.

# Azərbaycan Ordusuna Yardım Fondunun yaradılması və “Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə yardım Fondunun yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 17 avqust tarixli 755 nömrəli Fərmanının ləğv edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Ordusuna Yardım Fondu yaradılsın.

2. “Azərbaycan Ordusuna Yardım Fondu haqqında Əsasnamə” təsdiq edilsin (əlavə olunur).

3. “Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə yardım Fondunun yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 17 avqust tarixli 755 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 8, maddə 475) ləğv edilsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə yardım Fondu ləğv edildiyi gündən onun balansında qalan vəsaitin Azərbaycan Ordusuna Yardım Fondunun xüsusi xəzinə hesabına köçürülməsini təmin etsin;

4.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 dekabr 2020-ci il*

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 8 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir

# Azərbaycan Ordusuna Yardım Fondu haqqında Əsasnamə

**1. Ümumi müddəalar**

1.1. Bu Əsasnamə Azərbaycan Ordusuna Yardım Fondunun (bundan sonra - Fond) vəsaitinin formalaşdırılması, idarə olunması və həmin vəsaitdən istifadə ilə bağlı münasibətləri tənzimləyir.

1.2. Fondun məqsədi Azərbaycan Ordusunun müasir tələblərə uyğun inkişafını təmin etməkdən, onun maddi-texniki bazasını möhkəmləndirməkdən və hərbi qulluqçuların sosial müdafiəsini daha da gücləndirməkdən ibarətdir.

1.3. Fondun vəsaitinin sərəncamçısı Azərbaycan Respublikasının Müdafiə Nazirliyidir (bundan sonra - Müdafiə Nazirliyi).

**2. Fondun maliyyə mənbəyi**

2.1. Fondun vəsaiti fiziki və hüquqi şəxslərin könüllü ianələri və qanunla qadağan olunmayan digər mənbələr hesabına formalaşır.

2.2. Fondun vəsaiti Azərbaycan manatı ilə və xarici valyutalarla formalaşdırılır.

**3. Fondun vəsaitindən istifadə istiqamətləri**

3.1. Fondun vəsaiti aşağıdakı məqsədlər üçün istifadə edilir:

3.1.1. Azərbaycan Ordusunun maddi-texniki bazasının inkişaf etdirilməsi;

3.1.2. hərbi texnika, silah və sursatın alınması;

3.1.3. hərbi təyinatlı məmulatların hazırlanması, sınaqdan keçirilməsi, istehsalı, təmiri və modernləşdirilməsi;

3.1.4. hərbi elmi tədqiqat və təcrübə-konstruktor işlərinin aparılmasının təşkili;

3.1.5. hərbi qulluqçuların sosial və məişət problemlərinin həll edilməsi;

3.1.6. peşəkar hərbi kadrların hazırlanması və onların əlavə təhsili.

3.2. Fondun vəsaitindən bu Əsasnamədə nəzərdə tutulmayan məqsədlər üçün istifadə edilə bilməz.

**4. Fondun vəsaitinin toplanması və istifadəsi**

4.1. Fondun vəsaitinin toplanması və ondan təyinatı üzrə istifadə edilməsi məqsədilə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq Agentliyinin (bundan sonra - Dövlət Xəzinədarlıq Agentliyi) xüsusi xəzinə hesabı açılır, Dövlət Xəzinədarlıq Agentliyi isə Azərbaycan manatı ilə və xarici valyutalarda kredit təşkilatlarında bank hesabları açır.

4.2. Fondun vəsaitindən bu Əsasnamənin 3-cü hissəsi ilə müəyyən edilmiş xərc istiqamətlərinə uyğun istifadə edilməsi Azərbaycan Respublikası Prezidentinin razılığı əsasında həyata keçirilir.

4.3. Müdafiə Nazirliyinin Fondun vəsaitindən bu Əsasnamənin 3-cü hissəsi ilə müəyyən edilmiş xərc istiqamətlərinə uyğun istifadə edilməsi üzrə təklifi (vəsatəti) razılıq verilmək üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim edilir və həmin təklifə (vəsatətə) razılıq verildiyi təqdirdə Fonddan vəsaitin ayrılması Azərbaycan Respublikası müdafiə nazirinin əmri ilə rəsmiləşdirilir.

4.4. Dövlət Xəzinədarlıq Agentliyi Müdafiə Nazirliyinin bu Əsasnamənin 4.3-cü bəndində nəzərdə tutulmuş əmri və ödənişlər üzrə sifarişləri əsasında maliyyələşməni həyata keçirir.

4.5. Müdafiə Nazirliyi Fondun vəsaiti hesabına satınalmaları “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçirir.

**5. Yekun müddəalar**

5.1. Dövlət Xəzinədarlıq Agentliyi Fondun vəsaitindən istifadəyə və Fondun hesablarında qalan xərclənməmiş vəsaitə dair hesabatları ayda bir dəfə Müdafiə Nazirliyinə təqdim edir.

5.2. Müdafiə Nazirliyi Fondun vəsaitindən istifadəyə dair yarımillik və illik hesabatları Azərbaycan Respublikasının Prezidentinə təqdim edir.

# Prezident İlham Əliyevin təşəbbüsü ilə metronun yeni stansiyası “8 Noyabr” adlanacaq

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Bakı Metropoliteninin yeni stansiyasına Zəfər günü münasibətilə “8 Noyabr” adının verilməsi təşəbbüsü ilə çıxış edib.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin bununla bağlı Qərarında deyilir:

“Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təşəbbüsünə əsasən, Bakı Metropoliteninin Nəsimi rayonu, Ceyhun Səlimov küçəsi, 1065-ci məhəllə ünvanında yerləşən yeni stansiyası “8 Noyabr” adlandırılsın”.

***AZƏRTAC***

# N.R.Zeynalovun Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Namiq Rəsul oğlu Zeynalov Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 dekabr 2020-ci il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm İlham Heydər oğlu.

Azərbaycan xalqının səbri öz bəhrəsini verdi.

Azərbaycan Respublikası öz tarixi sərhədləri daxilində ərazi bütövlüyünü bərpa etdi. Azərbaycan xalqının Ümummilli Lideri, unudulmaz Heydər Əliyev buna inanırdı. Həyat Sizin Azərbaycan Prezidenti kimi Azərbaycan xalqı naminə ən mürəkkəb məsələləri həll etməyə və istənilən çağırışlara adekvat cavab verməyə qadir olduğunuzu bir daha sübut etdi.

Dekabrın 10-da Bakıda keçiriləcək hərbi parad çoxmillətli Azərbaycan xalqının mərdliyinin, igidliyinin və birliyinin, onun öz tarixinə və öz Vətəninə sədaqətinin rəmzidir.

Qardaş Azərbaycan xalqına sülh və firavanlıq arzu edirəm.

*Hörmətlə,*

***Xızrı ŞIXSƏİDOV,***
***Rusiya Federasiyası Dağıstan Respublikası Xalq Məclisinin sədri***

Hörmətli cənab Prezident.

Azərbaycanda yaşayan əfqanlar adından və şəxsən öz adımdan Sizi və bütün Azərbaycan xalqını torpaqların azad edilməsi, müharibənin zəfərlə başa çatması münasibətilə ürəkdən təbrik edirəm. Nəhayət, Azərbaycan xalqı 28 illik erməni işğalından sonra öz ata-baba torpaqlarını azad etdi.

Uca Allaha dua edirəm ki, torpaqların işğaldan azad edilməsi üçün canlarından keçən şəhidlər cənnətlə müjdələnsinlər.

Gözəl, firavan və məhsuldar torpağınızda bundan sonra sülh və rifah hökm sürsün. Əfqanıstan və Azərbaycan xalqları arasında dostluq və qardaşlıq daha da güclənsin.

Qarabağ Azərbaycandır!

Hörmətlə,

***Xeyrullah SPELANAY ,***
***Əfqanıstan İslam Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri***

*Azərbaycan Respublikası, Bakı şəhəri*

# XİLASKAR



**Hər bir xalqın, dövlətin yüksəliş və tənəzzül dövrü olur.**
**Hər bir xalqın, dövlətin təhlükəli, sınaqlı illəri, günləri olur.**
**Xoşbəxt o xalqdır ki, onu inkişaf etdirən, yüksək rifaha, mədəni intibaha çatdıran liderləri olur!**
**Xoşbəxt o dövlətdir ki, təhlükəli, sınaqlı illərində ona müdrik, uzaqgörən, iradəli, qətiyyətli və hünərli rəhbərlər başçılıq edirlər.**
**Başı çox bəlalar çəksə də, Azərbaycan xalqını xoşbəxt xalqlardan hesab etmək olar!**
**Bu gün bu sözləri daha inamla, daha sevinclə söyləyə bilirik.**
**Bu inamı, bu sevinci bizə bəxş edən xalqımızın xilaskar oğlu İlham Əliyevdir!**

*Müstəqillik dövrümüzün ilk xilaskarlıq missiyası Ulu Öndər Heydər Əliyevə məxsusdur.*

*Xalqın arzu və tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıtdıqdan sonra Azərbaycanı xaos və anarxiya burulğanından, özbaşınalıq və qanunsuzluqlardan, bir dövlət kimi məhvolmadan xilas etdi.*

*Tariximizin ən böyük xilaskarlıq missiyasını isə yeni dövrün yeni rəhbəri cənab İlham Əliyev yerinə yetirdi!*

**Həm də Ulu Öndərimizin vəsiyyətlərini icra etməklə, onun yarımçıq qalmış işlərini başa çatdırmaqla, Azərbaycanı müasir və qüdrətli dövlətə çevirməklə, xalqın ən müqəddəs arzusunu uğurla gerçəkləşdirməklə!**

Prezident İlham Əliyev bizi nələrdən xilas etdi?

Birlikdə nəzərdən keçirək.

❖ ❖ ❖

Xalqımızın ən böyük ağrısı, sağalmaz yarası torpaqların erməni işğalında qalması idi!

BMT qəbul etdiyi dörd qətnaməni yerinə yetirə bilmir, ATƏT-in Minsk qrupu danışıqların imitasiyası ilə məşğul olur, digər beynəlxalq qurum və təşkilatlar beynəlxalq hüququn norma və prinsiplərini, ədaləti təmin etməkdə acizlik göstərir, Ermənistan isə sülhdən boyun qaçırırdı.

**Belə bir mürəkkəb məqamda həm dünya miqyaslı nüfuzlu siyasi xadim, həm mahir diplomat, həm də qətiyyətli sərkərdə kimi meydana girən İlham Əliyev bir həmlə ilə işğal altındakı torpaqlarımızı düşməndən azad etdi!**

**Beləliklə, itirilmiş əraziləri geri qaytaran dövlət başçısı kimi Azərbaycan tarixinə düşdü!**

❖ ❖ ❖

Düz 27 il idi ki, Azərbaycan parçalanmış vəziyyətdə qalmışdı.

Düşmən təkcə Dağlıq Qarabağı deyil, üstəlik ona bitişik yeddi rayonumuzu da ələ keçirərək möhkəmləndirmə işləri aparmışdı.

Hətta münaqişəyə "nöqtə qoymaqla" torpaqları özününkü sayırdı.

**Azğınlaşmış düşməni ərazimizdən qovan Ali Baş Komandanımız Vətəni parçalanmış vəziyyətdən xilas etdi, torpaqlarımızı yenidən bütövləşdirdi!**

❖ ❖ ❖

XIX əsrdən başlayaraq Azərbaycan əraziləri hesabına özlərinə dövlət quran ermənilər sonralar da bizdən torpaq qoparmağa fürsət gəziblər.

Əllərinə düşən imkanı heç zaman qaçırmayıblar: bu, 1918-ci ildə ilk dəfə müstəqil dövlət quranda da belə oldu, sovet hökumətinin ermənipərəstliyindən istifadə edib 1948-1953-cü illərdə soydaşlarımızı Ermənistan ərazisindəki tarixi torpaqlarından deportasiya etdirəndə də!

Ötən əsrin doxsanıncı illərində ikinci dəfə dövlət müstəqilliyi qazanmaq şansı yarananda da ermənilər fürsəti əldən vermədilər...

Təəssüf ki, həmin dövrdə Azərbaycan çox ağır durumda idi: xalq həqiqi rəhbərindən ayrı düşmüşdü: ölkəyə maymaq, qorxaq, qətiyyətsiz insanlar rəhbərlik edirdi, AXC-Müsavat cütlüyü isə vəzifə hərisliyinə düşdüyündən ölkədə xaos, anarxiya və özbaşınalıq mühiti yaradaraq torpaqların müdafiəsinə imkan vermirdi.

Əslində nə nizami ordu quran vardı, nə də onu silah-sursatla təmin edə bilən!

Belə vəziyyətdə 20 faiz ərazimiz işğal olundu!

*Düşmənə qarşı qəhrəmanlıqla mübarizə aparan xalq 20 min şəhid versə də, torpağını qoruyub saxlaya bilmədi!*

*Gözəl Qarabağ, ətrafındakı yeddi rayon, bütün strateji yüksəkliklər işğala məruz qaldı!*

Məğlub, miskin duruma düşdük!

İllər boyu düşmənlə bir masa ətrafında oturmalı, onların sülh yolu ilə torpaqlarımızı nə vaxt qaytaracaqlarını gözləməli olduq...

**Tariximizin ən görkəmli sərkərdəsi İlham Əliyev bizi bu göz kölgəliyindən, baş qaxıncından qurtardı!**

**Sərkərdələr sərkərdəsi İlham Əliyev bizi "qorxaq millət", "torpağını qoruya bilməyən xalq", "torpaq itirən dövlət" töhmətindən də xilas etdi!**

❖ ❖ ❖

*Vətəndə vətən həsrəti çəkmək çox ağırdır, çox çətindir!*

Əl uzatsan əlin çatacaq elinə-obana gedə bilmirsən!

İllər boyu min bir əziyyətlə, əl qabarı ilə tikib-qurduğun evini, kəndini, şəhərini gözünün qabağında dağıdıb xarabalığa çevirirlər, durdurmağı bacarmırsan!

**İlham Əliyev bizi bu mənəvi iztirablardan xilas etdi!**

❖ ❖ ❖

*Doğma el-obada təkcə evlərimizi yox, qəbiristanlıqlarımızı, küçə və məhəllələrimizi, uşaqlıq və gənclik xatirələrimizi də qoyub gəlmişdik.*

*Ölülərimiz yasin səsinə həsrət qalmışdılar!*

Novruz bayramlarında doğmalarımızın məzarlarını ziyarət edə bilmirdik!

Qohum-qardaşdan, qonum-qonşudan ayrı düşərək hərəmiz respublikanın bir guşəsinə səpələnmişdik!

Ürəyimiz istəyən insanları ildə bir dəfə görə bilmirdik!

**İlham Əliyev bizi bu həsrətdən xilas etdi!**

❖ ❖ ❖

*ATƏT yarananda o qədər sevinmişdik ki...*

Hər dəfə ATƏT-in Minsk qrupuna yeni həmsədr təyin olunanda çiçəyimiz çırtlayırdı: bu sədrin dövründə məsələ həllini tapacaq...

Hətta sədrlərdən biri Ağdam məscidindən bir daş parçasını gətirib bizə ərməğan da etmişdi...

Sonralar onların bu gəlişi-gedişi müxtəlif lətifələrə çevrilmişdi.

Amma həmin lətifələri ucadan danışıb gülə bilməzdik: ATƏT-in xətrinə dəyərdi!

Ermənilər isə ATƏT-in ... boşluğundan istifadə edərək həqarətə keçmişdilər.

Gah format dəyişmək istəyirdilər, gah Şuşada yallı oynayırdılar, gah da işğal rayonlarının beşini qaytararaq ikisini özlərinə saxlayacaqlarını söyləyirdilər...

**İlham Əliyev bizi erməni təhqirindən, ATƏT-in aşağılamasından, boş-boşuna gözləntilərdən xilas etdi!**

❖ ❖ ❖

Erməni özünü işğal etdiyi torpaqlarda ağa kimi aparırdı.

Təkcə yurdumuzu viran qoymurdu!

Meşələrimizi qırıb daşıyırdı!

Üzümlüklərimizin məhsullarından "erməni konyakı", çaxır istehsal edərək satırdı.

Mineral sularımızı öz adı ilə xarici bazarlara çıxarırdı.

Kəlbəcər dağlarındakı yeraltı sərvətlərimizi talan edirdi.

Xarici şirkətlərin cəlbi yolu ilə Zod mədənlərindən çıxardıqları qızılımızı acgözlüklə mənimsəyirdilər.

Həm də təkcə maddi sərvətlərimizi yox!

Tarixi-mədəni abidələrimizi uçururdular.

Məscidlərimizdə heyvan saxlayırdılar.

Musiqimizi mənimsəyib öz adlarına çıxırdılar.

**İlham Əliyev maddi sərvətlərimizi, mənəviyyatımızı, mədəni dəyərlərimizi talandan və məhv edilmədən xilas etdi!**

❖ ❖ ❖

*Ən nəhayət, xalqın yeni bir zümrəsi yaranmışdı: məcburi köçkün adı verilmişdi onlara.*

*Talehin nəsib etdiyi bu ad insanları sıxırdı, əzirdi.*

*Vətəndə yurdsuz olduğumuzu daim yadımıza salırdı.*

*Dövlət nə qədər kömək göztərib əl tutsa da, bunlar dərdə çarə deyildi.*

**İlham Əliyev bizi çarəsizlikdən xilas etdi!**

**İlham Əliyev bizi "məcburi köçkün" adından xilas etdi!**

**İlham Əliyev bizi vətəndə yurd həsrəti çəkməkdən qurtardı!**

❖ ❖ ❖

*Əsil rəhbərin xilaskarlıq missiyası belə olur!*

*Əsil sərkərdə ərazi bütövlüyünü bax, belə, düşməni əzə-əzə, qova-qova bərpa edir!*

*Əsil Prezident vətəndaşına belə qayğı göstərir, onun mənəvi iztirablarına son qoyaraq bütöv Vətən adlı əvəzsiz sərvətə qovuşdurur!*

**Tariximizin ən böyük rəhbəri, qüdrətli sərkərdəsi, mahir dövlət başçısı İlham Əliyev kimi!**

**Bəxtiyar SADIQOV**

---

Rəşadətli Ordumuzun Vətən müharibəsində qazandığı tarixi Zəfərlə əlaqədar Azərbaycan vətəndaşları, xaricdə yaşayan soydaşlarımız, eləcə də digər ölkələrin azərbaycansevər vətəndaşları Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə minnətdarlıq məktubları göndərməkdə davam edirlər.

# "Bu şanlı Qələbə Sizin iradəniz, qətiyyətiniz, müdrik və uzaqgörən siyasətiniz sayəsində əldə edildi"

AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bəzilərini təqdim edir.

Almaniyanın Verl şəhərindən Əli Göktürk yazır: "Möhtərəm Prezident, şanlı Azərbaycan Ordusunun Müzəffər Ali Baş Komandanı, Sizin rəhbərliyinizlə işğal altındakı ərazilərin azad edilməsində qazanılan zəfərinizə "Mübarək olsun!" deyir, Sizə hörmət və minnətdarlığımı bildirirəm. İnanıram ki, işğaldan azad edilmiş bütün ərazilərdə ən qısa zamanda quruculuq işləri başlayacaq və bu böyük zəfəriniz türk dünyasının birləşməsinə, bir olmasına imkan yaradacaq. Sizin timsalınızda şanlı Azərbaycan Ordusunun bütün igid əsgərlərinə minnətdaram və ehtiramla sonsuz salamlarımı çatdırıram. Tanrı türk ümmətini qorusun!"

Rusiyanın Moskva şəhərindən Ramil Əliyevin məktubunda deyilir: "Möhtərəm Prezident İlham Əliyev, 2020-ci il noyabrın 8-i Azərbaycan tarixinə Zəfər Günü kimi düşdü. Rusiya Federasiyası Moskva Vilayətinin İstra rayonunda azərbaycanlılar bu şanlı Qələbəni və Azərbaycanın tarixi torpaqlarının azad edilməsini bugünə kimi qeyd edirlər. Bu şanlı Qələbə Ulu Öndərimiz Heydər Əliyevin layiqli davamçısı olaraq Sizin müdrik, uzaqgörən siyasətiniz, böyük əməyiniz, iradəniz və qətiyyətiniz sayəsində əldə edildi. Sizin komandanlığınız altında Azərbaycanın Silahlı Qüvvələri 44 gün ərzində torpaqlarımızın azad edilməsinə nail oldu. "Moskva Vilayətinin İstra şəhər dairəsinin Azərbaycan İcması" yerli ictimai təşkilatı parlaq Qələbəyə, eləcə də Azərbaycanın dövlət başçısı kimi apardığınız uğurlu xarici və daxili siyasətə görə Sizə səmimi-qəlbdən minnətdarlığını bildirir".

Goranboy rayonundan Nəzrin Kərimli: "Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, mənim 19 yaşım var, Goranboy rayonunda müharibə veteranının ailə üzvüyəm. Müharibənin hər dəqiqəsini həyəcanla yaşayan biri kimi Sizə minnətdarlıq etməyi özümə borc bilirəm. Arxa cəbhədən ön cəbhəyə əlimizdən gələn köməyi edib, onları ruhlandırmağa, ilhamlandırmağa çalışdıq. Arxa cəbhədə olan insanların ilham mənbəyi isə Siz idiniz, cənab Prezident! Müsahibələriniz zamanı verdiyiniz səlis cavablarınız bizə güc verdi. Yüksək səslə bütün dünyaya haqq yolunda olduğumuzu bəyan etməyiniz, rəhbərliyinizlə şanlı ordumuzun zəfər çalması bizi bir yumruq olan Azərbaycana çevirdi. Biz 44 günlük müharibədən sonra başqa bir Azərbaycan olduq! Sizin yüksək hərbi şücaətiniz və diplomatik qalibiyyətiniz nəticəsində bizim müqəddəs Laçınımız işğaldan azad olundu. Bundan əvvəl Ağdam və Kəlbəcər rayonları da bir güllə belə atılmadan geri qaytarıldı. Uğrunda minlərlə şəhid verdiyimiz torpaqları şəhid vermədən azad etdiyiniz üçün Sizə minnətdaram. Biz güclü bir liderlə, cəsur Ali Baş Komandanla Azərbaycanı bütün dünyaya yenidən tanıtdıq. Siz Azərbaycanın qara bəxtli Qarabağına günəş kimi doğdunuz! Siz Qarabağımızın fatehi, igid sərkərdəsisiniz! Sizin sayənizdə bu gün mən qalib, düşmən tapdağında torpağı olmayan, başıdik, alnı açıq Azərbaycan vətəndaşıyam. Azərbaycan xalqı bir daha əmin oldu ki, gələcəyə İlhamla irəliləyəcək. Ulu Liderimiz Heydər Əliyevin dediyi kimi, mən fəxr edirəm ki, azərbaycanlıyam".

Füzuli rayonunun sakini Telman Hüseynov: "Azərbaycan tarixinə adını qızıl hərflərlə yazdıran Müzəffər Ali Baş Komandanım, 2020-ci il sentyabrın 27-dən torpaqlarımızın azadlığı uğrunda başlayan döyüşlərdə qalib gələcəyimizə inanırdım. Çünki bizim güclü Ordumuz və Müzəffər Ali Baş Komandanımız var. Füzuli torpağında Azərbaycan bayrağı dalğalananda ömrümün 87-ci ilində ürəyimdə qalan arzularım yenidən yarandı. Qısa bir müddətdə işğal olunmuş torpaqlarda və nəhayət, Qarabağın tacı olan Şuşamızda bayrağımızın dalğalanması Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı olduğunuzu bir daha sübut etdi. Qarabağsız Azərbaycan tam deyildi, Siz Qarabağı yenidən bizə qaytardınız. Tarixi ədaləti bərpa etdiniz və sübut etdiniz ki, Qarabağ Azərbaycandır! Hələ 1982-ci ildə Ümummilli Lider Heydər Əliyev Füzuli rayonuna səfər edərkən onu qarşılayanlar arasında mən də olmuşdum. İnanıram ki, tezliklə işğaldan azad olmuş torpaqlar çiçəklənəcək və mən Sizi doğma Füzulimdə qarşılayacağam. Allah Sizi qorusun, mənim və xalqımın əbədi Prezidenti!"

Ağdam sakini Yelmar Kərimov: "Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, mən 1972-ci il sentyabrın 5-dən Azərbaycanın qurucusu, yaradıcısı, müstəqilliyinin banisi Ulu Öndər Heydər Əliyevin dostu, Yeni Azərbaycan Partiyasının fəal üzvü olaraq Sizə uzun ömür, cansağlığı arzulayıram. Siz Ulu Öndərin vəsiyyətini yerinə yetirərək Qarabağımızı erməni faşistlərin tapdağından azad etdiniz, bizə böyük Qələbə sevinci yaşatdınız. Siz Azərbaycanı, Azərbaycan xalqını qoruyursunuz. Sizin kimi Ali Baş Komandani olan ölkə üçün heç bir qorxu, təhlükə yoxdur. Allah da Sizi və ailə üzvlərinizi qorusun!"

Bakı sakini Sənan İsrafilov: "Əziz Prezidentim, Müzəffər Ali Baş Komandanım, 30 ilə yaxındır ki, işğal altında olan torpaqları müdrik siyasətinizlə, qəhrəman Azərbaycan əsgərinin hünəri ilə azad etdiyiniz üçün Sizə öz adımdan və bütün yaşıdlarım adından sonsuz minnətdarlığımı bildirirəm. Bu müharibədə öz canını qurban vermiş şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə şəfa diləyərək, Sizə Azərbaycan naminə bütün işlərinizdə böyük uğurlar arzu edirəm. Xalqımızın tarixində və millətimizin ürəyində əbədi yaşayacaqsınız!"

Laçın sakini İlqar Nadirov: "Möhtərəm cənab Prezident, Müzəffər Ali Baş Komandan, 28 il öncə məcburi şəkildə köçürüldüyümüz Laçına qayıdışımızı təmin etdiyiniz üçün Sizə səsim və ailəm adından dərin təşəkkürümü bildirirəm. Rəşadətli Ordumuz Sizin rəhbərliyinizlə 2020-ci ilin bütün ağrılarını bizə unutdurdu. Artıq Bakıda Laçın küləyi əsir. İllər öncə bu cümləni dilə gətirəndə ürəyimiz əsirdi. Sanki yuxu kimi gəlir bütün yaşananlar. Allah şəhidlərimizə rəhmət eləsin. Siz də qeyd etdiyiniz kimi, onlar aslan kimi vuruşdular. Bütün gücü isə Sizdən aldı hərbçilər, cənab Prezident! Azərbaycan vətəndaşı olmaqdan qürur duyuram! Laçın Azərbaycandır! Qarabağ bizimdir!"

Kəlbəcər sakini Əlizamin Qarayev: "Möhtərəm cənab Prezident, müzəffər sərkərdəlik məharətinizlə şanlı Ordumuzun Qarabağ cəbhəsində qazandığı möhtəşəm hərbi zəfər münasibətilə Sizi ürəkdən təbrik edirik. Müzəffər Ali Baş Komandan, Vətən müharibəsinin zəfərləri silsiləsində Kəlbəcər rayonunun da olması bütün Azərbaycan xalqında hədsiz sevinc yaratdı. Biz kəlbəcərlilərin hisslərini sözlə ifadə etmək mümkün deyil. 27 illik həsrətdən sonra Kəlbəcərin döyüşsüz işğaldan azad edilməsi xalqımıza ən xoşbəxt, qürurlu günləri yaşatdı. Cənab Prezident, doğma yurdumuzu bizə qaytardığınıza görə Kəlbəcər rayonunun sakinləri adından Sizə sonsuz minnətdarlığımızı bildiririk. Kəlbəcər ziyalıları hər zaman bir olaraq Sizin ətrafınızda birləşiblər".

Yevlax rayonunun sakini Lyudmila Bağırovanın məktubunda deyilir: "Müzəffər Ali Baş Komandanımız, əzizimiz, qalib Sərkərdəmiz, çox hörmətli, əziz Mehriban xanım, gözləriniz aydın olsun! Qartallar oylağı Laçınımız da mənfur düşmən işğalından azad oldu. Dövlətimiz Sizin güclü siyasətiniz və Ordumuzun qüdrəti sayəsində öz ərazi bütövlüyünü təmin etdi. Çox şükürlər olsun. Vətənimizin azad olmuş hər guşəsinə şükür. Üçrəngli şanlı bayrağımızın Qarabağımızda dalğalandığını hər dəfə gördükdə gözlərim dolur. Mən bir şuşalı kimi, 1992-ci ildə Şuşanın işğalı günü iki qardaşını şəhid vermiş bacı kimi Sizə qəlbən minnətdaram. Şuşam azad olundu, qardaşlarımın və onlar kimi çoxsaylı şəhidlərimizin qanı yerdə qalmadı. İndi o şəhidlərin ruhu şaddır. Çox sağ olun, əziz Prezidentimiz. Zəfərimiz mübarək! Yaşasın qalib Azərbaycan Ordusu! Yaşasın İlham Əliyev! Yaşasın Azərbaycan!"

Naftalan sakini Aişə Əsədzadə: "Əziz Prezidentimiz, adım Aişədir, 7 yaşım var. Babam Hüseynov Rafiq polis mayoru kimi 1988-ci ildə Xankəndidə müharibədə iştirak edib. Nənəm hər zaman babamın Birinci Qarabağ müharibəsində çəkdiyi şəkilləri görəndə ağlayırdı. Mən indi başa düşürəm ki, nənəm niyə ağlayırdı. Çünki babam müharibə iştirakçısı və veteranı olub. Əziz Prezidentimiz, biz Sizi çox sevirik. Siz televiziyada çıxış edərkən nənəm hər dəfə deyir: Əsl rəhbərdir bizim Prezidentimiz. Hörmətli Prezidentimiz, mən inanıram ki, biz uşaqların gələcək xoşbəxtliyini ancaq Siz təmin edə bilərsiniz. Allah Sizi qorusun!"

Kəlbəcər sakini Məzahir Əhmədov: "Çox hörmətli cənab Prezident, bu gün bütün kəlbəcərlilər kimi mənim və ailə üzvlərimin sevincinin həddi-hüdudu yoxdur. Siz 27 illik Kəlbəcər həsrətinə son qoydunuz. Yenilməz Ali Baş Komandan olaraq işğalçını məğlub edərək doğma yurdumuzu bizə yenidən bəxş etdiniz. Mən ailəm adından və şəxsən öz adımdan Sizə dərin hörmət və ehtiramımı bildirirəm. Allah Sizi, rəşadətli müzəffər Ordumuzu qorusun! Cənab Prezident, biz Sizinlə fəxr edirik. Sizin qəhrəmanlığınızla xalqımızın yeni şanlı tarixi yazıldı. Zəfərimiz mübarək olsun!"

Neftçaladan Pərvin Səfərov: "Müzəffər Ali Bas Komandan, möhtərəm cənab Prezident, Siz bizim Qələbəmizin tarixi şəxsiyyətisiniz. Qələbə tarixini bizə yaşatdığınız üçün Sizinlə qürur duyuruq. Hər bir Azərbaycan vətəndaşı kimi qalib millətin nümayəndəsi olduğum üçün Sizə minnətdaram. "Qarabağ Azərbaycandır!" ifadəsi mənim həyatımın əsas yaradıcı hissəsinə çevrildi. Musiqi olaraq "Qarabağ Azərbaycandır!" yaradıcılığı bütün ifalarımın ideyasıdır. Biz də öz yaradıcılığımızla müqəddəs tariximizi əbədi yaşadacağıq. Sizin gücünüz bizə güc verir. Mənim hər zaman arzum olub ki, Azərbaycanın əbədi və əzəli torpaqlarında incəsənətin bütün incəliklərini yaşayım. Sizin sayənizdə arzularım reallığa çevrildi. Tezliklə bizim səsimiz Qarabağdan, mədəniyyətimizin beşiyi olan Şuşadan və digər müqəddəs torpaqlardan gələcək. İncəsənətin ürəyi hesab olunan müqəddəs torpaqlarda firavan Azərbaycan dövləti əbədi yaşayacaq. Sizə sonsuz inamı olan bir yaradıcı insan kimi hər zaman Sizin xidmətinizdəyəm. Yaşasın Azərbaycan Ordusu, yaşasın Ali Baş Komandan! Qarabağ Azərbaycandır!"

Gəncə sakini Nicat Sadıqov: "Möhtərəm cənab Prezident, Müzəffər Ali Baş Komandan, Sizi bu Qələbə münasibətilə ailəm və kəlbəcərlilər adından təbrik edirəm. Sizin müdrik siyasətiniz, Ordumuzun fədakarlığı sayəsində Azərbaycanın necə qeyrətli xalq olduğunu bütün dünya bildi. Azərbaycan Ordusunun Müzəffər Ali Baş Komandanı, Siz xalqımıza sonsuz sevinc anları bəxş etdiniz, millətimizi qalib xalq zirvəsinə yüksəltdiniz. Biz fəxr edirik ki, Sizin kimi Müzəffər Ali Baş Komandanımız var və şükür edirik ki, tarixə qızıl hərflərlə yazılacaq Qələbəni görmək bizə də nəsib oldu. Siz Azərbaycanın Milli Qəhrəmanısınız. Yaşasın Azərbaycan, yaşasın Müzəffər Ali Baş Komandan! Qarabağ Azərbaycandır!"

Laçın sakini Anar Həsənov: "Çox hörmətli cənab Prezident, Laçın rayonundan artıq keçmiş məcburi köçkün olaraq Sizə dərin minnətdarlığımı bildirirəm. Sizin dövlət başçısı, Ali Baş Komandan olaraq rəhbərliyiniz altında qəhrəman Ordumuzun, Laçın da daxil olmaqla, işğal altında olan torpaqlarımızı azad etməsi bütün Azərbaycan xalqı kimi mənə və ailəmə də çox böyük sevinc yaşatdı. 28 il Vətəndən ayrı düşmək dərdi, el-oba həsrəti məhz Sizin uğurlu siyasətiniz, qəti addımlarınız nəticəsində sona çatdı. Azərbaycanın işğal edilmiş torpaqlarının, Laçının qaytarılması kimi böyük hərbi-siyasi qələbə rəhbərliyinizlə xalqımızın tarixinə çox böyük, əlamətdar nailiyyət kimi yazıldı. Bizə Vətənə qayıtmaq kimi uzun illərdir ki, ürəyimizdə yaşatdığımız arzuya çatmaq imkanı yaratdığınıza görə bir daha Sizə dərin minnətdarlığımı bildirirəm. Sizə daim cansağlığı, dövlət xadimi kimi xalqımızın rifahı, mənafeləri uğrunda fəaliyyətinizdə uğurlar, qələbələr arzulayıram".

Xızı sakini İman Ağayev: "Möhtərəm cənab Prezident, Sizə deyiləsi o qədər xoş sözlər var ki, qədəri kainata belə sığmaz. Minnətdarlıq hisslərinin ən alisinə layiqsiniz. Bizi öz əzəli yurd yerlərimizə qovuşdurdunuz. Qələbə sevincini, qürurunu öz yurdu ilə, Sizinlə döyünən bütün ürəklərdə alovlandırdınız. Bizə zəfər yaşatdınız. Eşq olsun Sizə! Siz mərd oğlu mərdsiniz! Bizim Heydər babamızın oğlu, nə yaxşı ana yurdumuz Azərbaycanımızın, bizim Prezidentimizsiniz! Yaşa, Müzəffər Ali Baş Komandan!"

# Biz birlikdə güclüyük!

## *Hikmət HACIYEV:* “Sərt karantin rejiminin tətbiqində məqsəd Azərbaycan vətəndaşlarının sağlamlığının qorunmasıdır”

Sərt karantin rejiminin tətbiq edilməsi ilə bağlı cəmiyyətdən də tələblər var.

AZƏRTAC xəbər verir ki, bunu Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Nazirlər Kabineti yanında Operativ Qərargahın dekabrın 8-də keçirilən brifinqində deyib.



Prezidentin köməkçisi qeyd edib ki, son günlər Azərbaycanda koronavirusa yoluxanların sayı kifayət qədər ciddi rəqəmlərlə ölçülür və bu da böyük narahatlıq doğurur.

Hikmət Hacıyev bildirib ki, sərt karantin rejiminin tətbiqində məqsəd Azərbaycan vətəndaşlarının sağlamlığının qorunması, ölüm hallarının qarşısının alınmasıdır. Kütləvi vaksinlər tətbiq edilənə qədər vətəndaşlarımızın sağlamlığını qorumalıyıq.

* * *

Koronavirusun dünyada, qonşu ölkələrdə artma tendensiyası nəzərə alınaraq Azərbaycanda da bu sahədə qaydaların sərtləşdirilməsi barədə qərar qəbul edilib.

Prezidentin köməkçisi bildirib ki, peyvəndin tətbiqinə qədər yoluxmanın azaldılması istiqamətində tədbirlər həyata keçirilməlidir. Sentyabrın 27-dən - Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzündən bəri səhiyyə sistemimiz iki cəbhədə fəaliyyət göstərir. Hazırda 900-dən çox əsgər və zabitimizin tibbi müəssisələrdə müalicəsi davam etdirilir, digər tərəfdən də həkimlərimiz koronaviruslu xəstələrin müalicəsi ilə məşğuldurlar.

* * *

Azərbaycanda koronavirusun yayılma sürəti narahatlıq doğurur. Yaxınlarımızda bu xəstəliyin doğurduğu faciəvi halların şahidi oluruq. Bu da ölkə ictimaiyyətini ciddi surətdə narahat edir. Vətəndaşlarımızı qaydalara riayət etməyə çağırırıq. Elə insanlar var ki, koronavirus xəstəsi olduqlarını bilə-bilə sərbəst şəkildə küçələrdə gəzir və virusu yayırlar. Həmin insanlar virusu yüngül keçirə bilərlər, lakin onların yoluxdurduğu insanlar xəstəliyi ağır keçirə və hətta həyatını itirə bilərlər.

Hikmət Hacıyev qeyd edib ki, koronavirus xəstəsi olub evi tərk edən insanlarla bağlı 266 cinayət işi açılıb. Bu cür cinayətə görə üç ilə qədər həbs cəzası tətbiq edilə bilər.

## *Şahmar MÖVSÜMOV:* “Vətən müharibəsi zamanı düşmənə qarşı necə birlikdə mübarizə aparırdıqsa, bu gün də həmin birliyə ehtiyac var”

Təxminən ötən bir il ərzində biz koronavirus infeksiyasının ölkə ərazisində yayılmasının müxtəlif mərhələlərinə şahidlik etmişik. Bu müddət ərzində yoluxmaların sayında kəskin artım olur, görülən tədbirlər nəticəsində azalma müşahidə olunur və müxtəlif yumşalmalar həyata keçirilir.

AZƏRTAC xəbər verir ki, bu barədə Prezidentin köməkçisi - Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov Nazirlər Kabineti yanında Operativ Qərargahın dekabrın 8-də keçirilən brifinqində deyib.



Şahmar Mövsümov qeyd edib ki, ötən müddət ərzində səhiyyə sisteminin imkanlarının daha da yaxşılaşdırılması ilə bağlı bir çox işlər görülüb. Modul tipli yeni xəstəxanaların istifadəyə verilməsi, səhiyyə strukturlarının təchizatının daha da yaxşılaşdırılması, xarici ölkələrdən həkimlərin dəvət olunması, treninqlərin keçirilməsi bu istiqamətdə atılan mühüm addımlar hesab olunur. Biz iyul-avqust aylarında sərtləşdirilmiş karantin rejiminə keçərkən yoluxmaların sayı 500 civarında idi. Bu gün isə səhiyyə sistemimiz gündəlik 4000 yoluxma sayına dözə bilir. Lakin heç bir səhiyyə sistemi limitsiz deyil.

Xəstəxanalarla daim təmasda olduğunu söyləyən Prezidentin köməkçisi qeyd edib ki, bu gün həkimlərimiz çox gərgin bir şəraitdə fəaliyyətlərini davam etdirirlər. “Gərək biz hər birimiz bu cəbhədə onlara yardım edək. Vətən müharibəsi zamanı biz birlikdə düşmənə qarşı mübarizə aparırdıqsa, bu gün də həmin birliyə ehtiyac var”, - deyə Şahmar Mövsümov əlavə edib.

* * *

Ümid edirik ki, 2021-ci il yanvarın 18-dək tətbiq olunacaq sərtləşdirilmiş xüsusi karantin rejimi nəticəsində yoluxmaların sayı kifayət qədər aşağı enəcək və idarə olunan səviyyədə olacaq, həmçinin xəstəxanalarda da xəstələrin sayı azalacaq.

Şahmar Mövsümov qeyd edib ki, koronavirus infeksiyasına qarşı vaksinin hazırlanması prosesi izlənilir və müxtəlif danışıqlar aparılır. Vaksinlərin təhlükəsizliyi ilə bağlı qeyd etmək istərdim ki, hər birimizə uşaqlıqdan müxtəlif peyvəndlər vurulub. Tam təhlükəsiz və ənənəvi peyvəndin hazırlanması və hamı üçün əlçatan olması təbii ki, müəyyən vaxt tələb edir. Artıq Böyük Britaniyada vaksinləşmə prosesi başlayıb. Türkiyə də artıq qısa müddətdə vaksinləşmə prosesinə başlayacağını elan edib. Türkiyədə vaksinləşmə Çində istehsal olunan peyvəndlərlə aparılacaq ki, bu da ən təhlükəsiz peyvəndlərdən hesab olunur. Bizim tərəfimizdən də bu istiqamətdə müəyyən işlər aparılır və yəqin ki, qısa müddət ərzində peyvəndlər haqqında, bu prosesin Azərbaycanda nə vaxt başlayacağı, ilk növbədə, kimlərin peyvənd olunacağı barədə əlavə məlumat veriləcək.

## *Operativ Qərargah:* “Ölkə üzrə xüsusi karantin rejiminin müddəti yanvarın 31-dək uzadılır”

### 2020-ci il 14 dekabr saat 00:00-dan 2021-ci il 18 yanvar saat 00:00-dək bütün ölkə üzrə sərtləşdirilmiş xüsusi karantin rejimi tətbiq edilir




Dünya ictimaiyyətinin üzləşdiyi COVID-19 pandemiyasının hazırda növbəti dalğası yaşanmaqdadır. Artıq dünyada 60 milyondan çox yoluxma halı qeydə alınıb və 1 milyondan çox insan yeni növ koronavirusdan həyatını itirib. Pandemiyanın bu mərhələsində virusa yoluxmanın yüksək həddi müxtəlif ölkələrdə yenidən sərt karantin tədbirlərinin tətbiq olunmasını şərtləndirib.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildiriblər ki, Azərbaycanda son aylarda yaşanan yüksək yoluxma səviyyəsi nəzərə alınaraq, virusun yayılmasının qarşısının alınması məqsədilə ölkə ərazisində sərtləşdirilmiş karantin tədbirlərinin həyata keçirilməsinə qərar verilib.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarına əsasən:

- ölkə üzrə xüsusi karantin rejiminin müddəti 2021-ci il 31 yanvar 06:00-dək uzadılır;
- 2020-ci il 14 dekabr saat 00:00-dan 2021-ci il 18 yanvar saat 00:00-dək bütün ölkə üzrə sərtləşdirilmiş xüsusi karantin rejimi tətbiq edilir;
- Xüsusi karantin rejiminin sərtləşdirilməsindən irəli gələrək 2020-ci il 14 dekabr saat 00:00-dan 2021-ci il 18 yanvar saat 00:00-dək ölkənin bütün ərazisində Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarı ilə müəyyən edilmiş iş və xidmət sahələri istisna olmaqla digər sahələrdə iş və xidmətlər dayandırılır. Bütün ticarət obyektlərinə, ictimai iaşə obyektlərinə, o cümlədən restoran, kafe və çay evlərinə müştərilərə yalnız çatdırma xidmətlərinin göstərilməsi və ya onlayn satışa icazə verilir;
- 2020-ci il 14 dekabr saat 00:00-dan 2021-ci il 18 yanvar saat 00:00-dək operativ və xüsusi təyinatlı nəqliyyat vasitələrinin, habelə yükdaşıyan avtomobillərin və Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinin nəqliyyat vasitələrinin hərəkəti istisna olmaqla, Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Şirvan şəhərlərinin və Abşeron rayonunun ərazisinə, eləcə də Lənkəran, Masallı, Cəlilabad, Şəki, Zaqatala, Quba, Xaçmaz, Yevlax, Bərdə, Biləsuvar və İsmayıllı rayon mərkəzlərinə (kənd və qəsəbələr istisna olmaqla) giriş-çıxış dayandırılır;
- 2020-ci il 14 dekabr saat 00:00-dan 2021-ci il 18 yanvar saat 00:00-dək Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Şirvan şəhərlərinin və Abşeron rayonunun ərazisində, eləcə də Lənkəran, Masallı, Cəlilabad, Şəki, Zaqatala, Quba, Xaçmaz, Yevlax, Bərdə, Biləsuvar və İsmayıllı rayon mərkəzlərində (kənd və qəsəbələr istisna olmaqla) hərəkət məhdudiyyəti tətbiq edilir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı əsasında müəyyən edilən siyahı üzrə müvafiq qurumlarda çalışan şəxslər xidməti vəsiqə əsasında, eyni zamanda, qərarla müəyyən edilmiş digər təşkilatların və qurumların işçiləri onlar barədə məlumatlar işəgötürən tərəfindən elektron imzadan istifadə edilməklə “icaze.e-gov.az” portalına daxil edildikdən sonra yuxarıda qeyd olunan ərazilərdə hərəkət edə bilərlər;

Müvafiq dövlət qurumları və özəl hüquqi şəxslərin əməkdaşları, habelə bəzi könüllülər təşkilatlarının üzvləri barədə məlumatlar “icaze.e-gov.az” portalına 9 dekabr 2020-ci il saat 10:00-dan etibarən daxil edilməlidir.

- 2020-ci il 14 dekabr saat 00:00-dan 2021-ci il 18 yanvar saat 00:00-dək Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Şirvan şəhərlərinin və Abşeron rayonunun ərazisində, eləcə də Lənkəran, Masallı, Cəlilabad, Şəki, Zaqatala, Quba, Xaçmaz, Yevlax, Bərdə, Biləsuvar və İsmayıllı rayon mərkəzlərində (kənd və qəsəbələr istisna olmaqla) bütün digər şəxslərin yaşayış yerini və olduğu yeri tərk etmələrinə SMS-icazə sistemi və ya Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Növbətçi Hissələri İdarəetmə Xidmətinin 102 Xidməti - Zəng Mərkəzi vasitəsilə icazə verilir.

SMS-icazə sistemi aşağıdakı hallarda tətbiq edilir:

- təxirəsalınmaz tibbi zərurətlə və ya qrafik üzrə müalicə almaqla əlaqədar yaşayış yerini və olduğu yeri tərk etmək üçün (icazə rayon və şəhər daxilində 3 saat müddətinə verilir, rayonlar və şəhərlərarası hərəkət zərurəti yarandıqda olduğu ünvanla getməli olduğu ünvan arasında məsafə və müalicə prosedurunun müddəti nəzərə alınır, geri qayıtma müddəti həkim tərəfindən verilən arayışla müəyyən edilir və zərurət olduqda polis əməkdaşlarına təqdim edilir);

- ərzaq və digər gündəlik tələbat mallarının və dərman vasitələrinin alınması (ərzaq mağazalarından, supermarketlərdən, bazar və aptekdən), dövlət xidmətlərinin, bank, poçt və fəaliyyətinin davam etdirilməsinə icazə verilən iş və xidmət sahələrində göstərilən digər xidmətlərdən istifadə edilməsi zərurəti, həmçinin açıq havada vaxtın keçirilməsi ilə əlaqədar yaşayış yerini və olduğu yeri tərk etmək üçün (icazə 3 saat müddətinə gündə 1 dəfə verilir, dövlət xidmətlərindən istifadə edilməsi zərurəti ilə əlaqədar yaşayış yerini və olduğu yeri tərk edən şəxslər üçün geri qayıtma müddəti müvafiq dövlət qurumu tərəfindən verilən arayışla müəyyən edilir).

Yaxın qohumunun dəfnində iştirakla əlaqədar yaşayış yerini və olduğu yeri tərk etmək üçün isə hər bir şəxs Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Növbətçi Hissələri İdarəetmə Xidmətinin 102 Xidməti - Zəng Mərkəzi vasitəsilə icazə almalıdır.

Beynəlxalq və ölkədaxili uçuşlara müvafiq reys üçün bileti olan şəxslərin yaşadıqları və olduqları yerdən hərəkətinə onların biletləri əsasında, dövlət sərhədindən müvafiq qaydada ölkəyə daxil olan şəxslərin yaşadıqları və olduqları yerə gəlməsinə isə onların pasportuna vurulmuş ştamp əsasında yol verilir.

- Bakı Metropolitenində sərnişindaşımanın fəaliyyətinə tətbiq olunan məhdudiyyət 2021-ci il 31 yanvar saat 06:00-dək uzadılır.
- Bütün ölkə ərazisində şənbə və bazar günləri ictimai nəqliyyatın fəaliyyətinə tətbiq olunan məhdudiyyət 2021-ci il 31 yanvar saat 06:00-dək uzadılır;

2020-ci il 14 dekabr saat 00:00-dan 2021-ci il 18 yanvar saat 00:00-dək tətbiq olunan məhdudiyyətlərin iqtisadi fəallığa təsiri nəzərə alınaraq əvvəlki sərtləşdirilmiş karantin rejimi zamanı müəyyən edilmiş ehtiyacı olan təqribən 600 min nəfərə 190 manat birdəfəlik maddi yardım göstəriləcəkdir. Eyni zamanda, zərərçəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlara yardım edilməsi nəzərdə tutulur.

Xatırladırıq ki, xüsusi karantin rejiminin qüvvədə olduğu müddətdə ölkə üzrə bütün qapalı və açıq məkanlarda müvafiq qaydada tibbi maskalardan istifadə məcburi hesab olunur.

Virusun geniş yayılmasının qarşısının alınması məqsədilə hamını dövlət tərəfindən görülən tədbirlərə dəstək göstərməyə, özünüzün və ailənizin sağlamlığı naminə COVID-19 virusu ilə mübarizədə karantin tələblərinə ciddi riayət etməyə çağırırıq.

Hazırkı dövrdə ciddi zərurət yaranmadıqda ictimai yerlərdə olmamaq, digər şəxslərlə yaxın təmaslardan yayınmaq, qapalı və açıq məkanlarda sosial məsafəyə əməl etmək, tibbi maska və digər qoruyucu vasitələrdən istifadə etmək zəruridir. Eləcə də xəstəliyin ilkin əlamətlərini hiss etdikdə, özünütəcrid tələblərinə ciddi riayət etməyə, zəruri müalicə tədbirlərinin həyata keçirilməsinə çağırırıq.

## *Yaqut QARAYEVA:* “Koronavirusdan sağalanların sayında artım tendensiyası müşahidə olunur”

Dünən dünya üzrə koronavirusa yoluxmaların sayı 549 min 946 olub. Ümumiyyətlə isə, dünyada koronavirusa yoluxanların sayı 66 milyonu keçib.

AZƏRTAC xəbər verir ki, bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) Xəstəliklərin profilaktikası və kontrolu şöbəsinin müdiri Yaqut Qarayeva söyləyib.



O bildirib ki, dekabrın 8-də Azərbaycanda koronavirusa daha 4387 yoluxma faktı aşkarlanıb, sağalanların sayı 3133 olub. Sağalanların sayında artım tendensiyası var. Bu, ümidverici rəqəmlərdir. Lakin ən vacibi aktiv olan xəstələrin sayıdır ki, bu rəqəm 59 mini keçib. Bu da səhiyyə sisteminin ciddi yüklənməsi deməkdir. Dekabrın 8-də aparılan test sayları 18 mini keçib. Yaz aylarında gündəlik olaraq maksimum 5 min test apara bilirdiksə, hazırda onların sayı 20 minə çatıb. Təəssüf ki, bu gün 38 koronavirus xəstəsi vəfat edib.

Y.Qarayeva ölkə üzrə keçirilən ümumi testlərin sayının 2 milyona yaxınlaşdığını da qeyd edib.

“Ölkə üzrə yoluxmaların 52 faizi Bakı şəhərinin payına düşür”, - deyə Y.Qarayeva diqqətə çatdırıb.

* * *

Əgər iyun-iyul aylarında yoluxma faizi, yəni götürülən testlər arasında pozitiv çıxan nəticələr 10 faizdən az olurdusa, hazırda həmin göstərici ortalama 25 faiz və bəzən ondan da çox olur. Yoluxma faizində ciddi artım müşahidə edilir.

O bildirib ki, hazırda reanimasiya və intensiv terapiya şöbələrində müalicə alan koronavirus xəstələrinin sayı iyun-iyul aylarından iki dəfə çoxdur. Bu da müəyyən tədbirlərin görülməsini zəruri edir.

* * *

Bu gün müalicə işi ilə məşğul olan həkimləri narahat edən məsələ xəstələrin stasionarlara ağırlaşmış vəziyyətdə daxil olmasıdır. Ən çox narahatlıq doğuran ev şəraitində aparılan bəzi müalicələrdir. Əhali arasında sosial şəbəkələr vasitəsilə çoxlu sayda reseptlər dolaşır.

Şöbə müdiri deyib: “Ev şəraitində hansı dərman preparatları qəbul edilə bilər? Bu, vitamin preparatları və bəzi qandurulaşdırıcı dərmanlardır. Xroniki xəstəliyi olanlar həmin preparatları qəbul edə bilərlər. Lakin digər vətəndaşlar qandurulaşdırıcı preparatları yalnız həkim məsləhəti ilə qəbul etməlidir və miqdarı da həkim tərəfindən təyin olunmalıdır, çünki bu, ciddi fəsadlara səbəb ola bilər. Bundan əlavə, yataq rejimi və bol maye qəbulu tövsiyə olunur”.

“Hansı preparatlar həkim təyinatı olmadan qəti qəbul edilə bilməz? Bu, hormonal preparatlar və steroidlərdir. Təəssüf ki, Deksametazon bütün ölkədə geniş istifadə olunur və hətta apteklərdə onu vətəndaşlara məsləhət görürlər. Bu, çox ciddi səhvdir və xəstələrin vəziyyətinin evdə fəsadlaşmasına səbəb olur. Heç bir halda həkim məsləhəti olmadan Deksametazon və steroid preparatı qəbul etmək olmaz. Buraya antibiotiklər və antiviral preparatlar daxildir. Özümüzü ən sadə metodlarla - gigiyenaya əməl etmək, maska taxmaq və məsafə saxlamaqla qorumağa çalışaq”,- deyə Y. Qarayeva bildirib.

## Azərbaycanda koronavirus infeksiyasına daha 4387 yoluxma faktı qeydə alınıb, 3133 nəfər sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 4387 yoluxma faktı qeydə alınıb, 3133 nəfər müalicə olunaraq sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 38 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 154 min 152 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 93 min 411 nəfər müalicə olunaraq sağalıb, 1713 nəfər vəfat edib. Aktiv xəstə sayı 59028 nəfərdir.

Ötən müddət ərzində 1 milyon 865 min 512 test aparılıb. Dünənki test sayı isə 18321-dir.




## Koronavirus infeksiyasının yayılması üçün real təhlükə yaradan Zərdab rayon sakini tutulub

Koronavirus infeksiyasının yayılmasının qarşının alınması məqsədilə ölkəmizdə elan olunan xüsusi karantin rejiminin müxtəlif yollarla pozulması hallarına qarşı prokurorluq orqanları tərəfindən kompleks və ardıcıl tədbirlər davam etdirilir.

Zərdab Rayon Prokurorluğunun AZƏRTAC-a daxil olan məlumatında bildirilib ki, rayon sakini 1962-ci il təvəllüdlü Hüseynov Telman Əli oğlu COVID-19 virusu ilə bağlı verdiyi testin nəticəsinin pozitiv olmasını bilə-bilə xüsusi karantin rejiminə əməl edərək həmin müddəti evdə keçirməli olduğu halda, yaşadığı evi qanunsuz tərk etməklə epidemiya əleyhinə, eləcə də karantin rejimini kobud surətdə pozub yeni növ koronavirus infeksiyasının yayılması üçün real təhlükə yaradıb.

Faktla bağlı Zərdab Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 139-1.1-ci (epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və ya karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanaraq, istintaqın aparılması üçün aidiyyəti üzrə Zərdab Rayon Polis Şöbəsinə göndərilib.

Hazırda iş üzrə zəruri istintaq hərəkətləri davam etdirilir.

## Göyçayda karantin qaydalarını pozan şəxs barəsində cinayət işi başlanıb

Koronavirus infeksiyasının yayılmasının qarşının alınması məqsədilə ölkəmizdə elan olunan xüsusi karantin rejiminin müxtəlif yollarla pozulması hallarına qarşı prokurorluq orqanları tərəfindən kompleks və ardıcıl tədbirlər davam etdirilir.

Göyçay Rayon Prokurorluğunun AZƏRTAC-a daxil olan məlumatında bildirilib ki, rayon sakini 1988-ci il təvəllüdlü Məmmədov Xası Sabirşad oğlu COVID-19 virusu ilə bağlı verdiyi testin nəticəsinin pozitiv olduğunu bilə-bilə xüsusi karantin rejiminə əməl edərək həmin müddəti evdə keçirməli olduğu halda, dekabrın 7-də yaşadığı evi qanunsuz tərk etməklə epidemiya əleyhinə, eləcə də karantin rejimini kobud surətdə pozub yeni növ koronavirus infeksiyasının yayılması üçün real təhlükə yaradıb.

Faktla bağlı Göyçay Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 139-1.1-ci (epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və ya karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanaraq, istintaqın aparılması üçün Göyçay Rayon Polis Şöbəsinə göndərilib. Hazırda iş üzrə zəruri istintaq hərəkətləri davam etdirilir.

# Tarixin şərəfli imzası



**... Şuşa sevinci ilə yuxuya dalmışdım. Bir gün əvvəl Ali Baş Komandan İlham Əliyevin Vətənin ən müqəddəs məkanı olan Şəhidlər xiyabanından xalqa yetirdiyi Şuşa müjdəsinin bütün həmvətənlərimiz kimi qəlbimə dolmuş həyəcanı röyada da davam edirdi.**

**Yuxunun dərinliyində bu sevgili şəhərin daş döşənmiş küçələrində qanad açıb uçurdum, dumana bürünmüş saf havasını tamarzı kimi ciyərlərimə çəkirdim, havasından, suyundan, torpağından, daşından, ağacından, otundan, çiçəyindən doya bilmirdim.**



Elə röyada "Güllələnmiş heykəllərin fəryadı" əsərimi yaşadım. Qulaqlarımda möhtərəm Prezidentimiz İlham Əliyevin dediyi sözlər səsləndi: "Mən bilirəm nəyi, nə vaxt və necə etmək lazımdır..."

Əsərdə Molla Pənah Vaqif Pənahəli xanın ruhuna ehtiramla deyir: "Tələsmə, xan, tədbirli ol. İddia, mənəm-mənəmlik adlı bir qara ilan sürünür içimizdə, gərək əvvəlcə onu boğaq. Ağıl və tədbir üstün silahdır. Düşmən ağılla çökdürülməlidir. Ağlın uçurmadığı sədd yoxdur. İndi qoy hər kəs özü düşünsün, qərar çıxarsın!"

Bəli, ağıllı və tədbirli olmaq!

Ali Baş Komandan bunu Vətən müharibəsinin gedişində bütün dünyaya sübüt etdi.

Amma bununla bahəm içimdə bir narahatlıq da vardı. Hərbi əməliyyatlar hələ bitməmişdi. İgid balalarımız əldə silah müqəddəs torpaqlarda düşmənə qarşı haqq savaşını davam edirirdilər. Hər an itkilər baş verə, gəncəcik talelər qarala bilərdi. Axı müharibənin öz qanunları var.

Bu an içimdə bir hiss baş qaldırmışdı: kaş bu nigaranlıq tez bitəydi, şəhidlərimiz, yaralılarımız olmayaydı, Böyük Qələbəyə tez bir zamanda itkisiz, ağrıacısız qovuşaydıq...

❖ ❖ ❖

...Telefonun qəfil zənginə oyandım.

Ekranda oğlumun adı görünürdü. Telefon zənginin səsi gecəyarı küçədən eşidilən qələbəliyin səsinə, insanların sevinc hayqırtılarına qarışmışdı.

Telefona cavab verənə qədər oğlumun bu qəfil zənginə bir anlıq hövüllləndim, son dərəcə önəmli nəsə baş verməsəydi, bu vaxtlar zəng edib yuxudan oyatmazdı. Amma elə o an da küçədəki qələbəlikdən hiss etdim ki, bu zənglə bu hayqırtılar bir-biri ilə necəsə əlaqəlidir. Yanılmamışdım...

- Ata, tez televizoru aç. Prezidentimiz danışacaq. Ermənistan məğlub oldu! Biz qalib gəldik! Anamı da oyat...

Sevincindən uşağı qəhər boğurdu.

Xoş xəbərə görə "sağ ol, oğlum, şad xəbər olasan, muştuluğun məndə" deyib telefonu qapatdım. Televizoru açdım. Həyat yoldaşımı oyatmağa gərək qalmadı. Səsə yuxudan özü oyanıb gəldi, Prezidentimizin çıxışını birgə dinləməyə başladıq.

Həmin an adama elə gəlirdi ki, o gecə bütün doğmalar bir-birinə zəng edib. Bir-birinə xoş xəbəri yetirib.

Bütün dünya azərbaycanlıları oyaqdır, ayaqdadır, öz liderinin bu tarixi çıxışını göz yaşı içində dinləyir...

❖ ❖ ❖

"Dedik yetər artıq, bu əsarət yetər! Bizim şəhərlərimiz əsarət altında nə qədər qalacaq?! Mənfur düşmən bizim təbiətimizi nə qədər murdarlayacaq, bizim torpağımızda gəzəcək, yeyəcək, içəcək, rəqs edəcək, bizi təhqir edəcək. Dedik ki, düşmənə yerini göstərəcəyik, düşməni torpaqlarımızdan qovacağıq və qovduq da! Sentyabrın 27-də nə baş verib, onu tarixçilər deyəcək"...

Dövlət rəhbərinin qürur dolu kəlmələrini dinlədikcə həyat yoldaşım bir tərəfdə xısın-xısın ağlayırdı, özümün də gözlərimdən ixtiyarsız yaş süzülürdü.

Yeri gəlmişkən deyim ki, həyatımda iki dəfə hönkür-hönkür ağlamışam; 20 yanvar 1990-cı ildə, 8 may 1992-ci ildə - Şuşanın işğalı günü.

Cənab İlham Əliyev Ermənistanın faktiki kapitulyasiya aktı olan bəyannamənin məzmunu haqqında danışırdı, düşüncələrimdən isə Azərbaycanla bağlı tarixin müxtəlif dönəmlərində imzalanmış müqavilələr keçirdi.

1813-cü ildə bağlanmış "Gülüstan" müqaviləsini düşünürdüm...

207 il əvvəlin 12 oktyabr günü indiki Goranboy rayonunun Gülüstan kəndində Rusiya imperiyası ilə Qacarlar dövləti arasında imzalanmış həmin o müqaviləni...

Bu müqavilənin mətnini Böyük Britaniyanın Qacar imperiyasındakı nümayəndəsi olan və hakimiyyətə böyük təsir gücünə malik Ser Qor Ousli hazırlamışdı. Sənədə imza atanlar isə Rusiya tərəfdən Nikolay Rtişev, Qacarlar tərəfindən Mirzə Əbülhəsən xan Elçi idi.

... Sonra 1928-ci ilin 10 fevral günü imzalanmış "Türkmənçay" müqaviləsini xatırladım.

Yenə bir tərəfdən İranın vəliəhdi şahzadə Abbas Mirzə və Fətəli şahın nümayəndəsi Allahyar xan Əsəf əl-Dövlə, Rusiya imperiyası tərəfdən də general İvan Paskeviç...

Fakt yanlışsa, o dövrün peşəkar tədqiqatçıları qüsuruma baxmasın, bildiyim qədər "Türkmənçay" müqaviləsinin imzalanması mərasimində biz azərbaycanlıların iştirakı olsa-olsa həmin dövrdə zabit kimi çar ordusunda xidmət edən böyük maarifçimiz Abbasqulu ağa Bakıxanovun dilmanclığından o tərəfə getmirdi...

Tarixi taleyinə qərar verilən böyük bir xalq özü bu müqavilələrin şərtləri barədə nə düşünürdü, bu müqavilələrdə irəli sürülən müddəalarla, şərtlərlə razı idimi, razı deyildimi, heç soruşan belə yox idi...

Varkən yox sayılırdıq...

Bütün danışıqlar, razılaşmalar bizdən heç nə soruşmadan həyata keçirilirdi. Qərarlar bizi saya salmadan başımızın üstündən aparılırdı...

Gələcəyimizə biçilən tale ilə barışmaqdan özgə nə əlacımız vardı ki?!

Kim idi rəyimizi öyrənən, kim idi bizim istəklərimizlə hesablaşan. Ondan sonra əldə edilən müxtəlif razılaşmalar, verilən qərarlar, bağlanan müqavilələr, sazişlər də eləcə...

Həmişə tarixə boylananda ürəyimizi yandırıb-yaxan ən çox bu olub. Unudulmaz şairimiz Bəxtiyar Vahabzadə cavab tapa bilmədiyimiz bu sualı Yerin, Göyün gözəgörünməz sahibinə ünvanlayırdı:

Çəliyə möhtac ikən, mən özgəyə çəliyəm,
Min gülləyə tuş olan bir ceyranam, əliyəm.
Özgə nə əmr eləsə mən boyun əyməliyəm,
Neçin mənə özgəsi "Allah" olmuş, ay Allah?!

Bu sualın cavabı o idi ki, taleyimizə qərar verildiyi o tarixi dövrlərdə özümüzə aid güclü bir dövlətimiz yox idi. O dövlətin maraqlarını müdafiə edəsi, xalqın mənafeyini qoruyası, mövcudluğumuzu, milli varlığımızı, el birliyimizin qüvvəsini qəbul etdirməkdən ötrü qətiyyət göstərəsi, gələcəyimizə görə məsuliyyəti üzərinə götürəsi Liderdən məhrum idik.

Ona görə həmişə diktə olunan tərəf idik...

Həmişə bizim üçün müəyyənləşdirilmiş taleyə boyun əyməli idik...

❖ ❖ ❖

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin o gecəki çıxışında isə ilk dəfə idi ki, tamam başqa bir gerçəklik görürdüm.

Son bir neçə əsrdə ilk dəfə idi ki, Azərbaycan diktə olunan yox, özü diktə edən tərəf kimi çıxış edirdi!

Müqavilə tərəfləri məhz Azərbaycan dövlətinin irəli sürdüyü şərtlərlə razılaşmaq məcburiyyətində qalırdılar!

"Tarixin ən güclü Azərbaycanı" ifadəsindən yazılarımda çox istifadə etmişəm. Bu ifadə müxtəlif inkişaf mənzərələri ilə bağlı publisistik müşahidələrimə əsaslanırdı.

Cənab İlham Əliyevin gecənin o dəqiqələrində televizorun ekranından gözlərimə köçən şəkli tarixin ən güclü Azərbaycanının portreti idi!

Ölkə rəhbərimizin üçrəngli bayrağımızın və dövlət gerbimizin qovuşuğundakı rəsmini yaddaşıma məhz belə həkk etdim.

O bayraq, o gerb və o Lider qovuşanda tarixin ən güclü Azərbaycanı ucalırdı...

Və işğalçı Ermənistan keçmişin, bu günün və gələcəyin hüdudlarından baxanda Azərbaycanın bu əzəmətinin qarşısında o qədər miskin, cılız görünürdü ki, təcavüzkar ölkənin baş naziri tarixin heç zaman yaddaşlardan silinməyəcək bu utanc anını öz sifəti ilə vizuallaşdırmamaqdan ötrü sənədi göz qabağında imzalamaqdan çəkinmişdi.

El dilimizdə desək, adam arasına çıxacaq üzü qalmamışdı. Ona görə də Nikol Paşinyanın həmin sənədi harada - öz vətəndaşlarının qorxusundan qaçıb gizləndiyi bunkerdəmi, kameraların nəzərindən uzaq başqa bir dəlmə-deşikdəmi



imzaladığını özündən və ətrafındakı az sayda kəslərdən başqa yəqin bir kimsə bilmədi. Amma bu davranışı ilə də o, erməni siyasilərinin tarixdə süxurlaşmış mənfur xislətini sərgilədi. Onların mərdanə davranışlardan nə qədər uzaq olduqlarını, bütün önəmli işləri ortalardan itərək, köstəbək kimi qaranlıq künc-bucaqlarda çevirdiklərini bir daha göstərdi.

Bu da Paşinyanın o hərəkətləri timsalında erməni millətçilərinin öz xalqlarına cızdıqları acınacaqlı taleyin, gələcəksizliyin, bu regionun sabahında görünməkdən özünü məhrum etmənin rəsmi idi.

❖ ❖ ❖

"Əminəm, hər bir Azərbaycan vətəndaşı hesab edir ki, onun həyatında bu günlər, bu dəqiqələr ən xoşbəxt günlər və dəqiqələrdir. Mən də xoşbəxtəm ki, bu xoş xəbərləri, bu müjdəni Azərbaycan xalqına verirəm. Xoşbəxtəm ki, bu tarixi sənədə imza atmışam. Xoşbəxtəm ki, biz öz Vətənimizə, doğma Qarabağımıza qayıdırıq, Qarabağımızın tacı olan Şuşaya qayıdırıq və bu torpaqlarda əbədi yaşayacağıq! Bundan sonra heç kim bizi o torpaqlardan tərpədə bilməz!

Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Füzuli bizimdir, Cəbrayıl bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Laçın bizimdir, Kəlbəcər bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!.."

Bu sözləri dinləmək üçün tam 30 il dözmüşdük...

Bu 30 ilin mənəvi məşəqqətləri, sarsıntıları, bədbinliyi, ağırlığı bir anın içində məhv oldu getdi...

Daxilən yüngülləşdik, gözlərimizdən axan sevinc yaşları içimizdəki kədəri, qəmi yudu apardı...

Və bizləri bu müzəffər zəfərə aparan Komandanla yanaşı, bu çətin, şərəfli yolda şəhid olan, qazi olan can parçalarımızın da ruhu qarşısında əbədi ehtiramımızı, borcumuzu elə həmin dəqiqələrdə anladıq...

"Güllələnmiş heykəllərin fəryadı" əsərində vaxtilə belə yazmışdım: "Göydən daş yağacaq! Bu daşlar yağının başına töküləcək!.."

Bəli, 44 günlük müharibə dövründə bütün bəşəriyyət bunun canlı şahidi oldu...

Şah İsmayıl Xətai və İlham Əliyev...

Üz-üzə durub elə bil əsrlərin üstündən iki zirvədə bir-biri ilə kəlmələşirdilər...

Azərbaycan Prezidenti sanki kürəyində, bütün vücudunda bu heykəlin simvolizə etdiyi möhtəşəm dövlətçilik tarixinin gücünü hiss edərək, eyni zamanda məsuliyyət yükünü duyaraq hansısa hədəfə doğru qətiyyətlə baxırdı...

2020-ci ilin 10 noyabr gecəsi Azərbaycan xalqına verilən o möhtəşəm qələbə müjdəsindən, imzalanmış o sənəddən sonra cənab İlham Əliyevin tarixdəki məqamı hər zaman Şah Xətai ilə birgədir...

Kürəyini o tarixə söykəyib, qılınc və qələmlə yazılmış bütöv Azərbaycan salnaməsinin gücü, enerjisi, vüqarı İlham Əliyevin canındadır, minillik hədəfləri gələcəyə tuşlanmış sərrast baxışlarındadır...



❖ ❖ ❖

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun qazandığı bu qələbə yeni bir reallıq yaratdı.

Tariximizdə tamam başqa bir səhifə açdı...

Tarixin axarında böyük bir dönüş nöqtəsinə çevrildi...

Biz böyük xalqıq, bunun sübuta ehtiyacı yoxdur, əcdadlarımızın bu torpaqlarda yaratdıqları zəngin mədəniyyətin hər kəlməsi, hər nişanəsi böyüklüyümüzü sübuta yetirir. Əsrlərboyu başımıza açılan müsibətlərə rəğmən dilimizi, inancımızı, milli kimliyimizi, dövlət qurmaq əzmimizi qoruyub saxlaya bilməyimiz də böyüklüyümüzdən, içimizdəki ruhun gücündən gəlir. Bununla belə nə qədər acı olsa da, etiraf edək ki, tarixən uğursuzluqlarımız uğurlarımızdan daha çox olub. Zərrə-zərrə qazandığımız nailiyyətləri bir anın içində əlimizdən alıblar, vəziyyəti dəyişə bilməmişik, özgələr başımıza hakim kəsilib, torpaqlarımız zaman-zaman qəsb olunub, haqqımızı geri almağa gücümüz çatmayıb.

Cənab İlham Əliyev isə uzun zamanlardan bəri ilk dəfə bunun tamam əksini bacardı!

Xalqımız onun təpəri hesabına haqqımız olanı ala bildi. Azərbaycan Prezidenti tək 30 illik problemi həll etmədi, iki əsrin münaqişəsinə son qoydu!

İki keşməkeşli yüzillik boyu bağrımızın başında qövr edən, əcdadlarımızdan üzübəri bu yurdun insanına rahatlıq verməyən yaranı kəsib atdı!

Amma bu da Ali Baş Komandanımızın, Ordumuzun qazandığı parlaq Zəfərin tarixi mahiyyətini tam əhatə etmir...

Azərbaycan düz beş əsrdən sonra ilk dəfədir öz torpaqlarını geri qaytara bildi!

Bu nə deməkdir, bir anlıq təsəvvürünüzə gətirə bilirsinizmi?!

O deməkdir ki, düz beş yüz ildir itirə-itirə gəlirdik... Bir xalqın öz dövlətini qura bilməsindən, eləcə də mövcud dövləti qoruyub, saxlayıb inkişaf etdirməsindən ötrü ilk mühüm şərt olan torpaqlarımız dörd bir tərəfdən qoparılırdı, yurdlarımız zaman-zaman əldən verilirdi.

Xalq şairi Nəriman Həsənzadə demiş, hər qonşuda bir parçası əsir qalan Azərbaycan...

Beş əsrdən sonra məhz İlham Əliyev tarixin bu gərdişini dəyişdi, Azərbaycan torpaqlarının geri qaytarılması ilə vaxtın axarında dönüş yaratdı.

Bu 5 yüzildə itirdiklərimiz təkcə dörd bir yandakı torpaqlarımız deyildi, aramsız məğlubiyyətlər, istilalar ruhumuzda da bir natamamlıq kompleksi yaratmışdı. Həmişə daxilimizdə gələcəklə bağlı xəfif nigaranlıq vardı, uzun vədəli planlar qurmağa çəkinərdik, elə bilərdik yenə də zamanın səmum yelləri qurduğumuz bütün xəyalları vurub uçuracaq, taleyimizi nagahanlığa sovurub aparacaq.

İlham Əliyev ilk dəfə Azərbaycan xalqında özgüvən yaratdı!

Qazandığı Qələbə bu xalqın yeddidən yetmiş yeddiyə hər bir nümayəndəsini əmin etdi ki, artıq özümüz öz taleyimizə sahibik, başqalarının başımız üzərində ağalıq etdikləri dövranlar keçmişdə qalıb!

Əgər milli birliyimizi hər zaman qorusaq, zamanın çağırışlarına həssaslıq göstərib addımlarımızı ona uyğun müəyyənləşdirsək, doğrulara sarılsaq, uğurlar, qələbələr hər zaman bizim, məğlubiyyətlər, məyusluqlar isə bizi istəməyənlərin olar!

Vətən müharibəsindəki qələbənin anlatdığı ən böyük həqiqətlərdən biri də elə budur...

❖ ❖ ❖

Ötən il martın əvvəlləri idi. Azərbaycan Prezidenti tariximizdən gəlib-keçmiş ən böyük hökmdarlardan Şah İsmayıl Xətainin Bakıdakı heykəlinin ziyarətinə getmişdi. Dövlət rəhbərimiz cari fəaliyyətində müxtəlif mədəniyyət abidələrinə tez-tez baş çəkir, vəziyyətlə tanış olur, tapşırıqlarını verir.

Amma tarixi romanlar müəllifi kimi o ziyarət düşüncələrimdə tamam başqa anlam kəsb etmişdi. Xatırlayıram ki, həmin ziyarətdən çəkilmiş şəkillərə xeyli tamaşa etmişdim, fotolardan birində təkcə Şah babamız və İlham Əliyev idi...

Üz-üzə durub elə bil əsrlərin üstündən iki zirvədə bir-biri ilə kəlmələşirdilər...

Daha bir fotoda isə Azərbaycan Prezidenti sanki kürəyində, bütün vücudunda bu heykəlin simvolizə etdiyi möhtəşəm dövlətçilik tarixinin gücünü hiss edərək, eyni zamanda məsuliyyət yükünü duyaraq hansısa hədəfə doğru qətiyyətlə baxırdı...

Düşünürəm ki, 2020-ci ilin 10 noyabr gecəsi Azərbaycan xalqına verilən o möhtəşəm qələbə müjdəsindən, imzalanmış o sənəddən sonra cənab İlham Əliyevin tarixdəki məqamı hər zaman Şah Xətai ilə birgədir...

Kürəyini o tarixə söykəyib, qılınc və qələmlə yazılmış bütöv Azərbaycan salnaməsinin gücü, enerjisi, vüqarı İlham Əliyevin canındadır, minillik hədəfləri gələcəyə tuşlanmış sərrast baxışlarındadır...

❖ ❖ ❖

Ədəbiyyat taleyim elə gətirib ki, təxminən son otuz ildəki bədii əsərlərimi əsasən tarixi mövzulara həsr etmişəm. Qarabağ mövzusunun da romanlarımdan, dram əsərlərimdən tutmuş publisistik yazılarıma qədər ümumən yaradıcılığımda həmişə xüsusi yeri olub.

Ömür nə qədər vəfa etsə, bundan sonra da belə olacaq...

Ulu Öndər Heydər Əliyev tarixi mövzuda əsərlər yazan yazıçılara üzünü tutub deyirdi: "Tarixi simaların obrazları yaradılan və tariximizin çox mühüm dövrləri tərənnüm olunan ədəbi əsərlər ən yüksək səviyyədə yazılmalıdır. Bunlar çox mühüm, açıq deyək ki, mürəkkəb mövzulardır. Bu mövzuların öhdəsindən yalnız yüksək istedadlı, dərin bilikli sənətkarlar gələ bilərlər".

Bu əsərləri qələmə almaqdan ötrü tariximizi dayanmadan oxumağa, öyrənməyə, keçmişin mübhəm sirlərini açmağa çalışıram. Son günlər çox qəribə bir hiss ruhuma hakim kəsilir: öz xələflərimə, tarixi mövzularda əsərlər qələmə alacaq yazıçılara yaxşı mənada qibtə edirəm.

Çünki qismətimə əfsus ki, Azərbaycan tarixinin məğlubiyyətlər, uğursuzluqlar dövrünü qələmə almaq düşüb... Yazdığım əsərlərdə xalqımızın maraqlarına zidd tarixi müqavilələrin sözü gedir...

Onları ürək ağrısı, qəlb yanğısı ilə qələmə almışam, hər dəfə onları oxuyan oxucularımın da ürəyinin başına od düşüb. Bunun fərqindəyəm...

Gələcək yazıçılara isə ona görə qibtə edirəm ki, onların nəhayət ki, Azərbaycan dövlətinin tarixi uğur salnamələrindən yazmaq üçün böyük mövzuları var...

Onlar Azərbaycan xalqının maraqlarını ehtiva edən müqavilələri mövzuya çevirəcəklər, bu müqavilələrdən yazacaqlar...

Azərbaycanın tarixini dəyişən müqavilələr haqqında təəssüratlarını qələmə alacaqlar...

Ona görə gənc xələflərimə yaxşı mənada qibtəmi gizlətmir, onları əvvəlcədən təbrik edib bağrıma basıram...

❖ ❖ ❖

Azərbaycan Respublikasının Prezidenti o razılaşma sənədinə noyabrın 9-dan 10-na keçən gecə imza atdı. Bu tarixi, bu imzanı heç vaxt unutmayaq...

Çünki tariximizdəki imzaların ən möhtəşəmidir o...

"Yox millətimin imzası bu imzalar içində" deyə haray çəkən Hadilərimizin yaralı ruhunun məlhəmidir...

O sənədə xalqımız, dövlətimiz adından İlham Əliyev imza atdı...

Amma bu imzada müstəqil dövlətimizin memarı Heydər Əliyevin də imzası var...

Bu imzanı İlham Əliyevlə bərabər, Şah İsmayıl Xətai, onun birlik, bütövlük missiyasını davam etdirmək istəyən Nadir şah da, vaxtilə zorla məğlubiyyətə məhkum edilmiş Pənahəli xanla İbrahim xan, cümhuriyyət qurucularımız Mustafa bəy Topçubaşov, Məhəmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli də atırdı...

Eyni zamanda bu şərəfli imzada Azərbaycan tarixinin şanlı səhifələrini öz qanları ilə yazmış 2783 balamızın, eləcə də bu Vətənin azadlığı və ərazi bütövlüyü uğrunda canından keçmiş bütün şəhidlərimizin imzaları var...

Bu, Azərbaycan xalqının böyüklüyünün imzalı təsdiqidir...

*Bir salnaməçi kimi tam əminəm ki, onilliklər, yüzilliklər keçəcək, tarix XX və XXİ əsrlərə məhz 10 noyabr məqamından, bu imzadan baxacaq...*

*Elə Azərbaycan tarixi də iki mərhələyə bölünəcək: 10 noyabrdan önçəki və sonrakı dövrlər...*

*Tarix yaratmaq bax budur...*

*"Tarixin ən güclü Azərbaycanı"nı yaratmaq budur...*

*Və İlham Əliyevə bu tarixə, bu Azərbaycana görə yalnız əcdadlarımızın ruhu və indiki nəsil yox, həm də hələ doğulmamış azərbaycanlılar - onilliklər, əsrlər sonrası 10 noyabrla qürur yaşayacaq xələflərimiz də minnətdardırlar, borcludurlar...*

**Hüseynbala MİRƏLƏMOV**






# Milli iftixarımız olan Qələbə

*Azərbaycan Vətən müharibəsindəki böyük qələbənin təntənəsini yaşayır. 44 gün davam edən bu savaşda İlham Əliyevin Ali Baş Komandanlığı ilə ordumuz öz vəzifəsini layiqincə yerinə yetirdi. Bu qələbə ilə xalqımız tarixinə yeni qəhrəmanlıq səhifəsi yazdı.*

*Milli Məclisin deputatları bu barədə fikirlərini qəzetimizə bölüşdülər.*

## Milli birliyimizin təntənəsi

**Qüdrət HƏSƏNQULİYEV,**
*Milli Məclisin deputatı, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri:*

- Hazırda hər bir vətəndaşımız müzəffər Azərbaycan Ordusunun işğalçı Ermənistanın silahlı qüvvələri üzərində əldə etdiyi böyük qələbənin qürurunu və sevincini yaşayır. Qələbənin əldə olunmasında Ordumuzun Ali Baş Komandanının rəhbərliyi ilə həyata keçirilən əməliyyatlarla yanaşı, vətəndaşlarımızın həmrəyliyi, xalq-ordu birliyi müstəsna rol oynamışdır. Bu baxımdan əldə etdiyimiz böyük zəfəri həmrəyliyimizin, milli iradəmizin qələbəsi kimi də dəyərləndirə bilərik.

Hərbi əməliyyatların başladığı ilk günlərdən bir sıra sahələrdə ilklərə imza atılmış, daha öncə nəzərə çarpmayan istiqamətlərdə milli birliyə nail olunmuş, qətiyyətli siyasi mövqe nümayiş etdirilmişdir. Bu sırada ölkəmizdə fəaliyyət göstərən siyasi partiyaların mütləq əksəriyyətinin Ali Baş Komandanın ətrafında birləşərək, torpaqlarımızın işğaldan azad edilməsi naminə vahid siyasi iradə nümayiş etdirmələrini xüsusi ilə qeyd etmək istəyirəm. Müharibə aparan bir ölkə üçün bunun nə qədər önəmli olduğunu, düşünürəm ki, hər kəs yaxşı başa düşür. Müstəqil Azərbaycanın tarixində ilk dəfə idi ki, ölkənin inkişaf perspektivlərinə fərqli baxış bucağından yanaşan, hətta bir-biri ilə uzlaşmayan ideologiyalara malik olan 50 siyasi partiyanın rəhbəri bir araya gələrək taleyüklü məsələmiz, milli mücadiləmizin əsasını təşkil edən Qarabağın azadlığı uğrunda birmənalı mövqe nümayiş etdirirdi. Şübhəsiz ki, bu, ölkəmizin siyasi həyatı və bütövlükdə gələcəyi üçün mühüm əhəmiyyət kəsb edən, dünyaya "biz birlikdəyik" mesajını verən, İsmayıl Bəy Qaspıralının türk dünyasına yönəlik "Sözdə, fikirdə, işdə birlik" şüarının bütün komponentlərini əməldə nümayiş etdirən bir hadisə kimi daim xatırlanacaq və istinad mənbəyi olacaq.

Təbii ki, siyasi partiyalar arasında vahid mövqenin əldə olunması sadəcə hərbi əməliyyatların başladığı zaman kəsiyində baş verməmişdi. Bu prosesdə olkəmizdə həyata keçirilən islahatların, hakimiyyətlə, Prezident Administrasiyasının müvafiq strukturları ilə siyasi partiyalar arasında dialoqun başladılmasının və getdikcə daha intensiv xarakter almasının mühüm rol oynadığını xüsusi qeyd etmək lazımdır. Prezident İlham Əliyevin Prezident Administrasiyasının səlahiyyətli şəxsləri vasitəsilə siyasi partiya sədrlərini bayramlar münasibəti ilə təbrik etməsi, onlara nümayiş etdirdikləri vətəndaş mövqeyinə görə təşəkkürlərini çatdırması ölkənin siyasi partiyalarının ümummilli məsələlər ətrafında bir araya gəlməsində stimulverici, birləşdirici faktor olduğunu da söyləyə bilərik. Siyasi sferada həyata keçirilən islahatların tərkib hissəsi kimi, ilk dəfə olaraq Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsi yaradıldı və ilk dəfə olaraq, müxalif və azlıqda olan partiyaların nümayəndələri parlamentin rəhbərliyində təmsil olunmaq imkanı qazandılar.

Azərbaycan yeni, ölkəmizdəki siyasi institutların inkişafına təkan verəcək, sivil və etimadlı münasibətlərin, siyasi mədəniyyətin formalaşmasında mühüm rol oynayacaq bir mərhələyə qədəm qoyub. Bu mərhələnin ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi ilə paralel aparılmasının da xüsusi anlam daşıdığı qənaətindəyəm. Torpaqlarımızın azad edilməsi ilə ölkə həyatının bütün sahələrində olduğu kimi, siyasi sferada da yeni dövr başlayır. Bu dövr quruculuq, yaradıcılıq, milli maraqlar, xalqımızın inkişafı və dövlətimizin mənafeyi naminə sivil və intellektual rəqabət dövrüdür. Qarşımızda dayanan maneələri məhz düşüncəmizin işığıyla, xalqımızı islahatlar yolu ilə irəliyə doğru aparmaqla, siyasi münasibətlər və idarəçilik sistemini müasir dünyanın çağırışlarına çevik və dinamik reaksiya verəcək bir inkişaf mərhələsinə daşımaqla dəf edə bilərik. Xalqımızın və dövlətimizin belə bir potensialda olduğuna əminəm. Hesab edirəm ki, Böyük Qələbənin bizə bəxş etdiyi ruh yüksəkliyi və mücadilə əzmi ilə Azərbaycanı Böyük İnkişafa doğru apara biləcəyik.

Ali Baş Komandan, Prezident İlham Əliyevi, Azərbaycan Ordusunun əsgər və zabitlərini və xalqımızı işğalçı Ermənistan üzərində böyük qələbə münasibətilə təbrik edir, şəhidlərimizə Allahdan rəhmət diləyir, yaralı həmvətənlərimizə tezliklə şəfa tapmalarını arzulayıram.

## Qəhrəmanlıq dastanına çevrilən müqəddəs savaş

**Novruzəli ASLANOV,**
*Milli Məclisin deputatı, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti:*

- Başa çatmaqda olan 2020-ci ili bütün ölkələr məlum pandemiya səbəbindən demək olar ki, eyni cür yola salır. Azərbaycan xalqı üçün isə 2020-cü il fərqli, müasir dövlətçilik tariximizin və müstəqilliyimizin ən şərəfli səhifələrindən birinin yazıldığı dövr kimi əlamətdar oldu. Çünki bu il biz düşmən tapdağı altında olan torpaqlarımızı işğaldan azad etdik. Bu il biz ərazi bütövlüyümüzü bərpa etdik...

Xalqımızın tarixi mücadilə, qəhrəmanlıq salnamələri ilə zəngindir. Hər birinin mayası azadlıq və mübarizələrlrə yoğrulan dövlətlərimiz şanlı keçmişimizin qürur doğuran ünvanlarıdır. Biz qəhrəman bir millətin nümayəndələriyik. Ona görə zaman bəzən bizi ağır sınaqlara çəksə də, yenidən toparlanaraq, güc taparaq, bir yumruq olaraq tariximizin şərəfli səhifələrini yazmağı bacarırıq. Torpaqlarımızın azadlığı uğrunda sentyabr ayının 27-dən başlanan və 44 gün davam edən müqəddəs savaş da bunu təsdiq etdi. Prezident İlham Əliyevin Müzəffər Ali Baş Komandanlığı ilə Azərbaycan Ordusu 30 ilə yaxın idi davam edən erməni işğalına cəmi 44 gün ərzində son qoyaraq xalqımızın möhtəşəm qəhrəmanlıq salnaməsini yaratdı.

Bu savaşı, bu Qələbəni xalqımız 30 ilə yaxın idi ki, gözləyirdi. Bununla belə hər bir zəfərin, hər bir uğurun mütləq zamana ehtiyacı var. Çünki məhz zamanında atılan addım öz hədəfinə, məqsədinə çata bilər. Həmin zamanı yetişdirənlər isə öz xalqının taleyi ilə yaşayan dahi şəxsiyyətlər, liderlərdir. Xalqımızın böyük oğlu, Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi və möhtərəm Prezident İlham Əliyevin son 17 ildə layiqincə davam etdirdiyi siyasi kurs da bizim üçün torpaqlarımızın işğaldan azad edilməsinin zamanını yetişdirdi. Bu zamanın əsas tələbləri isə Azərbaycanın güclənməsi, ordumuzun döyüş qabiliyyətini artırması idi. Beləliklə, müdrik rəhbər, düzgün zaman, güclü dövlət və qüdrətli ordu formulu, o cümlədən milli həmrəyliyimiz torpaqlarımızın azad edilməsini şərtləndirən əsas amillər oldu.

Azərbaycanın bu müharibəni qələbə ilə başa vuracağı hərbi əməliyyatların ilk günlərindən aydın idi. Lakin biz həm də beynəlxalq təzyiqlərin qarşısını almalı idik. Bu mənada İlham Əliyev Ali Baş Komandan olaraq yalnız döyüş meydanında mübarizə aparmadı. İlham Əliyev dövlət başçısı kimi həm də siyasət meydanında, diplomatiya cəbhəsində erməni təəssübkeşlərinə və dünya erməniliyinə qarşı qətiyyətlə mübarizə apardı. Azərbaycana qarşı döyüşlərin ilk günlərindən başlayan və bu gün də davam edən haqsız reaksiyaların şahidi olduq. Hətta Fransa prezidenti bütün siyasi normaları aşaraq Ermənistanın müdafiəçisinə çevrildi, ölkəsinin neytrallığını unudaraq tamamilə ermənipərəst mövqe tutdu. Fransanın təşəbbüsü ilə BMT-dən Azərbaycana qarşı qətnamə qəbul edilməsinə də cəhd göstərildi. Lakin İlham Əliyev bu təzyiqlərə sərkərdə qətiyyəti ilə cavab verdi, bütün ermənipərəst siyasətçiləri yerlərində oturtdu, o cümlədən BMT-də məlum qətnamənin qəbulu baş tutmadı. ATƏT-in Minsk qrupunun üzvləri, əsasən də Fransanın hazırladığı bu layihədə Ermənistanın milli maraqları ifadə olunmuş, BMT-nin 1993-cü ildə qəbul etdiyi 4 qətnaməyə istinad edilməmişdi. Lakin Azərbaycan Prezidentinin sədrlik etdiyi Qoşulmama Hərəkatına üzv olan dövlətlər həmin layihənin qəbul edilməsinə imkan vermədilər. Yenilməz ordumuz isə uğurlu hərbi əməliyyatlarını inamla davam etdirdi, hər gün yeni yaşayış məntəqələri işğaldan azad olundu.

Bir-birinin ardınca Cəbrayılın, Füzulinin, Zəngilanın, Qubadlının, o cümlədən Xocavənd, Xocalı və Tərtər rayonlarının kəndlərinin, milli kimliyimizin təsdiqi olan Xudafərin körpüsünün azad edilməsi xalqımız tərəfindən bayram coşqusu ilə qeyd olundu. Ordumuzun uğurlu əməliyyatları nəticəsində İranla dövlət sərhədinə nəzarət tam təmin olundu. Noyabrın 8-də qədim yurd yerimiz, milli mədəniyyətimizin, musiqimizin beşiyi olan Şuşanın işğaldan azad edilməsi isə Vətən müharibəsinin ən mühüm hadisəsi, ordumuzun möhtəşəm qələbəsi oldu. Məhz Şuşanın azad edilməsi ilə Ermənistanın hərbi-siyasi rəhbərliyi məğlubiyyəti etiraf edərək, Prezident İlham Əliyevin şərtlərini qəbul etməyə, kapitulyasiya aktını imzalamağa və digər rayonların azad edilməsinə dair qrafiklə öhdəlik götürməyə məcbur oldu.

Əgər torpaqlarımızın azad edilməsi Azərbaycan Ordusunun gücünü, müasir döyüş əməliyyatları aparmaq imkanlarını göstərdisə, Şuşanın azad olunması, ilk növbədə, Azərbaycan əsgərinin vətənpərvərliyinin, cəsarətinin, qorxmazlığının təsdiqi oldu. Aslanlarımız bu döyüşdə mübarizlik tarixi, qəhrəmanlıq salnaməsi yaratdılar. Xalqımızın hərb tarixinə və bütövlükdə hərb elminə elə bir səhifə yazdılar ki, illər ötsə də, həmişə xatırlanacaq, istinad ünvanı olacaqdır.

Noyabr ayının 10-da Azərbaycan və Rusiya prezidentlərinin və Ermənistanın baş nazirinin imzaladığı üçtərəfli bəyanat işğalçı ölkənin məğlubiyyətini hüquqi baxımdan rəsmiləşdirən sənəd oldu. N.Paşinyan bu sənədi öz xalqının gözündən uzaq, hansısa gizlin bir yerdə imzaladı. Daha doğrusu, imzalamağa məcbur edildi. Onu bu sənədi imzalamağa isə Müzəffər Ali Baş Komandan İlham Əliyev məcbur etdi. Beləliklə, döyüş meydanındakı qələbədən sonra Azərbaycan düşməni siyasi-diplomatik müstəvidə də məğlub etdi.

Noyabr ayının 20-dən başlayaraq Ermənistan kapitulyasiya öhdəliklərini yerinə yetirdi. Artıq Ağdam, Kəlbəcər və Laçın rayonları tam şəkildə Azərbaycan Ordusunun nəzarətinə keçib. İndi bu torpaqlarda onun əsl sahiblərinin, azərbaycanlıların səsləri eşidilir. İlin qış fəsli olsa da, işğaldan azad olunmuş bütün şəhər və rayonlarımız öz baharlarını yaşayırlar. Çünki azaddırlar, murdar düşmən tapdağı bir də buralara dəyməyəcək.

Torpaq uğrunda ölən varsa vətəndir. 44 günlük Vətən müharibəsində Azərbaycan əsgəri vətən uğrunda canından, qanından keçdi, 2783 nəfər hərbi qulluqçumuz şəhidlik zirvəsinə ucaldı. Azad olunmuş ərazilərimiz indi bizim üçün həm də ona görə müqəddəsdir ki, şəhidlərimizin qanı hopub o torpaqlara. Hər şəhərimiz, hər kəndimiz onların canı bahasına azad olunub. Şəhidlərimizin hər birinin ruhu qarşısında baş əyirik və Prezident İlham Əliyevin sərəncamı ilə sentyabrın 27-nin Anım Günü kimi təsis olunması hər birimizin qəlbindən xəbər verən addım oldu.

Prezident İlham Əliyevin sərəncamı ilə təsis olunan Zəfər Günü isə xalqımızın ən gözəl bayramlarından biri kimi təqvimizdə yer tutacaq. Çünki bu Zəfəri biz uzun illər səbirsizliklə gözləmişik. Bu Zəfəri biz torpaqlarımıza qan tökməklə qazanmışıq. Bütün dünyaya milli qürurumuzu, yenilməzliyimizi nümayiş etdirmişik.

Vətən müharibəsində Azərbaycan Ordusu böyük rəşadət göstərdi. Eyni zamanda 44 günlük savaş bir daha təsdiqlədi ki, Azərbaycan xalqı onu bütün arzularına çatdıran cənab İlham Əliyevin ətrafında daim sıx səfərbərdir. Bu Qələbədən sonra Azərbaycan üçün tamamilə yeni tarixi mərhələ başlayıb. Çünki bizim rəhbərimiz də, dövlətimiz də, bütün xalqımız da qalibdir. Öz milli haqqı uğrunda qalib gələnlər isə hər zaman bütün dünyada xüsusi ehtiramla qarşılanırlar.






## Bu Qələbə millətimizi böyütdü, daha güclü etdi

**Müşfiq MƏMMƏDLİ,**
*Milli Məclisin deputatı:*

- Torpaqlarımızın azadlığı uğrunda 44 günlük müharibə haqlı olaraq tariximizə Vətən müharibəsi kimi yazıldı. Çünki bu, torpaqlarımızın azadlığı, ərazi bütövlüyümüzün bərpası uğrunda xalqımızın müqəddəs savaşı idi. Bu savaş həm də tariximizə qızıl hərflərlə həkk olundu. Bu qələbə ilə biz tariximizi, müstəqilliyimizi və dövlətçiliyimizi şərəfləndirdik, qürurlandırdıq.

Azərbaycan xalqının zəngin qəhrəmanlıq irsi var, döyüşmək, mübarizə aparmaq bizim qanımızda, canımızdadır. Və hər birimiz inanırdıq ki, günlərin birində Ermənistan tərəfindən işğal olunmuş torpaqlarımızı ata-babalarımızın tarixboyu yaratdıqları, miras qoyduqları qəhrəmanlıq irsindən ilhamlanaraq müharibə yolu ilə azad edəcəyik.

Cənab Prezident İlham Əliyevin Ali Baş Komandanı olduğu müzəffər Azərbaycan Ordusu xalqımızın bu inamını həqiqətə çevirdi, torpaqlarımızın azadlığı uğrunda tarixi missiyasını layiqincə, qətiyyətlə, hünərlə yerinə yetirdi. Artıq bir aydır ki, bütün xalqımız böyük qələbənin sevincini yaşayır. Böyükdən kiçiyə qədər hər kəs, vəzifəsindən, əqidəsindən, sosial statusundan asılı olmayaraq hər bir azərbaycanlı indi özünü daha qürurlu, daha mətin hiss edir. Çünki artıq biz qalib bir xalqın nümayəndələri olmağımızla, torpaqlarımızı hünər meydanında azad etməyimizlə fəxr edirik, öyünürük, iftixar hissi duyuruq.

Bu sevinci bizə bəxş edənlər qətiyyəti və siyasi iradəsi ilə hər birimizi qürurlandıran İlham Əliyev və qəhrəmanlıqları, cəsarətləri, qorxmazlıqları ilə dillərdə dastana dönən Azərbaycan Ordusunun əsgərləri, zabitləri, gizirləridir. Elə bir cəbhə olmadı ki, əsgərlərimiz hücum əməliyyatında ləngisinlər. Elə bir istiqamət olmadı ki, düşmənin müdafiə mövqelərinin yarılması mümkün olmasın. Ermənistanın illərboyu möhkəmləndirdiyi, keçilməz hesab etdiyi səngərlər, müdafiə istehkamları Azərbaycan oğullarının müzəffər yürüşü qarşısında duruş gətirə bilmədi və ordumuzun hər bir əməliyyatı həm unikallığı, həm də əsgər və zabitlərimizin qəhrəmanlığı ilə aləmə səs saldı.

Prezident İlham Əliyevin dediyi kimi, bu qələbənin birinci qəhrəmanı Azərbaycan əsgəridir: *"...Mən bunu artıq bir neçə dəfə demişəm, bu qələbəni qazanan bizim texniki vasitələr yox, əsgər və zabitlərimizdir. Onlar torpağımızı düşməndən qarış-qarış azad edəedə bu Qələbəni, bu Zəfəri xalqımıza nəsib etdilər. Ona görə bu qələbənin birinci qəhrəmanı Azərbaycan əsgəridir, Azərbaycan zabitidir və hər kəs bunu bilməlidir".*

Əlbəttə, ordu o zaman güclü olur ki, onun komandanı əsl sərkərdə olsun. Bu baxımdan İlham Əliyevin 44 gündə və ondan sonrakı müddətdə sərkərdə qətiyyəti ilə ortaya qoyduğu davranış bir daha dövlət başçısının yüksək siyasi və diplomatik keyfiyyətlərini nümayiş etdirdi. İlham Əliyev təkcə Ali Baş Komandan kimi cəbhədə mübarizə aparmadı, o həm də müdrik siyasətçi kimi diplomatiya cəbhəsindəki hücumların qarşısını mətinliklə aldı, ölkəmizə qarşı beynəlxalq təzyiqləri inamla dəf etdi. İlham Əliyev öz siyasi iradəsi ilə Azərbaycana qarşı diplomatik cəbhənin formalaşmasına imkan vermədi. Fransa prezidentinin və siyasi dairələrinin bütün təzyiqləri iflasa uğradı. Müharibənin ilk günlərindən neytrallığını itirən bu ölkənin siyasi dairələrinin təşəbbüsü ilə oktyabr ayında BMT Təhlükəsizlik Şurasının sədri adından qəbul edilməsi planlaşdırılan qətnamənin geri götürülməsi də Prezident İlham Əliyevin diplomatik uğuru kimi tarixə düşdü. Fransanın rüsvayçılıqla geri götürdüyü həmin qətnamənin layihəsində Ermənistanın maraqları müdafiə olunurdu. Cənab İlham Əliyev müharibə günlərində 30-a yaxın xarici KİV-ə verdiyi müsahibələrdə də dövlətimizin milli maraqlarını qətiyyətlə müdafiə etdi. Bu müsahibələrdə İlham Əliyev həm də əsl həqiqətləri dünyaya çatdırdı, dünya erməniliyinin Azərbaycana qarşı hücumlarını darmadağın etdi.

Məhz Prezident İlham Əliyevin uğurlu diplomatiyasının və müzəffər Ordumuzun döyüş meydanındakı qalibiyyəti sayəsində işğalçı Ermənistan kapitulyasiya etməyə məcbur oldu. Noyabr ayının 10-da Azərbaycan və Rusiya prezidentlərinin, Ermənistanın baş nazirinin imzaladıqları üçtərəfli bəyanat respublikamızın 44 günlük müharibədəki möhtəşəm qələbəsinin hüquqi təsdiqi oldu. Cəbrayılı, Füzulini, Zəngilanı, Qubadlını və Qarabağın mirvarisi Şuşanı, bütövlükdə 300-ə yaxın yaşayış məntəqəsini döyüş yolu ilə azad edən Azərbaycan Ordusu Ermənistanın kapitulyasiyasına əsasən Ağdam, Kəlbəcər və Laçın rayonlarına güllə atmadan daxil oldu. Bu baxımdan üçtərəfli bəyanatın bütün bəndləri hərb meydanında qalib gələn Azərbaycanın öz şərtlərini məcburi şəkildə Ermənistana qəbul etdirməsinin sübutudur.

Torpaqlarımızın azadlığı uğrunda Vətən müharibəsi başlayanda şəhidlərimizin olacağı məlum idi. Çünki müharibədən itkisiz, qurbansız çıxmaq mümkün deyil. Xalqımız üçün olduqca qürurvericidir ki, vətən övladları hünərləri, rəşadətləri ilə ölümə meydan oxudular, şəhidlik zirvəsinə ucalmağı özlərinə şərəf saydılar. Şəhidlərimizin döyüş yolu ilə tanış olduqca hər birimiz onların qəhrəmanlıqları və bütövlükdə xalqımızın böyüklüyü ilə fəxarət hissi keçirdik, həm də təsirləndik. Onların ruhu indi rahatdır, çünki uğrunda mübarizə apardıqları torpaqlarımız azad edilib, o torpaqlarda üçrəngli bayrağımız dalğalanır. Sentyabr ayının 27-nin Prezident İlham Əliyev tərəfindən Anım Günü elan olunması şəhidlərimizin xatirəsinə olan ehtiramın ən gözəl nümunəsidir.

Vətən müharibəsindəki qələbə tariximizin ən şərəfli səhifələrindəndir. Bu qələbəni xalqımız hər il noyabr ayının 8-də Zəfər Günü kimi qeyd edəcək. Bu Qələbə, torpaqlarımızın işğaldan azad olunması millətimizi daha da böyütdü, daha güclü etdi, Azərbaycanı qalib dövlətlər sırasına çıxartdı. Qələbəmiz mübarək! Qarabağ Azərbaycandır!



## Tariximizi şərəfləndirən zəfər

**Vüqar İSKƏNDƏROV,**
*Milli Məclisin deputatı:*

- İşğalçı Ermənistanın sentyabrın 27-də ölkəmizə qarşı həyata keçirdiyi növbəti hərbi təxribata cavab olaraq Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad edilməsi məqsədilə Vətən müharibəsinə başladı və 44 günlük haqq savaşımız düşmən ölkənin sarsıdıcı məğlubiyyəti ilə başa çatdı.

Bu savaş ilk gündən Azərbaycan Ordusunun qüdrətini, əsgər və zabitlərimizin yüksək döyüş ruhunu nümayiş etdirdi. Silahlı Qüvvələrimizin şəxsi heyəti Vətən müharibəsində qəhrəmancasına döyüşərək düşmənə sarsıdıcı zərbələr endirdi. İllər ərzində Ermənistanın işğal altındakı torpaqlarımızda qurduğu və möhkəmləndirdiyi, minaladığı mürəkkəb konstruksiyalı mühəndis-istehkam qurğuları və digər müdafiə sistemləri ordumuz tərəfindən ilk həmlədə yarıldı. Beləliklə, Azərbaycan Ordusu gücü və qüdrəti barədə söylənən fikirləri ilk gündən döyüş meydanında sübuta yetirdi.

Azərbaycan Ordusu Cəbrayıl, Füzuli, Zəngilan və Qubadlı rayonlarını, Hadrutu, Suqovuşanı döyüş meydanında savaşaraq azad etdi. Cəmi bir neçə həftə ərzində İranla 132 km-lik dövlət sərhədinə nəzarət təmin olundu. Oktyabrın 18-də zəngin keçmişimizin ünvanı olan Xudafərin körpüsünün azad edilməsi bayrama bayram qatdı.

Hələ oktyabrın 16-da Türkiyənin "A Haber" televiziya kanalına müsahibəsində Prezident İlham Əliyev demişdi: "Əlbəttə ki, Şuşasız bizim işimiz yarımçıq olar". Hər birimiz döyüşlərin davam etdirildiyi günlərdə rəşadətli ordumuzdan dualarımızı əsirgəmir, bütün torpaqlarımızın, o cümlədən Qarabağın tacı Şuşanın azad olunacağı günü səbirsizliklə gözləyirdik. Şuşanın azad olunması bütün Qarabağa nəzarətin təmin olunması demək idi. Ən əsası, biz öz qədim yurd yerimizi, milli mədəniyyətimizin ünvanı olan bir şəhərimizi düşmən tapdağında saxlaya bilməzdik. Müzəffər Azərbaycan Ordusu xalqımızın arzusunu çin etdi, Şuşanı işğaldan azad edərək milli qürur məbədimizi özümüzə qaytardı.

Şuşanın azad olunmasından sonra Ermənistanın İlham Əliyevin şərtlərini qəbul etməkdən başqa yolu qalmadı və noyabrın 10-da imazalanan üçtərəfli bəyanatla işğalçı ölkə məğlubiyyətini etiraf etdi. Noyabrın 8-i Şuşanın azad olunduğu gün isə tariximizə Zəfər Günü kimi düşdü.

Bu müharibədə əsgər və zabitlərimiz qəhrəmancasına döyüşdülər. Onlar bu yolda canlarını belə fəda edərək vətən yolunda şəhidlik zirvəsinə yüksəldilər. 2783 nəfər şəhidimizin qanı-canı bahasına biz torpaqlarımızı azad etdik. Tanrıdan şəhidlərimizə rəhmət diləyirik. Onların xatirəsi həmişə uca tutulacaq, ehtiramla anılacaq. Birinci vitse-prezident Mehriban Əliyevanın rəsmi "Instagram" səhifəsində etdiyi paylaşımda da vurğulandığı kimi, "Hər birimiz bu Zəfərin nəyin bahasına qazanıldığını yadda saxlamağa borcluyuq! Biz Vətən müharibəsi şəhidlərini heç vaxt unutmayacağıq. Onlar bizim qəlbimizdə daim yaşayacaq".

Şəhidlərimizin qanı yerdə qalmadı, onların uğrunda savaşdıqları müqəddəs torpaqlarımız indi düşmən tapdağından azaddır. Prezident İlham Əliyev Ali Baş Komandan kimi qələbəni layiqincə təmin etdi. Tariximizi şərəfləndirən bu qələbə hər zaman xalqımızın qürur mənbəyi və iftixar ünvanı olacaq.





***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## Vətən müharibəsi döyüşçüləri

**Dünənədək sıradan, adi, bəzən "uşaq" saydığımız on minlərlə gənc öz cəsarətləri, mərdlikləri ilə bir anın içində sanki aslana çevrildilər, "Qarabağ Azərbaycandır" milli hərəkatının qələbə Nidasını qoydular!**
**Bu zəfər qəhrəmanları sırasında "Azərbaycan" qəzetinin müxbiri Rəşad Baxşəliyev də var...**

# "Azərbaycan"ın Rəşadı

## Və Azərbaycanın igid zabiti



### Jurnalist təhsilli zabit

Rəşad "köhnə hərbçi"dir. Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsini bitirdikdən sonra 2001-2003-cü illərdə leytenant rütbəsində ilyarım təmas xəttində motoatıcı taqımın komandiri kimi xidmət göstərib. Bu dövrdə hərbi hissə rəhbərliyi tərəfindən dəfələrlə mükafatlandırılıb, fəxri fərmanları, təltifləri yetərincə olub.

Dəfələrlə onunla birgə keçmiş əsgərləri ilə süfrə başında oturmuşuq, çörək kəsmişik. Hamısı Rəşaddan ağızdolusu danışıblar. Rəşad xidmətində ənənəvi komandir obrazına özünəməxsus əlavələr edib. Əsgərlərinə böyük qardaş, arxa-dayaq olub. Hansısa əsgərin nöqsanı olubsa, cəza yox, tərbiyə yolu ilə düzəltməyə çalışıb. Ancaq ən əsası - bunu əsgərləri xüsusən vurğulayırdılar - onlarla daim vətərpərvərlik söhbətləri aparıb və fərdi məsuliyyətlərini artırıb.

### Qələm silaha çevriləndə...

"Azərbaycan" qəzetində çalışdığı illərdə də qələmi ilə döyüşüb və bu ifadə heç də mübaliğəli deyil!

Rəşad Baxşəliyev uzun illərdir ölkənin hərbi mövzuda yazan fəal jurnalistlərindən sayılır. Getmədiyi səngər, yüksəklik, post demək olar ki, yoxdur. Qarış-qarış gəzib cəbhə xəttini, bəzən ay ərzində 3 dəfə hərbi hissələrə yollanıb Rəşad...

Lələtəpədən reportaj edən ilk jurnalistdir bizim Rəşad...

Dəfələrlə Müdafiə Nazirliyinin mükafatlarını, təltiflərini, təşəkkürnamələrini alıb. Bir sözlə, daim ordunun içində olub, həmişə ordu ilə bir nəfəs alıb, hər zaman ordu üçün çalışıb, can yandırıb...

Ən çox qış fəslində cəbhə xəttinə getməyə önəm verirdi. Deyirdi ki, bu fəslin çətinlikləri, qarın soyuğu-sazağı səngərdə daha aydın duyulur. Ön xətdə xidmət çəkən əsgərlər daha böyük qəhrəmanlardır. Onlardan yazmaq, xidmətlərini işıqlandırmaq, qəhrəmanlıqlarından bəhs etmək Rəşad üçün daha maraqlı gəlirdi...

Rəşadın yazdığı məqalələr digər KİV-də dərc olunmurdu, ön cəbhədən çəkdiyi fotolar onlarla saytda, qəzetdə istifadə olunur, təkrar-təkrar çap edilirdi...

Amma bir arzusu da var idi: "Mən qələbədən jurnalist kimi yazmaq yox, qələbəni zabit kimi yaşamaq istəyirəm"...

Elə bu istəklə də iyul ayında könüllü olaraq hərbi xidmətə yazıldı. Bunu da təsadüfən bildik. Söhbətimizdə bəzilərinin Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciətlərini sosial şəbəkələrdə yaymalarını "ucuz reklam" sayaraq təəssüflənəndə dostumuz özünün də qeydiyyatdan keçdiyini söylədi.

Və ən böyük arzularından birinə - Vətən savaşında iştiraka sayılı günlər qaldığına da hamımızı inandırmışdı...



Deyir, Şuşanı, bu torpaqları qardaş kimi birləşib azad etdik, indi də qardaş kimi qoruyuruq...

### Övladını xəstəxanaya qoyub, könüllü cəbhəyə getdi...

Sentyabrın 27-dən, müharibə başlanan gündən həyat yoldaşı Raminə xanıma döyüş çantasını yığmasını tapşırmışdı. Az qala hər gün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Abşeron şöbəsinə zəng edərək nə vaxt cəbhəyə göndəriləcəyini soruşurdu...

Azərbaycan ona görə zəfər çaldı ki, onun Rəşad kimi minlərlə əsgər-zabiti hərbi xidmət bölmələri ilə məhz niyə cəbhəyə aparılmadıqları ilə bağlı mübahisə, əslində nə mübahisə, elə lap dava edirdilər!..

Bəlkə burada bir rəmzilik də var ki, səfərbərlik xidmətindən ona zəng gələndə Ağdam rayonunda, cəbhə xəttində ezamiyyətdə idi. Rəşaddan niyə ətrafında bu qədər səs-küyün olduğunu maraqla soruşan xidmətin əməkdaşı "Quzanlıdayam, düşmən buranı aramsız atəşə tutub, sizin eşitdiyiniz də bomba, partlayış səsləridir" cavabına ilk anda inanmayıb...

Beləliklə, atəş, bomba sədaları altında Rəşad KÖNÜLLÜ olaraq yazıldığı Orduya çağırıldı...

Elə bu vədədə qızı Yağmurun səhhətində ciddi problem aşkarlanmışdı. Həkimlər hökmən xəstəxanada yatmalı olduğunu dedilər. Cəbhəyə getməyinə bir həftəlik möhlət almaq mümkün idi. Ancaq Rəşad "onlarla dava edirəm ki, məni niyə cəbhəyə göndərmirsiniz, indi də gedib möhlət istəyim, olmaz!" deyə birmənalı mövqeyini bildirdi.

Ürəyi qan ağlayırdı Rəşadın, amma seçimini etmişdi...

Adətən belə hallar fakt yox, rəvayət olur, onlar barədə bədii əsərlərdə təxəyyül məhsulu kimi oxuyuruq...

Amma bu gerçəkliyi biz Rəşadın simasında - "Azərbaycan" qəzetinin igid övladı Rəşad Baxşəliyevin timsalında gördük, kövrəldik, qürurlandıq!

Və o, ailəsini dostlarına əmanət edib, ən müqəddəs əmanəti - Vətəni qorumağa yollandı...

### Şuşaya bayraq sancan Rəşad

Rəşad 17 ildən sonra yenidən zabit kimi Azərbaycan Ordusunun sıralarına qatılaraq Qubadlıda hərbi xidmətə başladı.

Sonra isə Şuşa...

İmkan tapanda, telefon ötürücüsü normal işləyəndə zəng edir. Elə məqamlar var ki, hərbi mahiyyətinə görə onlardan heç danışmır, elələri var ki, danışır, amma yaza bilmərik...

Qubadlı istiqamətində alınmaz saydığımız 1500-2000 metr hündürlükdəki dağlara, hərbi yüksəkliklərə sərt iqlim şəraitində gecələr çətinliklə də olsa qalxmaları...

Şiddətli döyüşlər...

Azad edilən kəndlərdə apardıqları təmizləmələr...

Şuşa uğrunda əməliyyat...

Keçilməz sədləri aşaraq düşməni məğlub etmək...

Yeni postlarda xidmətə başlamaq...

Rəşad Baxşəliyevin döyüş yolunun bütün mərhələləri çətindir, məsuliyyətlidir, ancaq şərəflidir. Əminik ki, Vətən müharibəsində qazandığımız qələbəni birbaşa iştirakçı kimi özü də qələmə alacaq, kitaba da çevirəcək.

Onu hərbi xidmətə yola salanda I Qarabağ savaşının veteranı Bəxtiyar Sadıqov Rəşada bir bloknot verərək "Bütün cəbhə xatirələrini bura yaz, hər şeyi yaz və sağ-salamat, qələbə ilə qayıt, yazdıqlarını kitab kimi nəşr edəcəyik" ağsaqqal tövsiyəsini verdi.

Bəxtiyar müəllimin kövrələrək söylədiyi "Mən məğlubiyyətlər tarixini yazmalı oldum... Sən isə hökmən zəfərlər salnaməsini yazmalısan kitablarında" diləyi də artıq gerçəyə çevrildi...

### Cəsur döyüşçü, intizamlı komandir, böyük qardaş

İndi Şuşa ətrafındakı postlarda hərbi xidmətdədir. Motoatıcı taqımdakı əsgərlərə komandirdən çox böyük qardaş, hamidir.



Yağmur da artıq sağalıb, müalicəsi uğurla davam edir. Nihatın "onlayn" olsa da "5"lərinin sayı artıb...

Son söhbətimizdə əsgərləri üçün səhra tipli mətbəx yaratdığını, hətta təndirə bənzər bir bişirmə tipi düzəltdiyini, hərbi növbədən qayıtdıqan sonra səhərədək ocaqda xaş asdığını gülərək, amma məmnunluqla söylədi: "Onlar çox gəncdir, bu soyuqda xüsusi qidalanmağa ehtiyacları var. Axşama da onlara noxudsuz da olsa, bozbaş bişirəcəyəm..."

Odun yığmağa da əsgərləri ilə bərabər gedir, kartofu da, soğanı da onlardan əvvəl özü soyur. Deyir, əsas odur ki, Şuşadayıq, burada yaşadıqlarımız bizə çətinlik kimi gəlmir. Bu torpaqları qardaş kimi birləşib azad etdik, indi də qardaş kimi qoruyuruq...

Belədir bizim Rəşad...

Belədir "Azərbaycan" qəzetinin Rəşadı...

Həm hərbi xidməti ayıq-sayıq yerinə yetirən cəsur döyüşçü, həm taqımının qüsursuz xidmətini təmin edən intizamlı komandir, həm də qardaş bildiyi əsgərlərinə şəfqətlə yanaşan hami...

Döyüş yoluna birgə başladığı, Vətən uğrunda canını fəda edən şəhid dostlarından danışanda kövrəlir də, hönkürür də...

Özü də deyir, elə biz də bilirik ki, bu ağrı ona bir ömür boyu hüzn olacaq...

### RƏŞADətli...

Rəşadın bir xoş sorağını da aldıq. Bu günlərdə ordu rəhbərliyinin qərarı ilə rütbəsi bir pillə yüksəlib - artıq Baş Leytenantdır!

Yeni təsis edilən zəfər mükafatlarına da adı təqdim olunub...

Ona "nə vaxt qaydıcağın barədə xəbər yoxdur ki" sualını verəndə də qeyzlənir, sonra zarafatlaşır: "Xaricdə deyiləm ki, qayıdım. Vətəndəyəm, Şuşadayam... Adam buranı qoyub heç Masazıra qayıdar?"

Masazırda isə onu gözləyən üç nəfər var. Göz yaşı qurumayan, Rəşad savaşa gedəndən gecəsi-gündüzü olmayan Raminə xanım övladları Nihatla Yağmurun "atamız nə vaxt qayıdır" suallarını da bir təhər ötüşdürür... Rəşadla hər danışıqlarında evdən narahat olmamağını deyir. Zatən Azərbaycan qadını necə olmalıdır ki...

Yağmur da artıq sağalıb, müalicəsi uğurla davam edir. Nihatın "onlayn" olsa da "5"lərinin sayı artıb...

Valideynləri Rəşad adını ona hansısa xüsusi əlamətə görə verməyiblər. Ancaq Rəşad öz adını bütün həyatı boyu doğrultdu, əlində qələm olanda da rəşadətlə çalışdı, silaha sarılıb ön cəbhəyə yollananda da rəşadətlə döyüşdü.

Əslində Rəşad adi və çox sadə həyatını da elə rəşadətli ata, rəşadətli ər, rəşadətli övlad, rəşadətli dost kimi sürür...

Müharibə bitsə də, Rəşad və döyüş yoldaşları üçün hələ davam edir.

Qarşılarında düşmən var!

Arxalarında isə onlara güvənən məmləkəti və xalqı...

*Böyük Zəfərin əldə olunmasında əzizimiz Rəşadın da töhfəsi var...*

*On minlərlə cəsur döyüşçü kimi Rəşad da taleyinə şərəfli səhifə, Azərbaycanın qələbə salnaməsinə isə öz adını həkk etdirdi!*

*Qürurumuzu ifadə etmək mümkünsüzdür...*

**İxtiyar HÜSEYNLİ,**
***"Azərbaycan"***

# Qazinin qələbə sevinci

**Vətən müharibəsində iştirak etmiş, torpaqlarımızın azadlığı uğrunda vuruşmuş gənc qazi, Saatlı rayon sakini Əli İsmayılov o günlərin ağrısını hələ də canında daşıyır. Döyüşlərdə ayağından yaralanıb, iki dəfə cərrahiyyə əməliyyatı keçirib. Həkimlərin dediyinə görə, ayağındakı qəlpə yaralarının sağalması aylarla sürəcək.**

Bu günlərin qüruru isə könlündə ömürlük taxt quracaq. Çünki Azərbaycanın minlərlə gənc övladı kimi o da ilk günlərdən Vətənin çağırışına qoşulub. Cəbhəyə, döyüşlərə can atıb. İyirmi dörd yaşlı Əli İsmayılov sentyabrın 29-da Saatlıdan Vətən müharibəsinə gedib.

### Əgər Vətən çağırırsa...

Həmin gün anası Aygün İsmayılovanın yaddaşına belə yazılıb: "Əlinin adətidir, yuxudan həmişə erkən oyanır. O gün isə lap tez qalxdı yatağından. Səhər yeməyini yedi. Süfrədən qalxdı. Pencəyini geyinib, "mən gedirəm" dedi. Soruşdum: "Hara gedirsən?" Cavab verdi ki, döyüşə gedir. O anlardan ən çox yadımda qalan Əlinin səsindəki hədsiz sakitlik, təmkin idi... Oğlum hər gün işə, dostlarının yanına, ya da marketdən nə isə almağa gedirmiş kimi qapıdan çıxdı. Atası handan-hana özünə gəlib Əlinin ardınca çıxdı. Oğlum getdi... Fikrim, xəyalım, canım da onunla getdi. Başımı ev işləri ilə qarışdırmaq istədim. Ancaq əlim heç bir işə yatmadı. Bir neçə saat sonra atası gəldi. Əlini yola salmışdılar. Sonra bir polis oğlumun telefonunu gətirdi ki, bunu Əli verdi. Gecə düşdü. Mənim isə gözlərim hələ qapıda qalmışdı. Elə bilirdim o, içəri girəcək. Vaxt keçdikcə yavaş-yavaş özüm-özümə etiraf etdim: ailəmizin sonbeşiyi odun-alovun içərisinə getdi. Hamımızın anası Vətəndir. Əli də anamızı qorumağa, düşməndən müdafiə etməyə gedənlərə qoşuldu". O gün cəbhəyə yollanarkən baxışlarından vüqar, simasından məğrurluq yağan oğlunun qətiyyəti ananı yenə həm həyəcanlandırır, həm də qürurlandırır. Sanki "biz azərbaycanlı anaların belə qorxmaz belə qeyrətli oğulları var" deyir.





Əli İsmayılov 1996-cı il iyulun 2-də Saatlı rayonunda dünyaya gəlib. Saatlı şəhər Valeri Əsgərov adına 4 saylı orta məktəbin 9-cu sinfini bitirdikdən sonra 2011-ci ilin 15 sentyabrında sənədlərini Saatlı peşə liseyinə verib. Peşə liseyində geniş profilli traktorçu-maşinist, təmirçi-çilingər ixtisası üzrə təhsil alıb. 2014-cü il iyunun 17-də liseyi bitirib.

Əli uşaqlıq illərində çox nadinc idi. Amma elə o zaman da hərəkətləri uşaq dəcəlliyindən kənara çıxmazdı. Böyüyün-kiçiyin yerini bilərdi. Canıyanan, mehribandı. Odur ki, balacalıqdan qohum-qonşunun sevimlisiydi. Təhsil aldığı orta məktəbdə də, liseydə də həm müəllimlərinin, həm də məktəb yoldaşlarının hörmətini qazandı.

O, 2014-cü il iyulun 3-də həqiqi hərbi xidmətə çağrıldı. "N" hərbi hissəsində qumbaraatan vəzifəsində xidmət etdi. Hərbi hissədən ona verilən xidməti xasiyyətnamədə bu sözlər yazılıb: "Xidmət etdiyi müddət ərzində İsmayılov Əli Asif oğlu özünü vətən torpaqlarının bütövlüyü uğrunda mübarizəyə hazır olan vətənpərvər gənc kimi göstərmişdir". Əli hərbi xidmətdə də əsgər yoldaşlarının və komandirlərinin rəğbətini qazandı.

Hərbi xidmətdən geri döndükdən bir müddət sonra oxuduğu orta məktəbdə texniki işçi kimi əmək fəaliyyətinə başladı.

Qarabağ torpaqlarının işğal yaşı onun yaşından böyük idi. Əli İsmayılov dünyaya gələndə düşmənlər Azərbaycan torpaqlarını neçə illər idi ki, zəbt etmişdilər. Ancaq ərazilərimiz əbədi olaraq erməni qəsbkarlarında qala bilməzdi. Qeyrətli Azərbaycan xalqı heç zaman bu itkilərlə barışmazdı. Əli İsmayılov kimi oğullar bu ruhda böyüdülər. Ümid, inam hər zaman onların qəlbinə hakim oldu.

Sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin təxribatı ilə müharibə başladı. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev qismən səfərbərlik əmrini verdi.

Vətən müharibəsi başlayanda Əli İsmayılov çox yaxşı bilirdi ki, bu məsuliyyətli günlərdə onun kimi oğulların yeri cəbhədir. Vətən darda idi, övladlarını haraylayırdı. Və Əli İsmayılov kimi qeyrətli oğullar Ana Vətənin imdadına yetişdilər. Əli cəbhəyə arxayın getdi. Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin xalqa müraciətində böyük inam, qələbə əzmi ifadə olunmuşdu. Dövlət və xalq zəfərə gedən yolda bir yumruq kimi birləşdi.

### Yaraları Vətənin dərdlərinə məlhəm olan igidlər

Əli cəbhəyə getdikdən sonra sevənlərini nigaran qoymadı. Hər gün olmasa da, əsgər yoldaşının telefonundan zəng edirdi. Amma bir dəfə də olsun hansı bölgədə, cəbhənin hansı istiqamətində döyüşdüyünü söyləmədi. "Bizi hələ döyüşə aparmırlar, təlimdəyik" deyirdi. Verilən suallara cavabında mövzunu dəyişir, hal-əhval tutur, özünün də yaxşı olduğunu, orada onlara çox yaxşı baxdıqlarını, odur ki, heç nəyə ehtiyac duymadıqlarını söyləyirdi. Bir də tez-tez deyirdi: "Biz yuxarı qalxacağıq. Orda şəbəkə yoxdur, telefonlar tutmur. Zəng vura bilməyəcəyəm. Məndən nigaran qalmayın". Əli İsmayılov cəbhəyə getdiyi gündən əmin idi və bunu hər dəfə telefon zəngində deyirdi: "Az qalıb. Tezliklə qələbə ilə evə qayıdacağıq".

Ə.İsmayılovun döyüş yolu Füzulidən başladı. Sonra Zəngilan, Cəbrayıl və Qubadlı uğrunda gedən ağır döyüşlərdə iştirak etdi. Gözlərinin qarşısında neçə-neçə döyüşçü yoldaşı həlak oldu, ağır yaralandı. Birlikdə çiyin-çiyinə vuruşduğu neçə-neçə yaralını odun-alovun içərisindən çıxartdı. Hər şəhid yoldaşı Əliyə bu Vətəni bir az da çox sevməyi öyrətdi.

Bir də doğma Vətənini tanıdı. Cəbhə yollarında o, Azərbaycanın böyüklüyünü, misilsiz gözəlliklərini gördü.

Atıcı Əli İsmayılov oktyabrın 19-da Qubadlı uğrunda gedən ağır döyüşdə yaralandı. Füzulidə cərrahiyyə əməliyyatı olundu. Qəlpələr ayağından çıxarıldı. Bir neçə gün sonra Neftçala mərkəzi xəstəxanasına aparıldı. Orada ayağını müayinə edən həkimlər qəlpələrdən birinin ayağında qaldığını müəyyənləşdirdilər və ikinci dəfə əməliyyat etməli oldular. Əli İsmayılovu müalicə edən həkim Xəlil "qəlpə yarası ağır yaradır, girəndə parçalayır, ona görə də ağrısına tablaşmaq çox çətin olur" dedi.

### Güllələr atılan yerlərdə güllər açacaq

Ağrı, sızıltı onun hələ də əhdini kəssə də, ruhuna bu duyğular məlhəmdir. Azərbaycan uzun illər idi ki, yaralıydı. Əli İsmayılov kimi hərbçilərin döyüşlərdə aldıqları yaralar Vətənin yaralarına məlhəm oldu. Ərazilərimizi dinc yolla qaytarmaq istəməyən erməni qəsbkarlarına bütün döyüşlərdə sarsıdıcı zərbələr vurdular. Ali Baş Komandanımızın rəhbərliyi altında ordumuzun əks-hücum əməliyyatı qələbə ilə başa çatdı. İllərdir işğal altında qalan tarixi torpaqlarımız azad olundu. Artıq o torpaqlarımızda üçrəngli Azərbaycan bayrağı dalğalanır.

Vətən müharibəsində qəhrəmancasına vuruşan mərd oğullarla bütün Azərbaycan xalqı fəxr edir. Gənc qazilərin evlərinə geri dönməsinə çox sevinirlər. Əligilə gələnlərin də ardı-arası kəsilmir.

Müqəddəs torpaq uğrunda vuruşmağın şərəfi və qüruru, düşmənin məğlubiyyətini görməyin sevinci, Vətənin azadlığı bu gün Əli kimi gənc qazilərimizin yaralarına dərmandır. Daha gözəl günlər isə qabaqdadır. Düşmənin xarabalığa çevirdiyi o yaradılışından gözəl yerlərin yenə bəxti üzünə güləcək. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə yeni quruculuq işlərinə başlanılır. Otuz ilə yaxın yurdundan ayrı düşmüş məcburi köçkünlər öz evlərinə qayıdacaqlar. O yerlərin ki, Azərbaycanın bütün bölgələrindən - hər kəndindən, hər rayonundan, hər şəhərindən etibarlı və mərd oğullar harayına çatdılar. Müzəffər Azərbaycan Ordusunun sıralarında vuruşdular. Cəsur, qəhrəman zabit və əsgərlərimiz əks-həmlə əməliyyatları zamanı erməni qəsbkarlarına havadan və yerdən sarsıdıcı zərbələr endirərək illərdən bəri işğalda qalmış o torpaqlarımızı azad etdilər. Orda tökülən qanları ilə tarix yazdılar. Onların qanları qarışan o yerlərdə bundan sonra güllələr atılmayacaq, çiçəklər, güllər açacaq.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Fəxr edirəm ki, qazi atasıyam

**Xalqımız müqəddəs Vətən müharibəsində qazandığımız qələbəni böyük sevinclə bayram edir. Düşünəndə ki, möhtəşəm tarixi qələbədə, Ermənistan ordusunun darmadağın edilməsində oğlum Nurlanın da payı var, ürəyim dağa dönür.**

Üç oğul atasıyam. Nurlan gözümün ilk ovudur. O, uşaqlıqdan Qarabağ sevgisiylə yaşayıb. Qarabağı işğalda saxlayan, igid oğullarımızı şəhid edən erməni faşistlərindən qisas almaq ən böyük arzusuydu. Hərbi xidmətini başa vurub qayıdandan sonra heç rahatlıq tapmırdı. Elə bil ürəyinə dammışdı ki, müharibə başlayacaq, həm də bu müharibə həlledici olacaq.

Elə də oldu, müharibə başladı. İki-üç gün sonra Nurlan könüllülərə qoşulub döyüşə getdi. İmkan yarandıqca evlə əlaqə saxlayırdı. Deyirdi ki, sürətlə irəliləyirik, düşmən qarşımızdan dovşan kimi qaçır.

Nurlan Murov yüksəkliyi uğrunda döyüşlərdə yaralandı. Hospitalda müalicə alıb sağalandan sonra dostlarından aralanmayıb yenidən döyüşlərə qoşuldu. Bu dəfə Talış-Suqovuşan istiqamətindəki döyüşlərdə ağır yaralandı. Hazırda hərbi hospitalda ciddi həkim nəzarətindədir.

Bir ata olaraq iftixar hissi keçirirəm ki, oğlum vətən qarşısındakı borcunu şərəflə yerinə yetirib. Onu da minnətdarlıqla qeyd etmək istəyirəm ki, dövlətimiz şəhid ailələrinə, sağlamlığını itirib qazi adı qazananlara xüsusi qayğı və diqqət göstərir.

Mən qəhrəman oğlumla fəxr edirəm. Qoy şəhidlərimizin məkanı cənnət olsun. Allah Vətən müharibəsində yaralanan bütün övladlarımıza şəfa versin. Əsas isə odur ki, Qarabağımız işğaldan azad olunub, igid oğullarımız bizi 30 ilin xəcalətindən xilas ediblər. Yaşasın şanlı Azərbaycan Ordusu! Qarabağ Azərbaycandır!

***Xaliq MƏHƏRRƏMOV,***
***Tərtər rayon***
***Evoğlu kəndinin sakini***

# ŞƏHİDLƏR ölməz, VƏTƏN bölünməz!

## Ölümsüzlüyə qovuşan şirin səsli qəhrəman



**Keçdi xəyalından o gözəl yurdu,**
**Gedişi dillərdə bir dastan oldu.**

Çoxunuz bəlkə də bildiniz ki, kimdən bəhs edəcəyəm. Bəli, Xudaya yar olan Xudayar Yusifazadədən. Mən Xudayarı müharibədən öncə tanımırdım. Bu müharibə mənə qəhrəmanla bir məktəbdə (Bərdə şəhəri T.İsmayılov adına 1 nömrəli məktəb) oxuduğumun qürurunu, heyif ki, onu həmin vaxt tanımadığımın kədərini yaşatdı.

Eşitdiklərimdən onu deyə bilərəm ki, Xudayar qəlbindəki vətən, xalq sevgisi ilə, qəhrəmanlıq, qalibiyyət, intiqam amalı ilə Vətən müharibəsinə yollanmışdı. Xudayarın gözündəki intiqam hər şeyi üstələyirmiş. Onun sadəcə bir şüarı var idi: "Qarabağı alacam". O, babasına söz vermişdi ki, "Ağdamı alacam, daha qaçqın olmayacaqsan, biz mütləq Qarabağı azad edəcəyik". Xudayar, qardaşının dili ilə desək, Xuda sözünü tutdu. Qarabağı aldılar. Artıq babası qaçqın deyil. Ancaq bir vəd yaddan çıxmışdı, axı o, cəbhə yoldaşlarına qoç qurban kəsməyə söz vermişdi. Özü də Ağdamda. Çox təəssüf ki, bu sözünü tutmağa tale macal vermədi, şəhadətə yüksəldi. Mərd, güclü, cəsur, qorxmaz Xudayar öz qəhrəmanlığı ilə ölümün özünü belə şərəfləndirdi.

Şəhidimiz bu qısa ömrünə çox şey sığdırdı, həyatın çox üzünü gördü, çox çətinliklər çəkdi. Sonda isə bütün məqamlardan üstün olan ən ali zirvəyə qovuşdu, şəhid olub göylərə çəkildi.

*Səsləndi son dəfə yanıqlı səsi,*
*Bizi bizdən aldı şirin qəmzəsi.*
*Min kərə dinləyən, baxan hər kəsi*
*Ağlatdı, inlətdi VƏTƏN naləsi,*
*Dumanlı dağların ŞƏHİD nəğməsi.*

Gözəl günlərin başladığı, Qarabağın azad olunduğu, Qələbə paradının keçirildiyi, çöhrələrdən sevinc, gözlərdən fərəh yağdığı, bütün ölkəmizin bayram ovqatı yaşadığı xoşbəxt bir məqamdayıq. Qarabağı Azərbaycana sən və səninlə çiyin-çiyinə vuruşan, döyüşən igidlər qovuşdurdu, Xudayar! Bütün Azərbaycan sizlərə borcludur.

Kaş belə olmazdı, kaş həyatın davam edəydi, gözəl günlərin şahidi olaydın. Amma şəhidlikdən şərəfli, qürurverici məqam yoxdur. Şəhidlər ölmür, şəhidlər qəlblərdə məskən salırlar. Sən də onlar kimi bütün Azərbaycan xalqının qəlbində yuva qurdun. Yaddaşlarda həm də şirin səsinlə qaldın. Sən qəlblərdə həmişə var olacaqsan. Bizimlə birlikdə güləcəksən, sevinəcəksən. Dillərə dastan olan şəhidimiz, səni canından artıq sevdiyin doğma Azərbaycan əbədi yaşadacaq.

Sən cəsurluq, igidlik, mərdlik nümayiş etdirən Azərbaycan əsgərinin qəhrəmanlıq rəmzisən, ölümsüzlüyə qovuşan qəhrəmanım. Şəhadətin mübarək, Xudayar!



***Leyla QULUZADƏ,***
***Bakı Dövlət Universitetinin II kurs tələbəsi***

## "Baş tacımız Tacəddin"



İkinci Qarabağ müharibəsində qəhrəmanlıq göstərib şəhidlik zirvəsinə yüksələn Tacəddin Şahəddin oğlu Əzizli 1994-cü ildə Salyan rayonunun Sarvan kəndində ziyalı ailəsində dünyaya göz açmışdır. Tam orta təhsilini başa vurduqdan sonra Ukraynanın Xarkov şəhərində Dövlər Ticarət və Qida Sənayesi İnstitutunun Menecment fakültəsinə daxil olmuş, oranı uğurla bitirmişdir.

Vətənə dönüb hərbi xidmətə yollanan T.Əzizli döyüş texnikası ilə işləməyi dərindən mənimsəmiş, raket artilleriyası üzrə ixtisaslı döyüşçü kimi formalaşmışdır.

Onun ən böyük arzusu Qarabağı düşmən tapdağından azad etmək idi. Hiss edir, başa düşürdü ki, müharibə qaçılmazdır və işğalda olan torpaqlarımızı hərb yolu ilə geri almağa hazır olmaq lazımdır. Qarabağ ətrafında gedən prosesləri diqqətlə izləyən Tacəddin bu ilin yayında - iyul ayında ermənilərin Tovuz rayonuna təcavüzü zamanı özlüyündə yəqin etmişdi ki, müharibə olacaq və bu savaşda bədnam qonşularımıza öz yerlərini tanıtmaq - Qarabağı azad etmək mümkün olacaq. Ailədə evlənmək məsələsi ortaya çıxanda o, böyük qardaşına demişdi: "Əvvəl Vətənin müdafiəsi, sonra evlənmək..."

Tovuz təxribatı Silahlı Qüvvələrimizin qələbəsi ilə yekunlaşsa da, şəhidlərsiz ötüşmədi. Bu hadisə bir çox gənclərimiz kimi, Tacəddinin də qəlbini düşmənə nifrətlə alovlandırdı və o, həmin günlər Prezident, Ali Baş Komandan İlham Əliyevin gənclərə müraciətinə səs verərək orduya könüllü getmək qərarını verdi.

Tacəddin Əzizlinin döyüş yolu müharibənin ilk günündən başlayır. Düşmənin qurduğu dəmir-beton sədləri yara-yara müharibənin son gününə qədər vuruşdu. Neçə-neçə döyüş dostları gözləri önündə yaralandı, bəziləri Vətən yolunda can verdi. Tacəddinin isə qismətində Şuşaya qədər irəliləmək, zəfərlər qazanmaq varmış. Onun tərkibində olduğu hərbi hissə ermənilərə qan uddurdu, düşmənləri pərən-pərən saldı. Tacəddin komandirlərin verdiyi döyüş tapşırıqlarını canla-başla yerinə yetirdi, şücaət göstərdi.

Döyüşün son günü namərd düşmən gülləsinə tuş gələn igid əsgər gözlərini əbədi olaraq yumanda qələbənin elan olunmasına, düşmənin kapitulyasiyasına bir neçə saat qalmışdı. O öz qisasını özü alanlardan idi. Şəhidlik zirvəsinə yüksəlmək isə qəhrəman əsgərin alın yazısı idi. Şəhidliyin mübarək, igid Vətən oğlu! Müəllimin Firdovsi Qasımovun sənin haqqında yazdığı şeir bu misralarla bitir:

Tarix yazdın qanınla,
Vətən eşqli canınla,
Üçrəngli bayrağınla,
Baş tacımız Tacəddin.



## Əbədi yaşarsınız

Siz, ey Vətən yolunda şirin canından keçib,
İgidliyi, mərdliyi özünə amal seçib,
Ömrün bahar çağında həyatdan erkən köçüb,
Ölümüylə bu yurdu, torpağı yaşadanlar!
Yaşayan hər ömürdə qanınız, canınız var!

Hay verdiniz Vətənin harayına, səsinə,
Yüksəldiniz müqəddəs şəhidlik zirvəsinə.
Məzarınız dönübdür ziyarət türbəsinə.
Sizinlə qürur duyur bu gün hər ev, hər ocaq,
Xatirəniz, ruhunuz həmişə anılacaq!

Bir ata övladından el oğluna döndünüz.
Kim deyir ki, öldünüz, kim deyir ki, söndünüz?!
Gələcək nəsillərə yetəcəkdir ününüz.
Siz bu gün də, sabah da - əsrlərlə sağsınız!
Bu yurdun sinəsində vüqarsınız, dağsınız!

Siz yazdınız millətin tarixini qan ilə,
Sinənizdə yurd saldı yurda atılan güllə.
Məzarınız tutulub min çələngə, min gülə.
Tərsiniz çiçək kimi, həmişə baharsınız!
Azərbaycan köksündə əbədi yaşarsınız!

***Seyran***



## Mübarizin mübariz davamçısı

Biləsuvarda hərbi-vətənpərvərlik hissi həmişə yüksək olmuşdur. Xüsusən Azərbacanın Milli Qəhrəmanı Mübariz İbrahimovun igidlik yolunu davam etdirmək arzusu biləsuvarlı gənclərin əksəriyyətini hərb sahəsinə yönəltmişdir. Bəzi gənclər hələ tam orta təhsili bitirməmiş Cəmşid Naxçıvanski adına Hərbi Liseyə, bəziləri isə tam orta təhsildən sonra Heydər Əliyev adına Ali Hərbi Məktəbə daxil olur və həyatlarını hərbi işə sərf edirlər.

1982-ci ildə Biləsuvarda doğulmuş Orxan Əkbərov Heydər Əliyev adına Ali Hərbi Məktəbi bitirərək leytenant rütbəsi ilə xidmətə başlamışdır. İntizamı, çalışqanlığı, səyi və vətənpərvərliyi ilə pillə-pillə ucalmışdı: hərbi hissə komandiri, kapitan, mayor, polkovnik-leytenant. Komandiri olduğu hərbi hissə yüksək döyüş hazırlığı ilə seçilirdi. Təlimlərdə uğur qazanır, fərqlənirdi. Dəfələrlə təşəkkür almışdı, mükafatları, təltifləri vardı. Özünü döyüşçülərdən, sıravi əsgərlərdən ayırmır, onlara bir qardaş sevgisi ilə yanaşır, hər birinin qayğısına qalırdı. 2016-cı ilin Aprel və 2020-ci ilin İyul savaşlarında xüsusi igidlik göstərmişdi. Sentyabrın 27-də başlanan əks-hücum əməliyyatında onun hərbi hissəsi qısa vaxtda düşmənin 6 vahid hərbi texnikasını ələ keçirmiş, 200-dən çox düşmən əsgərini məhv etmişdi.

Polkovnik-leytenant Orxan Əkbərov cəmi 38 il yaşadı. Oktyabr ayının 2-də Füzuli rayonunun kəndləri uğrunda gedən döyüşlərdə namərd gülləsinə tuş gəldi. Şəhid zabitin 8 yaşlı qızı Sevil və 7 yaşlı oğlu Çingiz bundan sonra ataları ilə fəxr edəcəklər. Çünki bütün xalqımız onunla fəxr edir. Kiçik qardaşı, mayor Ənvər Əkbərov da Vətən müharibəsində igidliklə xidmət edən hərbçilərimizdəndir və qardaşının yolunu şərəflə davam etdirir.




## İntiqamın intiqamını döyüş yoldaşları aldı

Masallı rayonu Vətən müharibəsinin ilk günlərindən, qismən səfərbərlik elan edilən kimi öz cəsur övladlarını cəbhəyə göndərdi. Onlardan şəhid olanlar da var, qazi olanlar da. Yaralılar Allahın köməyi, dövlətimizin qayğısı, həkimlərimizin səyi ilə sağalır, şəfa tapırlar. Şəhidlərimiz isə cismən aramızda olmasalar da, ruhən bizimlədirlər.

Vətənimizin azadlığı üçün hər birimiz bu yolda canını əsirgəməyən, ölümü gözünün önünə alan, düşmənin gözlərinə dik baxan bu igidlərə borcluyuq. Əsgər və zabit analarının önündə baş əyirik. Vətənə layiqli övladlar böyütmüş şəhid valideynlərinin əllərindən öpürük.

İntiqam Yavər oğlu Abbasov 1978-ci il sentyabr ayının 21-də Masallı rayonunun Köçəkli kəndində dünyaya göz açmış, burada böyümüş, orta təhsil almışdır. İntiqam məktəbdə xüsusən riyaziyyat fənnini yaxşı bilməsi ilə seçilmişdir. Müəllimləri, yaxınları, dostları İntiqamın riyaziyyat müəllimi olacağını düşünsələr də, o öz taleyini hərbi işə bağladı. 1996-cı ildə hərbi borcunu vermək üçün ordu sıralarına yollanan İ.Abbasov əsgərlikdən sonra birillik hərbi kursda oxudu, müddətdən artıq hərbi qulluqçu kimi xidmətini davam etdirdi. Füzuli və Cəbrayılın ilk 7 kəndinin azad edilməsində iştirak edən cəsur gizir strateji yüksəkliklərdən birinin geri alınması zamanı aldığı qəlpə yarasının qurbanı oldu.

"Şəhidlər ölməz, Vətən bölünməz!", "Qarabağ Azərbaycandır!" nidaları altında şəhidin böyük izdihamla keçirilən dəfn mərasimində tabutun büküldüyü bayraq oğlu Əli Abbasova təqdim edilmiş və o da müqəddəs bayrağı öpərək gözlərinin üstünə qoymuşdur.



## Şəhidlik ölüm deyil, əbədi ömrün başlanğıcıdır

Baş leytenant Əliqismət Yaqublu 18 aprel 1992-ci ildə Lerik rayonunun Kələxan kəndində anadan olmuşdur.

2007-ci ildə Malik Bağırov adına 3 saylı orta məktəbin 9-cu sinfini bitirdikdən sonra Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olmuş, 2010-2014-cü illərdə isə Heydər Əliyev adına Bakı Ali Hərbi Məktəbində təhsilini davam etdirmiş, daha sonra cəbhə xəttindəki mövqelərimizdə hərbi xidmətə başlamışdır. 2016-cı ilin Aprel döyüşlərində fəal iştirak etmiş, 2018-ci ildən Xüsusi Təyinatlı Qüvvələrin baş leytenantı kimi xidmətini davam etdirmişdir.

Əliqismət Vətən müharibəsi başlanan gündən savaşa atılmışdır. Onun döyüş yolu Murovdağdan, Füzuli, Cəbrayıl, Qubadlı rayonlarından keçmişdir. O, Şuşa şəhərinin azad olunmasında xüsusi fəallıq göstərmişdir. Noyabrın 5-də isə Daşaltıda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Şəhidin atası Mükafat müəllim Lerik Rayon Dövlət Rəsm Qalereyasının direktoru, rəssam, şair, publisistdir. O, qəhrəman oğlu haqqında qürurla danışır:

- Əliqismətin uşaqlıqdan hərb sənətinə marağı vardı. Elə bu istək onu arzusunun ünvanına yolladı. Ali hərbi təhsil aldı. Sentyabrın 27-dən döyüşlərdə iştirak etdi. Döyüş yoldaşı, mayor Ceyhun Təhməzov deyir ki, məni və neçə-neçə yaralını güllə yağışı altından çıxararaq ölümdən xilas etdi... Şəhid olmağa hazır idi. Məndən halallıq almış, şəhid olarsa, babasının yanında dəfn olunmağı vəsiyyət etmişdi.

Şəhid Ə.Yaqublunun 2 övladı - 5 yaşlı Əliəsgər, 3 yaşlı Məhəmməd ondan yadigar qalıb. Onlar, inşallah, igid atalarının yarımçıq qalmış arzularını davam etdirəcəklər.

## Salyanın igid oğlu

Salyan dəmiryol stansiyası ərazisində 1987-ci ildə dünyaya göz açıb, buradakı orta məktəbdə təhsil alıb. Oxuduğu məktəb Birinci Qarabağ müharibəsində şəhid olan Yavər Qafarovun adını daşıyır. Hər gün məktəbə gələndə şəhid Y.Qafarovun keçdiyi qısa, lakin mənalı ömür yolunu əks etdirən guşəyə baş çəkərək ona oxşamağı, Vətənə onun kimi layiqli oğul olmağı qarşısına məqsəd qoymuşdu. Düşünüb ki, cənnətməkan Qarabağ torpağı heç vaxt yağı tapdağı altında qala bilməz. Xalqımız nəyin bahasına olursa-olsun bir gün Qarabağı düşməndən geri alacaq.

Gələcəkdə bu prosesdə bilavasitə iştirak etmək, erməni qəsbkarları ilə aparılacaq müharibənin ön sıralarında olmaq qərarı bir an da olsun ürəyini, fikir-düşüncəsini tərk etmirdi. Elə bu niyyətlə də orta təhsilini başa vuran kimi sənədlərini Heydər Əliyev adına Ali Hərbi Məktəbə verir. İmtahanda uğur qazanır. Hərb kişi işidir. Ona görə də təhsil aldığı illərdə qarşısına çıxan çətinliklərin heç biri onu qorxutmur. Əksinə, cüssələnir, mətinləşir. Hərbin sirlərinə dərindən bələd olmaq üçün keçilən dərsləri əsaslı şəkildə mənimsəyir, verilən tapşırıqları vaxtında və dəqiqliklə yerinə yetirir.

İllər bir-birini əvəz edir. Hüseynağa Balıyev ali hərbi təhsilini başa vurub leytenant kimi müxtəlif hərbi hissələrdə xidmət etməyə başlayır. Bir müddət sonra isə Qarabağ ərazisindəki hərbi hissələrdən birinə keçirilir. Düşmənlə üzbəüz səngərdə dayanıb nə vaxtsa döyüşə başlamaq əmrini səbirsizliklə gözləyir. Müharibə başlayacağı halda tabor komandiri olaraq necə vuruşacağı, düşməni necə məhv edəcəyi barədə fikirləşir, xəyallar qurur.

Nəhayət, belə bir gün gəlib çatır. Prezident, Ali Baş Komandan İlham Əliyevin əmri ilə sentyabrın 27-də səhər saatlarında Silahlı Qüvvələrimiz işğal olunmuş torpaqlarımızı azad etmək üçün əks-hücuma keçir. Şiddətli döyüşlər başlayır.

Düşmənin uzun illərdən bəri dəmir-betondan tikdiyi istehkamları yarıb keçmək o qədər də asan deyildi. Lakin Azərbaycan Ordusu ən müasir silahlara malik olduğundan həmin istehkamları darmadağın etdi.

Müharibə qurbansız olmur. Mənfur düşmənlə döyüş zamanı əsgər və zabitlərimizdən şəhidlik zirvəsinə ucalanlar da oldu, yaralananlar da. Mayor Hüseynağa Balıyev Xocavənd istiqamətində komandir kimi nümunə göstərirdi. Amma o, döyüşlərin birində düşmən gülləsinə tuş gəlir və qəhrəmancasına şəhid olur.

Şəhid H.Balıyevin atası Salman kişi deyir ki, övlad itkisi, oğul itirmək çox ağırdır: "Ancaq təsəllimiz odur ki, Vətən uğrunda qurban gedib. Vətəndən əziz heç nə ola bilməz. Bir də ona görə qürurluyuq ki, ordumuz 30 illik həsrətə son qoydu, düşmən üzərində qələbə çaldı. Sağ olsun Ali Baş Komandan İlham Əliyev. Bu qələbə ilə o, Azərbaycanın yeni tarixini yazdı. Özü də qızıl hərflərlə. Hər bir şəhid ailəsini, yaralı əsgəri diqqət mərkəzində saxlayır. Dünyanın azını-çoxunu görmüş bir adam kimi Azərbaycanın gələcəyini daha xoşbəxt görürəm".

Şəhid mayorun iki övladı var. Qızı Rəna 8, oğlu Harun 3 yaşındadır. Hüseynağa hərbi xidmətdə olanda onlar anaları ilə birlikdə baba-nənələrinin yanında qalıblar. Salman kişi:

- Mənim və nənəsinin nə qədər canında can var, onların xidmətində duracaq, korluq çəkməyə qoymayacaq, təhsillərinə diqqət yetirəcəyik.

Ortaya çökən ani sükutdan sonra soruşuram:

- Neçə övladınız var, Salman kişi?

- İki oğlum, iki qızım var. Kiçik oğlum İsa 2016-cı ilin Aprel döyüşlərində iştirak edib. Hazırda Bakıda işləyir. Qızımın birini köçürmüşəm, ailəlidir, o biri isə Şirvan şəhərindəki Humanitar Kollecdə təhsil alır.

Qələbəmiz böyükdür. Artıq təqvimimizdə hansısa rayonun işğal günü olmayacaq. Bundan sonra hər il sentyabr ayının 27-si şəhidlərimizin Anım Günü, noyabrın 8-i isə Zəfər Günü kimi qeyd ediləcək. Şanlı qələbəmiz dərsliklərdə öz yerini tutacaq, bu haqda əsərlər yazılacaq, şəhidlərimiz minnətdarlıq hissi ilə yad ediləcək. O şəhidlər ki, Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçiblər, qanları ilə tarix yazıblar.

Ölməz heç vaxt şəhidlər,
Mərd igiddir şəhidlər.
Vətən, yadında saxla,
Şəhidlər şahiddilər.



## Cəsur kapitan

Şahnur Şahin oğlu Hüseynov əslən Astara rayonunun Ərçivan qəsəbəsindən olsa da, Polşanın Belqoqrad şəhərində yüksək rütbəli hərbçi ailəsində anadan olmuşdur. Atası Şahin Hüseynov Azərbaycana göndərilir, Cəlilabadda, Ağcabədidə işləyir, 3-4 ildən sonra istefaya çıxana qədər Füzulidə yerləşən hərbi hissədə qulluq edir. 1-8-ci sinifləri Füzulidə oxuyan Şahnur Cəmşid Naxçıvanski adına Hərbi Liseydə, ardınca Heydər Əliyev adına Ali Hərbi Məktəbdə təhsil alır, atasının yolu ilə gedir. 2013-cü ildən etibarən orduda xidmət edən gənc zabit bir çox uğurlara imza atır, təlimlərdə iştirak edir, komandanlıq etdiyi taborun fərqlənməsinə nail olur, təltiflərə, mükafatlara, fəxri fərmanlara layiq görülür, 2016-cı ilin Aprel döyüşlərində yüksək göstəricilər əldə edir, Lələtəpəyə bayraq sancanlardan biri olur.

Ürəyində böyük arzuları vardı. Ailəsini, yaşlı ata-anasını sevindirmək, 2 yaşlı ciyərparası Əlinuru ləyaqətli vətəndaş kimi böyütmək, ən ümdəsi isə canından çox sevdiyi Vətəninə, xalqına hələ uzun illər sədaqətlə xidmət etmək istəyirdi. Qarabağın azad edilməsini, işğal altında olan torpaqların mənfur düşməndən təmizlənməsini birinci sıraya qoyur, vəzifə borcu, şərəf işi hesab edirdi.

Şərəfsiz düşmənin min bir oyundan çıxması, dözülməz təxribatları gənc hərbçini əsəbiləşdirirdi. Tovuz hadisələrindən sonra yeni hərbi təxribatın da olacağı gözlənilən idi. Ona görə zəng edib atasına deyir ki, Gülyazla (həyat yoldaşı) Əlinuru görmək istəyir, amma evə gəlmək də mümkün deyil. Atası gəlinini və nəvəsini Şahnurun xidmət etdiyi hissəyə aparır, bir neçə gün ailə bir yerdə olur. Sentyabrın 25-də doymadığı əzizlərindən ayrılan gənc komandir 2 gün sonra səhər saat 6 radələrindən başlanan əks-hücum əməliyyatına qoşulur. Füzuli istiqamətində qəhrəmancasına vuruşan, mənfur "Ohanyan səddi"nin darmadağın edilməsində, bir neçə kəndin azad olunmasında, düşmənin xeyli sayda canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fəal iştirak edən komandir döyüşlərin birində ağır yaralanır və onun həyatını xilas etmək mümkün olmur.

Bir anlığa fikirləşirsən ki, ömrü cəmi 29 ilə sığışan bu qəhrəman görəsən son dəqiqələrdə nə düşünürdü? Ömrü yarıda qalmasaydı, nələr etməzdi! Amma bəxtinə şəhidlik zirvəsinə ucalmaq yazılıbmış. Axı bu zirvə də hər kəsə yox, seçilmişlərə qismət olur! Ş.Hüseynov, deyilənə görə, imanlı adam idi, ibadət edir, namaz qılırdı. Şəhidlik zirvəsinin Allah məqamında nə demək olduğunu özü yaxşı bilirdi. Ən böyük arzusu - canından çox sevdiyi Vətənin özünün iştirakı ilə yağı düşməndən azad edilməsi idi. İndi ruhu bizimlədir, ruhu şaddır. Təsəllimiz də budur. Qanı yerdə qalmadı. Bir də ki o, hərbçi ailəsinin yetirməsidir və bu ailənin digər üzvləri - dayısı, xalasının və bacısının həyat yoldaşları, bir çox qohumları, ən yaxın dostları hərbçidirlər və onun döyüş yolunu davam etdirirlər.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***







# İşğaldan azad edilmiş şəhər və kəndlərimiz









*Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində **noyabrın 9-dək** 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edilib. İndiyədək **Cəbrayıl** şəhəri və rayonun 90 kəndi, **Füzuli** şəhəri və rayonun 53 kəndi, **Zəngilan** şəhəri, rayonun **Mincivan, Ağbənd, Bartaz** qəsəbələri və 52 kəndi, **Xocavənd** rayonunun **Hadrut** qəsəbəsi və 35 kəndi, **Tərtər** rayonunun 3 kəndi, **Qubadlı** şəhəri və rayonun 41 kəndi, **Xocalı** rayonunun 9 kəndi, **Şuşa** şəhəri, **Laçın** rayonunun 3 kəndi, həmçinin **Ağdərə** və **Murovdağ** istiqamətlərində bir neçə strateji yüksəklik, **Zəngilanda** isə **Bartaz, Sığırt, Şükürataz yüksəklikləri** və daha **5 adsız yüksəklik** azad olunub.*

*Noyabrın 10-da Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidenti münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə bəyanat imzalayıblar. Bəyanata əsasən, 2020-ci il dekabrın 1-dək Kəlbəcər, Ağdam və Laçın rayonları Azərbaycana qaytarılmalıdır.*

*Bəyanata uyğun olaraq, noyabrın 20-də **Ağdam** rayonu Azərbaycana təhvil verilib.*

*Bununla da rayonun işğal edilmiş 73 faiz ərazisi, o cümlədən Ağdam şəhəri azad olunub.*

*Üçtərəfli bəyanata əsasən, noyabrın 25-də **Kəlbəcər** rayonu Azərbaycana təhvil verilib.*

*Kəlbəcər şəhəri də daxil olmaqla, 147 yaşayış məntəqəsi işğaldan azad edilib.*

*Dekabrın 1-də **Laçın** rayonu Azərbaycana təhvil verilib. Bununla da üçtərəfli bəyanata uyğun olaraq, Ağdam, Kəlbəcər və Laçın rayonlarının sülh yolu ilə qaytarılması prosesi yekunlaşıb.*

**27 sentyabr**

- **Füzuli** rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı kəndləri
- **Cəbrayıl** rayonunun Böyük Mərcanlı, Nüzgar kəndləri
- **Ağdərə** və **Murovdağ** istiqamətlərində yüksəkliklər

**3 oktyabr**

- **Tərtər** rayonunun Suqovuşan və Talış kəndləri
- **Cəbrayıl** rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy, Quycaq kəndləri
- **Füzuli** rayonunun Aşağı Əbdürrəhmanlı kəndi

**4 oktyabr**

- **Cəbrayıl** şəhəri və rayonun Karxulu, Şükürbəyli, Yuxarı Maralyan, Çərəkən, Daşkəsən, Horovlu, Decal, Mahmudlu, Cəfərabad kəndləri

**5 oktyabr**

- **Cəbrayıl** rayonunun Şıxəli Ağalı, Sarıcalı, Məzrə kəndləri



**9 oktyabr**

- **Xocavənd** rayonunun Hadrut qəsəbəsi və Sur kəndi
- **Cəbrayıl** rayonunun Qaracallı, Süleymanlı, Əfəndilər və Qışlaq kəndləri
- **Füzuli** rayonunun Yuxarı Güzlək, Görəzilli kəndləri
- **Tərtər** rayonunun Çaylı kəndi

**14 oktyabr**

- **Füzuli** rayonunun Qaradağlı, Xatunbulaq, Qarakollu kəndləri
- **Xocavənd** rayonunun Bulutan, Məlikcanlı, Kəmərtük, Təkə, Tağaser kəndləri

**15 oktyabr**

- **Xocavənd** rayonunun Edişə, Düdükçü, Edilli, Çiraquz kəndləri
- **Füzuli** rayonunun Arış kəndi
- **Cəbrayıl** rayonunun Doşulu kəndi

**16 oktyabr**

- **Xocavənd** rayonunun Xırmancıq, Ağbulaq, Axullu kəndləri

**17 oktyabr**

- **Füzuli** rayonunun Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı, Dədəli kəndləri və Füzuli şəhəri

**18 oktyabr**

- **Xudafərin** körpüsü üzərində Azərbaycan bayrağı qaldırıldı

**19 oktyabr**

- **Cəbrayıl** rayonunun Soltanlı, Əmirvarlı, Maşanlı, Həsənli, Əlikeyxanlı, Qumlaq, Hacılı, Göyərçinveysəlli, Niyazqulular, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndləri

**20 oktyabr**

- **Zəngilan** rayonunun Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Muğanlı kəndləri və Zəngilan şəhəri
- **Füzuli** rayonunun Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı kəndləri
- **Cəbrayıl** rayonunun Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli kəndləri



- **Xocavənd** rayonunun Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli (Noraşen), Çinarlı (Vəng) kəndləri

**21 oktyabr**

- **Zəngilan** rayonunun Mincivan qəsəbəsi, Xurama, Xumarlı, Sarıl, Babaylı, Üçüncü Ağalı, Hacallı, Qırax Müşlan, Üdgün, Turabad, İçəri Müşlan, Məlikli, Cahangirbəyli, Baharlı kəndləri
- **Cəbrayıl** rayonunun Balyand, Papı, Tulus, Hacılı, Tinli kəndləri
- **Füzuli** rayonunun Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər kəndləri

**22 oktyabr**

- **Zəngilan** rayonunun Kolluqışlaq, Malatkeşin, Kənd Zəngilan, Genlik, Vəliqulubəyli, Qaradərə, Çöpədərə, Tatar, Tiri, Əmirxanlı, Qarqulu, Bartaz, Dəlləkli kəndləri və Ağbənd qəsəbəsi
- **Cəbrayıl** rayonunun Sirik, Şıxlar, Məstalıbəyli, Dərzili kəndləri
- **Füzuli** rayonunun Mollavəli, Yuxarı Rəfədinli, Aşağı Rəfədinli kəndləri

**23 oktyabr**

- **Xocavənd** rayonunun Dolanlar və Bünyadlı kəndləri
- **Cəbrayıl** rayonunun Dağ Tumas, Nüsüs, Xələfli, Minbaşılı və Veysəlli kəndləri
- **Zəngilan** rayonunun Vənədli və Mirzəhəsənli kəndləri
- **Qubadlı** rayonunun Zilanlı, Kürd Mahrızlı, Muğanlı və Alaqurşaq kəndləri

**25-26 oktyabr**

- **Zəngilan** rayonunun Birinci Alıbəyli, İkinci Alıbəyli, Rəbənd, Yenikənd kəndləri
- **Cəbrayıl** rayonunun Qovşudlu, Sofulu, Dağ Maşanlı, Kürdlər, Hovuslu, Çələbilər kəndləri
- **Qubadlı** rayonunun Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas, Xanlıq, Sarıyataq, Mollabürhan kəndləri və Qubadlı şəhəri.

**28 oktyabr**

- **Zəngilan** rayonunun Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Zərnəli kəndləri
- **Füzuli** rayonunun Mandılı kəndi
- **Cəbrayıl** rayonunun Qazanzəmi, Xanağabulaq, Çullu, Quşçular, Qaraağac kəndləri
- **Qubadlı** rayonunun Qiyaslı, Əbilcə, Qılıcan kəndləri.

**30 oktyabr**

- **Cəbrayıl** rayonunun Xudaverdili, Qurbantəpə, Şahvələdli, Xubyarlı kəndləri
- **Zəngilan** rayonunun Aladin, Vejnəli kəndləri
- **Qubadlı** rayonunun Kavdadıq, Məmər, Mollalı kəndləri.

**2 noyabr**

- **Cəbrayıl** rayonunun Çaprand, Hacı İsaqlı, Qoşabulaq kəndləri
- **Zəngilan** rayonunun Dərə Gilətağ, Böyük Gilətağ kəndləri
- **Qubadlı** rayonunun İşıqlı, Muradxanlı, Milanlı kəndləri.

**4 noyabr**

- **Cəbrayıl** rayonunun Mirək, Kavdar kəndləri
- **Zəngilan** rayonunun Məşədiismayıllı, Şəfibəyli kəndləri
- Qubadlı rayonunun Başarat, Qarakişilər, Qaracallı kəndləri.

**7 noyabr**

- **Füzuli** rayonunun Yuxarı Veysəlli, Yuxarı Seyidəhmədli, Qorqan, Üçüncü Mahmudlu, Qacar, Divanalılar kəndləri
- **Cəbrayıl** rayonunun Yuxarı Məzrə, Yanarhac kəndləri
- **Qubadlı** rayonunun Qəzyan, Balasoltanlı, Mərdanlı kəndləri
- **Zəngilan** rayonunun Beşdəli kəndi
- **Xocavənd** rayonunun Ataqut, Tsakuri kəndləri
- **Xocalının** Qarabulaq, Moşxmaat kəndləri

**8 noyabr**

- **ŞUŞA** şəhəri

**9 noyabr**

- **Füzuli** rayonunun Qobu Dilağarda, Yal Pirəhmədli, Yuxarı Yağlıvənd, Dilağarda, Seyid Mahmudlu, Ələsgərli, Aşağı Güzdək, Qovşatlı, Mirzəcamallı, Şəkərcik, Mərdinli, Şıxlı, Qaraməmmədli, Dövlətyarlı, Hacılı, Hüseynbəyli, Saracıq kəndləri
- **Xocalı** rayonunun Dəmirçilər, Çanaqçı, Mədətkənd, Sığnaq, Şuşakənd, Muxtar, Daşaltı kəndləri
- **Xocavənd** rayonunun Susanlıq, Domi, Tuğ, Akaku, Azıx, Mets Tağlar, Salakətin, Zoğalbulaq, Aragül, Tağavard, Böyük Tağavard, Zərdanaşen, Şəhər kəndləri
- **Cəbrayıl** rayonunun Hüseynalılar, Söyüdlü, Aşağı Sirik, Qalacıq, Mollahəsənli, Əsgərxanlı, Yuxarı Nüsüs, Aşıq Məlikli, Niftalılar, Qərər, Çələbilər kəndləri
- **Qubadlı** rayonunun Yuxarı Mollu, Aşağı Mollu, Xocik, Qaramanlı, Xəndək, Həmzəli, Mahrızlı, Hal, Ballıqaya, Ulaşlı, Tinli, Xocahan, Boyunəkər, Qaraqoyunlu, Çərəli kəndləri
- **Zəngilan** rayonunun Keçikli, Ördəkli, Sobu, Qaragöz, İsgəndərbəyli kəndləri, Bartaz qəsəbəsi
- **Laçın** rayonunun Güləbürd, Səfiyan, Türklər kəndləri

**10 noyabr**

■ Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin bəyanatına əsasən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olunub.

■ Bəyanata əsasən 2020-ci il noyabrın 15-dək Kəlbəcər rayonu, noyabrın 20-dək Ağdam rayonu, dekabrın 1-dək isə Laçın rayonu Azərbaycana qaytarılacaq.

**20 noyabr**

■ Noyabrın 10-da imzalanmış üçtərəfli bəyanata uyğun olaraq, Ağdam rayonu Azərbaycana təhvil verilib. Bununla da rayonun işğal edilmiş 73 faiz ərazisi azad olunub. Xatırladaq ki, Ağdam işğal edilmiş rayonlarımızın arasında əhalinin sayına görə ən böyük rayondur. Rayonda 138 yaşayış məntəqəsi var.

**25 noyabr**

■ Üçtərəfli bəyanata əsasən, Kəlbəcər rayonu da Azərbaycana təhvil verilib.

Qeyd edək ki, Kəlbəcər ərazi baxımından respublikamızın ən böyük rayonlarından biridir. 2020-ci il yanvarın 1-nə olan məlumata görə, əhalisi 77 min nəfərdən çoxdur. İşğaldan əvvəl rayonda 147 yaşayış məntəqəsi olub.

**1 dekabr**

■ Üçtərəfli bəyanata uyğun olaraq, Ermənistan silahlı birləşmələri Laçın rayonundan çıxıb. Rayon Azərbaycan Silahlı Qüvvələrinə təhvil verilib.

Qeyd edək ki, ərazisi 1800 kvadratkilometr olan Laçın rayonunda bir şəhər, bir qəsəbə və 125 kənd olmaqla, ümumlikdə 127 yaşayış məntəqəsi var.

# Vətən Savaşında təcavüzkarın 3,8 milyard dollarlıq

## Ermənistan ordusunun məhv edilmiş texnikaları:

Tank əleyhinə vasitələr - 53 ədəd, "Smerç" - dörd ədəd, "Qrad" - 97 ədəd, "Uraqan" - 2, "YARS" - 1, TOS odsaçan - 1, "S-300" zenit-raket kompleksləri - 7 atıcı qurğusu məhv edildi. 7 atıcı qurğu, bir "S-300" radiolokatoru və iki "S-300" aşkaretmə stansiyası məhv edildi. "Oborona" radiolokasiya stansiyası - 1 ədəd, "TOR" zenit-raket kompleksi - 5 ədəd, "Osa" zenit-raket kompleksi - 40 ədəd, "KUB" zenit-raket kompleksi - 4 ədəd, "KRUQ" zenit-raket kompleksi - 1 ədəd, zastava - 14 ədəd, "S-125" zenit-raket kompleksi - 2 ədəd, pilotsuz uçuş aparatları - 22 ədəd, "Elbrus" əməliyyat-taktiki raket kompleksi - 2, ballistik raket - 1, "Toçka-U" raket kompleksi - 1, radioelektron mübarizə vasitələri - 5 ədəd, "R-142" komanda qərargah maşını - 2 ədəd, "Nebo-M" radiolokasiya stansiyası - 1 ədəd, müxtəlif radiolokasiya stansiyaları - 7 ədəd, "Reppelent" radio-texniki maneə vasitəsi - 4 ədəd.

## Düşmənin məhv edilmiş və qənimət götürülmüş texnikaları:

Özüyeriyən artilleriya qurğuları "Akasiya" və "Qvozdika" - 28-i məhv edilib, 5-i qənimət götürülüb. Müxtəlif çaplı toplar - 315-i məhv edilib, 37-si hərbi qənimət kimi götürülüb. Minaatanlar - 63-ü məhv edilib, 62-si qənimət götürülüb. Xüsusi avtomobillər - 10-u məhv edilib, 93-ü qənimət götürülüb. Qumbaraatan - 178-i qənimət götürülüb. Traktor - 10, "Şilka" zenit qurğusu - 5 ədəd qənimət götürülüb. Atıcı silahlar - 1380 atıcı silah qənimət götürülüb. 7 komanda məntəqəsi, 11 sursat anbarı dağıdılıb. Tank - 287-si məhv edilib, 79-u qənimət götürülüb, toplam 366 tank. Piyadaların döyüş maşını - 69-u məhv edilib, 47-si qənimət götürülüb. "Su-25" təyyarəsi - 5-i məhv edilib. Yük avtomobilləri - 252-si məhv edilib, 270-i hərbi qənimət kimi götürülüb.


"YARS" - 1 ədəd məhv edilib


"Smerç" - 4 ədəd məhv edilib


"Qrad" - 97 ədəd məhv edilib


"Uraqan" - 2 ədəd məhv edilib


"TOR" zenit-raket kompleksi - 5 ədəd məhv edilib


TOS odsaçan - 1 ədəd məhv edilib


"S-300" zenit-raket kompleksləri - 7 ədəd məhv edilib


"Oborona" radiolokasiya stansiyası - 1 ədəd məhv edilib


Tank əleyhinə vasitələr - 53 ədəd məhv edilib


"Osa" zenit-raket kompleksi - 40 ədəd məhv edilib


"KUB" zenit-raket kompleksi - 4 ədəd məhv edilib


"KRUQ" zenit-raket kompleksi - 1 ədəd məhv edilib


Zastava - 14 ədəd məhv edilib


"S-125" zenit-raket kompleksi - 2 ədəd məhv edilib


Pilotsuz uçuş aparatları - 22 ədəd məhv edilib


"Elbrus" əməliyyat-taktiki raket kompleksi - 2 ədəd məhv edilib


Ballistik raket - 1 ədəd məhv edilib


"Toçka-U" raket kompleksi - 1 ədəd məhv edilib


Radioelektron mübarizə vasitələri - 5 ədəd məhv edilib


"R-142" komanda qərargah maşını - 2 ədəd məhv edilib










# Zəfər təltifləri
















**Vətən müharibəmiz şanlı qələbə ilə tariximizin ən parlaq səhifələrinə qızıl hərflərlə həkk olundu. 44 gün ərzində öz şücaətləri ilə igid əsgərlərimizin hərəsi bir qəhrəmanlıq dastanı yazdı. Ölümə meydan oxudular, torpaqlarımızın hər qarışı uğrunda çarpışdılar, vuruşdular, ana Vətənə canlarını qurban verməkdən belə çəkinmədilər, şəhid, qazi oldular, əzmlə, qürurla, çiyin-çiyinə verərək, biləklərinin haqqı ilə qazandılar bu fəxarətli zəfəri…**

Qəhrəman oğullarımız dünya var olduqca sevgi və sayğı ilə xatırlanacaq, onların bu şücaətləri qədirbilən xalqımız tərəfindən daim qiymətləndiriləcək, yüksək dəyərləndiriləcək...

Elə "Vətən Müharibəsində qələbə münasibətilə" Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi də igidlərimizə yüksək ehtiramdır.

## "Zəfər" və "Qarabağ" ordenləri

Azərbaycan Respublikasının ərazi bütövlüyünün və təhlükəsizliyinin təmin edilməsi zamanı əhəmiyyətli və ya strateji ərazinin, yaşayış məntəqəsinin, rayonun və ya şəhərin düşmən işğalından azad olunması ilə nəticələnmiş döyüş əməliyyatlarına, Azərbaycan Respublikasının dövlət sərhədinin bərpa edilməsi üzrə döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi hissə komandirləri və onlardan yuxarı rəhbər heyəti "Zəfər" ordeni ilə təltif olunur. Habelə ərazi bütövlüyünün təmin edilməsi sahəsində xüsusi xidmətlərinə görə digər şəxslər də bu yüksək medala layiq görülür.

900 əyarlı qızıldan hazırlanmış "Zəfər" ordeni döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər ordenləri və medalları olduqda "Heydər Əliyev" ordenindən sonra taxılır.

Bu medal sol və sağ tərəflərinə iki əyri qılınc, uclarına kiçik kürəciklər bərkidilmiş ayparadan, guşələri pilləvari olan səkkizguşəli altlıqdan və aypara ilə altlığın üzərinə yerləşdirilmiş, uclarına kiçik kürəciklər bərkidilmiş ikitərəfli hamar şüalı səkkizguşəli ulduz formalı lövhədən ibarətdir.

"Qarabağ" ordeni ilə işğal edilmiş ərazilərimizin azad olunmasında, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində igidlik və mərdlik nümunəsi göstərmiş, hərbi əməliyyatlar zamanı həyat və sağlamlıq üçün real təhlükə şəraitində xidməti borcu və hərbi qulluq vəzifəsini yerinə yetirərkən mərdlik və qətiyyət nümayiş etdirmiş, respublikamızın dövlət sərhədinin bərpa və mühafizə edilməsində xüsusi xidmət göstərmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları, habelə ərazi bütövlüyünün təmin edilməsi sahəsində xüsusi xidmətlərinə görə digər şəxslər təltif edilir.

"Qarabağ" ordeni döşün sol tərəfinə, digər ordenlər və medallar olduqda "Zəfər" ordenindən sonra taxılır.

900 əyarlı qızıldan hazırlanmış, oval formalı lövhədən ibarət ordenin ön tərəfində lentin mərkəzində "QARABAĞ" sözü yazılıb.

## "Vətən Müharibəsi Qəhrəmanı", "Cəsur döyüşçü" və "Döyüşdə fərqlənməyə görə"

"Vətən Müharibəsi Qəhrəmanı" medalı "Vətən Müharibəsi Qəhrəmanı" adının xüsusi fərqlənmə nişanıdır. "Vətən Müharibəsi Qəhrəmanı" adı ölkəmizin işğal olunmuş ərazilərinin azad olunması zamanı düşmənin əlverişli ərazilərdə yerləşməsinə və inadlı müqavimətinə baxmayaraq, düşmən qüvvələrinin tam məğlub edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırıqlarına və dövlət sərhədinin bərpa edilməsi üzrə döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik edilməsinə, həmçinin döyüş əməliyyatlarında göstərdiyi şəxsi qəhrəmanlığa görə verilir.

"Vətən Müharibəsi Qəhrəmanı" medalı döşün sol tərəfinə, digər orden və medallardan yuxarıda "Qızıl Ulduz" medalından əvvəl taxılır.

900 əyarlı qızıldan hazırlanmış, biri digərinin üzərinə yerləşdirilmiş iki səkkizguşəli ulduz formalı lövhədən ibarət medalın alt ulduzu ağ qızıldan, üst ulduzu isə sarı qızıldan hazırlanmışdır.

"Cəsur döyüşçü" medalı ilə işğal edilmiş ərazilərimizin azad olunması zamanı müstəqil və ya digər qoşun növləri ilə birlikdə strateji və ya xüsusi əhəmiyyətli ərazilərin tutulması üzrə döyüş tapşırıqlarını uğurla yerinə yetirmiş, havada və yerdə düşmənin əsas qruplaşmalarını və texnikasını məhv etməklə qoşunlarımızın döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqlənmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları təltif edilir.

"Cəsur döyüşçü" medalı döşün sol tərəfinə, digər orden və medallar olduqda "İgidliyə görə" medalından sonra taxılır. Bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş səkkizguşəli lövhədən ibarət medalın ön tərəfi dekorativ naxışla bəzədilmiş zolaq ilə konturlanmışdır.

"Döyüşdə fərqlənməyə görə" medalı ilə döyüş şəraitində tapşırıqların icrası zamanı və həyat riski ilə əlaqəli xüsusi əməliyyatlar zamanı göstərilən fərqlilik, cəsarət və fədakarlıq, habelə döyüş tapşırıqlarının uğurla yerinə yetirilməsinə kömək edən bacarıqlı, təşəbbüskar və qətiyyətli hərəkətlər nümayiş etdirmiş, eləcə də döyüş tapşırıqlarının uğurla yerinə yetirilməsi zamanı tabeçilikdə olan bölməyə peşəkarlıqla rəhbərlik etmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları təltif edilir.

"Döyüşdə fərqlənməyə görə" medalı döşün sol tərəfinə, digər orden və medallar olduqda "Cəsur döyüşçü" medalından sonra taxılır.

Bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, biri digərindən kiçik olmaqla, biri digərinin üzərində yerləşdirilmiş, guşələrinin araları birləşən qövsvari xətlərlə konturlanmış iki səkkizguşəli ulduz formalı lövhədən ibarətdir.





































## "Suqovuşanın azad olunmasına görə"

"Suqovuşanın azad olunmasına görə" medalı ilə Suqovuşan kəndinin işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak etmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları təltif edilir.

Bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş dairəvi lövhədən ibarət medal döşün sol tərəfinə, digər orden və medallar olduqda "Döyüşdə fərqlənməyə görə" medalından sonra taxılır.

## "Cəbrayılın azad olunmasına görə"

Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak etmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilir.

Medal döşün sol tərəfinə, digər orden və medallar olduqda "Suqovuşanın azad olunmasına görə" medalından sonra taxılır.

## "Xocavəndin azad olunmasına görə"

"Xocavəndin azad olunmasına görə" medalı ilə Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak etmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları təltif edilir.

Bu medal döşün sol tərəfinə, digər orden və medallar olduqda "Cəbrayılın azad olunmasına görə" medalından sonra taxılır.

## "Füzulinin azad olunmasına görə"

"Füzulinin azad olunmasına görə" medalı ilə Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak etmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları təltif edilir.

"Füzulinin azad olunmasına görə" medalı döşün sol tərəfinə, digər orden və medallar olduqda "Xocavəndin azad olunmasına görə" medalından sonra taxılır.

## "Zəngilanın azad olunmasına görə"

Zəngilan rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak etmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları "Zəngilanın azad olunmasına görə" medalı ilə təltif edilir.

"Zəngilanın azad olunmasına görə" medalı döşün sol tərəfinə, digər orden və medalları olduqda "Füzulinin azad olunmasına görə" medalından sonra taxılır.

## "Qubadlının azad olunmasına görə"

"Qubadlının azad olunmasına görə" medalı ilə Qubadlı rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak etmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları təltif edilir.

Bu medal döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda "Zəngilanın azad olunmasına görə" medalından sonra taxılır.

## "Şuşanın azad olunmasına görə"

"Şuşanın azad olunmasına görə" medalı ilə Şuşa şəhərinin işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak etmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları təltif edilir.

"Şuşanın azad olunmasına görə" medalı döşün sol tərəfinə, digər orden və medallar olduqda "Qubadlının azad olunmasına görə" medalından sonra taxılır.

## "Kəlbəcərin azad olunmasına görə"

Kəlbəcər rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak etmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilir.

Bu medal döşün sol tərəfinə, digər orden və medalları olduqda "Şuşanın azad olunmasına görə" medalından sonra taxılır.

## "Ağdamın azad olunmasına görə"

"Ağdamın azad olunmasına görə" medalı ilə Ağdam rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak etmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları təltif edilir.

Bu medal döşün sol tərəfinə, digər orden və medalları olduqda "Kəlbəcərin azad olunmasına görə" medalından sonra taxılır.

## "Laçının azad olunmasına görə"

Laçın rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak etmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları "Laçının azad olunmasına görə" medalı ilə təltif edilir.

Medal döşün sol tərəfinə, digər orden və medallar olduqda "Ağdamın azad olunmasına görə" medalından sonra taxılır.

*Qeyd edək ki, işğaldan azad edilən rayonlarımızın adına təsis edilən medallar bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş dairəvi lövhədən ibarətdir. Rayonların böyük hərflə yazılmış adı ilə dəfnə çələnglərinin arasında iki səkkizguşəli ulduz və kompozisiyanı tamamlayan xətlər təsvir olunub. Daxili çevrənin içərisində, doğan günəş şüaları fonunda at belində Azərbaycan Respublikasının Dövlət Bayrağını aparan Azərbaycan əsgəri təsvir olunub.*

## "Vətən müharibəsi iştirakçısı" və "Vətən müharibəsində arxa cəbhədə xidmətlərə görə"

İşğal edilmiş ərazilərimizin azad olunması uğrunda Vətən müharibəsində iştirak etmiş, aparılan döyüş əməliyyatlarının uğurla nəticələnməsinə töhfə vermiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları və mülki işçiləri, habelə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) ön cəbhədə fədakarlıq göstərmiş əməkdaşları və mülki işçiləri "Vətən müharibəsi iştirakçısı" medalı ilə təltif edilir.

Bu medal döşün sol tərəfinə, digər orden və medallar olduqda "Laçının azad olunmasına görə" medalından sonra taxılır.

Bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, guşələrinin ətrafı üçbucaq formalı xətlərlə, guşələrinin arası qövsvari xətlərlə konturlanmış, guşələri ikitərəfli hamar şüalı, guşələrinin arası 32 ədəd qısa ikitərəfli hamar şüalı səkkizguşəli ulduz formalı lövhədən ibarətdir.

"Vətən müharibəsində arxa cəbhədə xidmətlərə görə" medalı ilə işğal edilmiş ərazilərimizin azad olunması və dövlət sərhədlərinin mühafizəsi zamanı arxa cəbhədə döyüş təminatı tapşırıqlarının yerinə yetirilməsində fərqlənmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları və mülki işçiləri, habelə fədakar əməyinə görə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) əməkdaşları təltif edilir.

Bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, xarici və daxili çevrələrlə konturlanmış dairəvi lövhədən ibarət medal döşün sol tərəfinə, digər orden və medallar olduqda "Vətən müharibəsi iştirakçısı" medalından sonra taxılır.

*İndi igidlərimiz sol döşlərinin üzərində, düz ürəklərinin üstündə qürur və fəxarətlə gəzdirəcəklər bu orden və medalları. Hər nəfəs alıb verdikcə, sinələri qabaracaq, medalları cingildəyərək qovuşacaq, bu an ürəkləri fərəhdən dağa dönəcək, bir daha o qəhrəmanlıq anlarına qayıdacaq, Qarabağda dalğalandırdıqları ay-ulduzlu üçrəngli bayrağın müqəddəs kölgəsini üzərlərində hiss edəcək və gülümsəyərək bütöv Azərbaycanın əbədiyyət üfüqlərinə doğru inamla addımlayacaqlar...*

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***


SOCAR
SOCAR PETROLEUM QSC
Qələbəmizin təminatçısı
Ali Baş Komandan İlham Əliyevi
və Vətən müharibəsinin qəhrəmanlarını
ZƏFƏR GÜNÜ münasibətilə təbrik edir,
Silahlı Qüvvələrimizin şücaətinin təntənəsi olan
QƏLƏBƏ PARADINDAN qürur duyuruq!
QARABAĞ AZƏRBAYCANDIR!


"Bakı Abadlıq Xidməti" MMC
Azərbaycan xalqına
Zəfər Gününü və Qələbə Paradını
bəxş edən Ali Baş Komandan
İlham Əliyevə
və Şanlı Ordumuzun qəhrəman
əsgər - zabitlərinə eşq olsun!
Cəbrayıl bizimdir!
Füzuli bizimdir!
Zəngilan bizimdir!
Qubadlı bizimdir!
Şuşa bizimdir!
Ağdam bizimdir!
Kəlbəcər bizimdir!
Laçın bizimdir!
Qarabağ bizimdir!
QARABAĞ AZƏRBAYCANDIR!

# Ermənilərin Şimali Azərbaycana köçürülməsi tarixinə dair yeni kitab çap olunub

Tarix İnstitutunda “Ermənilərin XIX əsrdə Şimali Azərbaycan torpaqlarına köçürülməsi tarixi həqiqətdir” kitabı rus və ingilis dillərində çapdan çıxıb.




İnstitutdan AZƏRTAC-a bildirilib ki, “İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi” və digər fundamental tədqiqatlar kimi bu əsər də Prezident İlham Əliyevin çağırışlarına cavab olaraq yazılıb.

Yeni nəşrin müəllifləri Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov və qurumun “Qarabağ tarixi” şöbəsinin müdiri, dosent Güntəkin Nəcəflidir. Bu əsər institutun Elmi Şurasının qərarı ilə çap olunub.

Əsərdə qeyd edilir ki, XIX əsrin əvvəllərində çar Rusiyası I Pyotrun erməniləri Cənubi Qafqaza - Şimali Azərbaycan torpaqlarına köçürmək siyasətini həyata keçirməyə başladı. Türkmənçay (1828) və Ədirnə (1829) müqavilələrinə əsasən həm Qacarlar İranından, həm də Osmanlı imperiyasından kütləvi surətdə ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsinə başlandı. Bunun üçün burada öncə qanlı qırğın siyasəti yeridildi. Çar Rusiyasına xidmət edən erməni və gürcü əsilli zabitlərin - sisianovların, lazaryanların, melikyansların, madatovların vasitəsilə burada əliyalın azərbaycanlı əhaliyə qarşı soyqırımı həyata keçirildi.

Kitabda ermənilərin XIX əsrdə Şimali Azərbaycan torpaqlarına köçürülməsi çar Rusiyasının arxiv sənədləri, imperatorun göstərişləri və digər sənədlərlə təkzibedilməz şəkildə sübut edilir. Kitaba, həmçinin erməni saxtakarlığını ifşa edən sənədlər və fotomateriallar da daxil edilib. Nəşrdə yazılır ki, XVIII əsrdə Qarabağın dağlıq hissəsində yaşayan alban xristian məlikləri I Pyotra və II Yekaterinaya yazdıqları məktublarında özlərinin erməni deyil, alban olduqlarını təsdiq etmişlər. Bu məktublar erməni alimləri tərəfindən saxtalaşdırılaraq “alban türkləri” - “ağvan müsəlmanları”, “Alban Arşaki nəsli” isə “erməni rəisləri nəsli” ifadələri ilə əvəz edilib.

Xatırladaq ki, Yaqub Mahmudov və Güntəkin Nəcəflinin daha əvvəl “Ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsinin regional təhlükəsizlik üçün nəticələri” adlı kitabı da nəşr olunub.

# Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi daha 40 avtomobili müharibə əlillərinə təqdim edib

Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun əldə etdiyi möhtəşəm tarixi qələbə, işğal olunmuş ərazilərimizin cəmi 44 gün ərzində düşməndən azad edilməsi müharibə əlillərində sonsuz fəxr və iftixar hissləri yaradıb. Onlar Ali Baş Komandanla, qüdrətli ordumuzla fəxr edirlər.



Bu fikirlər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən dünən “Xəzər” markalı 40 avtomobilin müharibə əlillərinə təqdim edilməsi tədbirində vurğulanıb.

Tədbirdə çıxış edən nazirliyin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondunun sədri Himalay Məmişov Prezident İlham Əliyevin həssas qruplara qayğısından bəhs edib. O, ölkədə bütün sosial proqramların uğurla davam etdiyini və genişləndirildiyini deyib, güclü orduya malik Azərbaycanın həm də güclü sosial siyasətə malik olduğunu vurğulayıb. Qurumun sədri Azərbaycanda qələbə ovqatının hökm sürdüyü bu günlərdə müharibə əlilləri və onlara bərabər tutulan şəxslərin avtomobillə təminatı tədbirlərinin də uğurla davam etdirildiyini diqqətə çatdırıb.

H.Məmişov bildirib ki, nazirlik tərəfindən müharibə əlilləri və onlara bərabər tutulan şəxslərə 2018-ci ildə 265 avtomobil, ötən il isə 600 avtomobil verilib. 2020-ci ildə 400 avtomobilin verilməsi nəzərdə tutulub və onlardan artıq böyük əksəriyyəti təqdim edilib. Ümumilikdə isə, nazirlik ötən dövrdə müharibə əlilləri və onlara bərabər tutulanları 7 mindən çox minik avtomobili ilə təmin edib.

Tədbirdə şəhid ailələri və müharibə əlillərinin mənzillə təminatı işlərindən də bəhs edilib. Qeyd olunub ki, şəhid ailələri və müharibə əlillərinə bu il rekord sayda - azı 1500 mənzil və fərdi ev verilməsi nəzərdə tutulub. Onlardan artıq 1050-dən çoxu verilib.

Ümumilikdə ötən dövrdə şəhid ailələrinə və müharibə əlillərinə 9 minə yaxın mənzil və fərdi ev verilib. Bu tədbirlər bir daha göstərir ki, Vətən naminə döyüşlərdə şəhid olan qəhrəmanlarımızın ailələrinin, bu döyüşlərdə sağlamlığını itirmiş vətəndaşların sosial müdafiəsi daim diqqət mərkəzindədir və onların rifahı üçün bütün dəstək tədbirləri görülür.

Avtomobillə təmin olunan vətəndaşlar Prezident İlham Əliyevin uğurlu sosial siyasətindən, şəhid ailələrinə, müharibə əlillərinə xüsusi diqqət və qayğısından razılıqla bəhs edərək, avtomobillə təmin edildiklərinə görə dövlət başçısına minnətdarlıqlarını ifadə ediblər.

**AZƏRTAC**

# Lənkəranda bir qrup şəhid ailəsi və Qarabağ müharibəsi əlili mənzillərlə təmin edilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Lənkəran şəhərində bir qrup şəhid ailəsi və Qarabağ müharibəsi əlili mənzillərlə təmin edilib.





Tədbirdə nazirliyin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin sədri Vüqar Behbudov, Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Möhübbət Babayev iştirak ediblər.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, şəhid ailələri və Qarabağ müharibəsi əlilləri Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ordumuzun cəmi 44 gün ərzində möhtəşəm qələbə əldə etməsindən, misilsiz rəşadətindən, Ermənistan ordusuna sarsıdıcı zərbələr vurmasından, ərazilərimizi işğaldan azad etməsindən qürurla bəhs ediblər. Bildiriblər ki, bu tarixi Zəfərlə Azərbaycan öz gücünü, qüdrətini, xalqımızın sarsılmaz birliyini dünyaya nümayiş etdirdi. Gələcək nəsillər də daim bu qələbəmizlə fəxr edəcəklər.

Diqqətə çatdırılıb ki, mühüm sosial proqramlardan biri də şəhid ailələrinin və müharibə əlillərinin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına, onların yeni mənzillərlə təmin olunmasına yönəlib. Onlara 2018-ci ildə nəzərdə tutulduğundan 3 dəfə çox olmaqla 626, ötən il 934 mənzil və fərdi ev verilib.

Dövlət başçısının tapşırığına əsasən 2020-ci ildə həmin göstəricinin rekord səviyyəyə, yəni 1500-ə çatdırılması həmin kateqoriyalardan olan vətəndaşlara qayğının daim artmaqda olduğunu, sosial proqramların ildən-ilə əhəmiyyətli dərəcədə genişləndirildiyini göstərir. Onlardan 1050-dən çoxu artıq təqdim edilib.

Ümumilikdə isə şəhid ailələrinə və müharibə əlillərinə indiyədək 9000-ə yaxın mənzil və fərdi ev verilib.

Dövlət başçısının onların sosial müdafiəsinin gücləndirilməsinə, rifah halının yaxşılaşdırılmasına xüsusi qayğısını vurğulayan şəhid ailələrinin üzvləri və müharibə əlilləri bu gün mənzillər və fərdi evlə təmin edilmələrindən sevinc hissi keçirdiklərini bildiriblər. Onlar bu yüksək qayğıya görə Prezident İlham Əliyevə dərin minnətdarlıqlarını ifadə ediblər.

# Bakı polisi Zəfər paradı ilə əlaqədar paytaxt yollarında hərəkətə məhdudiyyət qoyulmasına dair məlumat yayıb

Paytaxt Bakıda keçiriləcək Zəfər paradı ilə bağlı hazırlıq işləri davam edir. Azadlıq meydanında keçiriləcək hərbi paradda aidiyyəti texnikaların hərəkətində təhlükəsizliyi təmin etmək məqsədilə bəzi küçə və prospektlərdə hərəkətə məhdudiyyət qoyulub.

Bakı Şəhər Dövlət Yol Polisi İdarəsindən AZƏRTAC-a verilən məlumata görə, hazırda Rəşid Behbudov və Neftçilər prospektlərinin kəsişməsindən hərəkət Rəşid Behbudovdan keçməklə Zərifə Əliyeva, Üzeyir Hacıbəyov, Cavanşir körpüsü və Afiyəddin Cəlilov küçələri ilə iki istiqamətli müəyyənləşdirilib. Bu ərazilərdə sıxlığın, süni tıxacın yaranmaması üçün sürücülərdən xahiş olunur ki, hərbi parad başa çatanadək Azneft dairəsi, Neftçilər prospekti və Azadlıq meydanı istiqamətində şəxsi avtomobillərdən mümkün qədər istifadə edilməsin. Eləcə də Azadlıq meydanı, Dəniz vağzalı istiqamətdə kəsişən bütün küçə və prospektlərdə hərəkət tam məhdudlaşdırılır.

Mərkəzdən Nobel prospekti istiqamətində hərəkət etmək istəyənlər yalnız 10-cu zavod dairəsi və Babək prospektindən keçməklə hərəkət etməlidirlər. Həmçinin 20-ci sahə dairəsindən, Bakı-Salyan yolunun 14-cü kilometrliyindən, Bayıl qəsəbəsində Üzgüçülük hovuzunun və Səbail rayonu Yanğından Mühafizə İdarəsinin inzibati binasının yanından istiqamətlərin dəyişdirilməsi nəzərdə tutulub. Afiyəddin Cəlilov və Yusif Səfərov küçələrindən hərəkət yalnız sağa müəyyənləşdirilib.

Yeni bulvar ərazisində də şəxsi avtomobillərlə hərəkət mümkün olmayacaq. Çünki həmin istiqamətdəki bütün yollara hərbi texnikalar yerləşdirilib.

# Paytaxtın Yasamal rayonunda “Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib









Dekabrın 8-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən “Bizim həyət” layihəsi çərçivəsində növbəti abadlaşdırılmış həyət sakinlərin istifadəsinə verilib.

AZƏRTAC xəbər verir ki, yenilənmiş həyət Bakının Yasamal rayonu, Yeni Yasamal yaşayış massivi, 2 ünvanında təxminən iki min sakinin yaşadığı binaları əhatə edir.

“Bizim həyət” layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud olan insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarını səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə müxtəlif idman qurğuları, futbol və şahmat meydançaları, uşaqlar üçün oyun meydançası salınıb, bulaq çəkilib. Həyətin ərazisində 3 söhbətgah inşa edilib, oturacaqlar, tullantılar üçün qutular, quş yuvaları quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri, binalarda yeni liftlər quraşdırılıb, binaların fasadları, dam örtükləri və giriş hissələri tam təmir olunub. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq xüsusi karantin rejiminin qaydalarına riayət etməklə 30 ədəd ağac əkilib.

Yenilənmiş həyətdə karantin dövrünün tələblərinə uyğun olaraq tibbi-profilaktik tədbirlər həyata keçirilib, dezinfeksiya dispenserləri qoyulub, karantin rejimi qaydalarına riayət olunması ilə bağlı xəbərdarlıq edən maarifləndirici lövhələr quraşdırılıb.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

# “Anadolu” agentliyi Cəbrayıl rayonu ərazisindəki Xudafərin körpülərinə həsr olunan məqalə yayıb

Türkiyənin “Anadolu” agentliyi təcavüzkar Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi hərbi işğal və onun nəticələri ilə bağlı həqiqətləri dünya ictimaiyyətinə çatdırmaqda davam edir.




AZƏRTAC xəbər verir ki, agentliyin yaydığı “Ermənistanın işğalı səbəbindən min illik körpü yox olmaq təhlükəsi ilə qarşı-qarşıya qaldı” sərlövhəli məqalə Cəbrayıl rayonu ərazisində yerləşən qədim Xudafərin körpülərinə həsr olunub. Məqalədə əvvəlcə Xudafərin körpülərinin tarixi, memarlıq quruluşu, həmçinin strateji əhəmiyyəti barədə məlumat verilir. Diqqətə çatdırılır ki, Azərbaycan və İranın dövlət sərhədini müəyyən edən Araz çayının bu bölgədəki sahil yaşayış məskənləri fərqli görkəmdədir. İranın həmin bölgədəki sahil qəsəbələrində inkişaf olduğu halda, Azərbaycan tərəfində Ermənistanın 27 illik işğalçılığının xarabalıqları qalıb. Qeyd olunur ki, Azərbaycan bu bölgəni işğaldan xilas etməklə bir tərəfdən tarixi irsinə sahib çıxıb, digər tərəfdən dövlət sərhədlərini nəzarətə götürüb.


## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən 03 dekabr 2020-ci il tarixdə **www.etender.gov.az** Portalında, 04 dekabr 2020-ci il tarixdə “Azərbaycan” qəzetində dərc edilmiş “Möhür, ştamp və məlumat daşıyıcı lövhələrin satın alınması”na dair keçiriləcək kotirovka sorğusunda Tender komissiyasının qərarı ilə sənədlərin qəbulu müddəti 14 dekabr 2020-ci il saat 15:00-a qədər uzadılmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən 27 noyabr 2020-ci il tarixdə www.etender.gov.az Portalında, 28 noyabr 2020-ci il tarixdə “Azərbaycan” qəzetində dərc edilmiş “Tibbi ləvazimatların satın alınması”na dair keçirilmiş kotirovka sorğusunda Tender komissiyasının qərarı ilə “Azəri Med” QSC müsabiqənin qalibi elan olunmuşdur.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

“Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya” Publik Hüquqi Şəxsi tərəfindən 25.11.2020-ci il tarixdə “Kompüter və avadanlıqlar”ın kotirovka sorğusu üsulu ilə satın alınması üzrə keçirilən kotirovkanın nəticələri iştirakçıların tələbə uyğun sənədlər təqdim etmədiyi səbəbindən ləğv olunmuşdur.

***Tender komissiyası***

AZPETROL

“Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı”.

İlham Əliyev

“Azpetrol” şirkətinin rəhbərliyi və kollektivi Ali Baş Komandan İlham Əliyevi, şanlı Azərbaycan Ordusunu və xalqını Vətən müharibəsində qazanılan Zəfər Günü və Qələbə Paradı münasibətilə təbrik edir.



QARABAĞ AZƏRBAYCANDIR!

# “Azercell” LTE şəbəkəsinin əhatə dairəsini 85 faizə çatdırıb

Keyfiyyətli və sürətli mobil internet xidmətləri ilə daima öndə olan “Azercell Telekom” ötən ilin əvvəlindən etibarən ölkəmizdə LTE şəbəkəsinin təkmilləşdirilməsi layihəsini uğurla həyata keçirməkdədir. Bu müddət ərzində “Azercell” şəbəkənin əhatə dairəsinin kifayət qədər genişlənməsinə, abunəçilərini təkcə paytaxtda deyil, regionlarda da keyfiyyətli xidmətlə təmin etməyə nail olub. Rəqəmlər də bunu sübut edir.






2019-cu il yanvarın 1-dən bu il noyabrın 1-dək Azərbaycanda “Azercell”in LTE şəbəkəsinin əhali əhatə dairəsi 35.9%-dən 85%-ə yüksəlib. Bu müddət ərzində LTE üzərindən çalışan baza stansiyalarının sayı da sürətlə artırılıb. Belə ki, bu texnologiya üzərindən çalışan ümumi radio baza stansiyalarının sayı 828-dən 2616-ya yüksəlib. Təkcə 2020-ci ilin 10 ayı ərzində 721 belə stansiya istifadəyə verilib.

“Azercell”in LTE şəbəkəsinin coğrafi əhatə dairəsi isə 2019-cu ilin yanvar ayından cari ilin 1 oktyabr tarixinə kimi 30.3%-dən 69.5%-ə çatdırılıb. Xüsusilə regionlarda görülən işlər sayəsində ölkə üzrə LTE şəbəkəsi daha da genişləndirilib. Bura həmçinin müzəffər Ordumuzun rəşadəti sayəsində işğaldan azad edilmiş bölgələr də daxildir. “Azercell Telekom” MMC işğaldan azad olunmuş ərazilərdə ilk mobil infrastrukturun, eləcə də Qarabağın tacı sayılan Şuşada dördüncü nəsil LTE mobil stansiyalarının quraşdırılmasına başlayan ilk şirkətdir.

“Azercell” artıq bölgələrdə LTE texnologiyası üzrə datanın ötürülmə sürətinə, informasiyanı yükləmə müddətinə və video materialların daha yüksək keyfiyyətlə ötürülməsi parametrlərinə görə ölkənin digər mobil operatorlarından üstün olduğunu təsdiqləyib. Bunu “Systemics” Avropa şirkətinin ötən il Azərbaycanda keçirdiyi müstəqil bençmarkinq testinin nəticələri təsdiqləyib. Dünya miqyaslı telekommunikasiya şirkəti olan “Ericcson”un apardığı bençmarkinq araşdırmaları da LTE şəbəkəsinin sürətinə görə “Azercell”in “Öz sinfində” (“Best in class”) ən yaxşı operatorlardan biri olduğunu sübut edib.

LTE şəbəkəsinin keyfiyyətinin yaxşılaşdırılması işləri Bakıda da həyata keçirilir. Xüsusilə Bakı Metropolitenində də sürətli mobil internetin əlçatan olması üçün tunellərdə təkmilləşdirmə işləri aparılır, LTE şəbəkəsinin genişləndirilməsi tam sürətlə davam edir. Layihə çərçivəsində metronun 8 stansiyasında işlər artıq yekunlaşıb. Bununla yanaşı, metro stansiyalarında LTE-Daşıyıcı Birləşdirmə sistemi də aktivləşdirilib ki, bu da metro açıldıqdan sonra sərnişinlərin yüksəksürətli internetdən istifadəsini təmin edəcək.

LTE şəbəkəsinin təkmilləşdirilməsinin məqsədi abunəçilərin gündəlik rabitə ehtiyaclarını operativ və daha keyfiyyətli şəkildə ödəməkdir. “Azercell”in təqdim etdiyi LTE xidmətində böyük irəliləyişlər olduğundan, şəbəkədən istifadəçi sayı əhəmiyyətli dərəcədə yüksəlməkdədir.

Hazırda şirkət tərəfindən bütün ölkə boyu internet trafikin yüksək keyfiyyətinin təmin edilməsi və artırılması istiqamətində lazımi texniki tədbirlər həyata keçirilir. “Azercell” bütün Azərbaycan ərazisini müasir mobil şəbəkə ilə əhatə etməyə, abunəçilərini fasiləsiz rabitə və innovativ xidmətlərlə təmin etməyə hazırdır.

## “Sumqayıt Kimya Sənaye Parkı” MMC texniki avadanlıqların satın alınması üçün kotirovka sorğusu keçirir

Kotirovka sorğusu iştirakçılarına təklif edilir ki, qiymət təkliflərini möhürlənmiş və imzalanmış şəkildə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün iştirakçılar lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Prosedurda iştirak etmək istəyənlər Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu “Sumqayıt Kimya Sənaye Parkı” MMC-nin Bakı şəhəri, Xocalı prospekti, 37, “Demirchi Tower”də yerləşən ofisindən yazılı müraciət etməklə əldə edə bilərlər. Əlaqələndirici şəxs - Abbas Mamedov (telefon: 012-488-80-65)

İddiaçılar kotirovka sorğusunda iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- kotirovka sorğusunda iştirak etmək üçün müraciət;
- iddiaçının tam adı, təşkilatın hüquqi forması, nizamnaməsi, şəhadətnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri, dövlət reyestrindən çıxarış və ƏDV ödəyicisinin qeydiyyat bildirişinin təsdiqlənmiş surətləri;
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq vergi orqanından arayış;
- texniki imkanlar barədə məlumat;
- satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olmasını təsdiq edən sənəd (əmr, təsisçilərin yığıncağının qərarı və s.).

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan təkliflər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Kotirovka sorğusu proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar prosedurda iştirak etmək üçün yuxarıda göstərilən sənədləri 14 dekabr 2020-ci il saat 13:00-dək “Sumqayıt Kimya Sənaye Parkı” MMC-nin Bakı şəhəri, Xocalı prospekti, 37, “Demirchi Tower” ünvanında yerləşən ofisinə yazılı formada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 14 dekabr 2020-ci il saat 16:00-da Bakı şəhəri, Xocalı prospekti, 37, “Demirchi Tower”də yerləşən ofisində, iclas zalında açılacaqdır.

Zərflərin açılmasında iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

*Tender komissiyası*



## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi 1 saylı Bakı DOST Mərkəzinin inzibati binasında sanitariya-epidemioloji işlərinin satın alınması məqsədilə elan edilən kotirovka sorğusunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir. Tender komissiyasının 7 dekabr 2020-ci il qərarına əsasən **"Sanitariya Epidemioloji Xidmətlər" MMC** qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən bankın ofisləri üçün kresloların satın alınması ilə bağlı keçirilmiş kotirovka sorğusu üzrə Satınalmalar komissiyasının 25 noyabr 2020-ci il tarixli qərarına əsasən fərdi sahibkar Quliyev Çingiz Baba oğlu qalib elan edilmişdir.

Qalib şəxslə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Əsaslı Tikinti və Təchizat İdarəsi tərəfindən Bakı Mühəndislik Universiteti üçün əlavə tədris korpuslarının tikintisi üzrə təkliflər sorğusu üsulu ilə 18 noyabr 2020-ci il tarixdə keçirilməsi nəzərdə tutulmuş satınalma proseduru baş tutmamışdır.

***Tender komissiyası***

## "Bakı Metropoliteni" QSC Bakı Metropoliteninin III yeni (Bənövşəyi) xəttinə aid "Xocasən" elektrik deposu, "Xocasən-Avtovağzal" mənzil tunelləri və B-03 stansiyası üçün kabel və şin bağlantılarının satın alınması üzrə

### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir: **Bakı Metropoliteninin III yeni (Bənövşəyi) xəttinə aid "Xocasən" elektrik deposu, "Xocasən-Avtovağzal" mənzil tunelləri və B-03 stansiyası üçün kabel və şin bağlantılarının satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal)** elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını yalnız "ASAN Ödəniş" vasitəsilə həyata keçirdikdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu **https://www.etender.gov.az/** - **dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə** adıçəkilən tender bölməsində əldə edə bilərlər. Əlaqələndirici şəxs: Rauf Yusifov, telefon: 490-01-01.

**İştirak haqqı - 100 manat**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **12 yanvar 2021-ci il saat 11:30-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **19 yanvar 2021-ci il saat 11:30-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **21 yanvar 2021-ci il saat 11:30-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

*QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## BİLDİRİŞ

Xəzər rayon Mənzil-Kommunal Təsərrüfatı Birliyi tərəfindən etender.gov.az Portalında 30.10.2020-ci il tarixdə elan edilmiş Kommunal təyinatlı maşın və mexanizmlərin alınması üzrə keçirilmiş açıq tenderin qalibi **"İmprotex Truck and Buses" MMC** müəyyən edilmişdir.

Xəzər rayon Mənzil-Kommunal Təsərrüfatı Birliyi və "İmprotex Truck and Buses" arasında müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Bakı Şəhər Mənzil-Kommunal Təsərrüfatı Departamentinin 1 saylı Xüsusi Təyinatlı Mənzil-Kommunal Təsərrüfatı Birliyi tərəfindən etender.gov.az Portalında 03.11.2020-ci il tarixdə elan edilmiş nəqliyyat və xüsusi texnikaların satın alınması üzrə keçirilmiş açıq tenderin qalibi **"Az-Tex-İmport " MMC** müəyyən edilmişdir.

1 saylı Xüsusi Təyinatlı Mənzil-Kommunal Təsərrüfatı Birliyi və " Az-Tex-İmport" MMC arasında müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Bakı Şəhər Mənzil-Kommunal Təsərrüfatı Departamentinin 3 saylı Xüsusi Təyinatlı Mənzil-Kommunal Təsərrüfatı Birliyi tərəfindən etender.gov.az Portalında 02.11.2020-ci il tarixdə elan edilmiş nəqliyyat və xüsusi texnikaların satın alınması üzrə keçirilmiş açıq tenderin qalibi **"Az-Tex-İmport" MMC** müəyyən edilmişdir.

3 saylı Xüsusi Təyinatlı Mənzil-Kommunal Təsərrüfatı Birliyi və "Az-Tex-İmport" MMC arasında müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi "Radio-Televiziya Yayımı və Peyk Rabitəsi" İstehsalat Birliyi

### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

LOT-1. **Regionlarda televiziya və radio yayımının keyfiyyətinin yüksəldilməsi və əhatə dairəsinin genişləndirilməsi üçün TV və FM radio yayım avadanlıqlarının, rəqəmli ehtiyat şəbəkə üçün rəqəmli TV yayım avadanlıqlarının alınıb quraşdırılması işlərinin satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, https://etender.gov.az/ dövlət satınalmalarının vahid internet portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba Asan Pay vasitəsilə köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

Əlaqə telefonu: (mobil): (050) 667-23-74; (şəhər): 012 498-77-80
Əlaqələndirici şəxs: Orxan Kərimov
Elektron poçt: info@teleradio.az
İştirak haqqı: 500 (beş yüz) manat
Rekvizitlər:
Hesab №: AZ29AZPO91015461200420100081
VÖEN: 9900037841
Bank: "Azərpoçt" MMC PF1
Kodu: 691011
VÖEN: 9900037711
M/H: AZ76NABZ01350100000000094944
SWIFT: AZPOAZ22

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- ***tender təklifi** (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində olan **bank təminatı** (tender təklifinin qüvvədə olma müddətindən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 29 dekabr 2020-ci il saat 13:00-a qədər və tender təklifi ilə bank təminatı sənədlərini 11 yanvar 2021-ci il saat 13:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 12 yanvar 2021-ci il saat 13:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Nizami Rayon Mənzil-Kommunal Təsərrüfatı Birliyi tərəfindən etender.gov.az Portalında 02.11.2020-ci il tarixdə elan edilmiş "Nəqliyyat və xüsusi texnikanın" alınması üzrə keçirilmiş açıq tenderin qalibi **"İmprotex Truck and Buses" MMC** müəyyən edilmişdir.

Nizami Rayon Mənzil-Kommunal Təsərrüfatı Birliyi və "İmprotex Truck and Buses" arasında müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Xəzər rayon Mənzil-Kommunal Təsərrüfatı Birliyi tərəfindən etender.gov.az Portalında 30.10.2020-ci il tarixdə elan edilmiş nəqliyyat və xüsusi texnikaların satın alınması üzrə keçirilmiş açıq tenderin qalibi **"Az-Tex-İmport" MMC** müəyyən edilmişdir.

Xəzər rayon Mənzil-Kommunal Təsərrüfatı Birliyi və "Az-Tex-İmport" MMC arasında müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi tərəfindən 4 saylı Bakı DOST Mərkəzi və Abşeron DOST Mərkəzinin əməkdaşları üçün uniformaların satın alınması məqsədilə elan edilən açıq tender prosedurunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir. Tender komissiyasının 27 noyabr 2020-ci il qərarına əsasən **"V DİZAYN" MMC** qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin rəhbərliyi Şeyxülislam Hacı Allahşükür Paşazadəyə əzizi

**ƏZİZAĞA SIXƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı, İntizam komissiyasının sədri Eldar İbrahimov Şeyxülislam Hacı Allahşükür Paşazadəyə və Milli Məclisin deputatı Cavanşir Paşazadəyə əzizləri

**ƏZİZAĞA ŞIXƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov və komitənin üzvləri Milli Məclisin deputatı Rəşad Mahmudova anası

**ŞƏRQİYYƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Hacı Allahşükür Paşazadəyə əzizi

**ƏZİZAĞA ŞIXƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin kollektivi iş yoldaşları

**VİDADİ AĞAQULU OĞLU İSMAYILOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

"Azərenerji" ASC-nin prezidenti Baba Rzayev Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Hacı Allahşükür Paşazadəyə və millət vəkili Cavanşir Paşazadəyə əzizləri

**ƏZİZAĞA ŞIXƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Hacı Allahşükür Paşazadəyə əzizi

**ƏZİZAĞA ŞIXƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Hacı Allahşükür Paşazadəyə əzizi

**ƏZİZAĞA ŞIXƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyevə atası

**HACI BÖYÜKAĞA QULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatının sədri professor Şəmsəddin Hacıyev ailəsi ilə birlikdə Seymur Vaqif oğlu Orucova əmisi

**ARİF ORUCOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və komitənin kollektivi Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Hacı Allahşükür Paşazadəyə əzizi

**ƏZİZAĞA ŞIXƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Yasamal Rayon İcra Hakimiyyəti və rayon ictimaiyyəti Yasamal rayonu 19 saylı şəhər poliklinikasının baş həkimi

**ƏZİZAĞA ŞIXƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Qeydiyyat və notariat baş idarəsinin kollektivi Atakişi Əliyevə atası

**TƏVƏKGÜL ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Qeydiyyat və notariat baş idarəsinin kollektivi Rauf Sarıyevə bacısı

**LEYLA SARIYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva və aparatın əməkdaşları iş yoldaşları

**AĞABALA MÜRVƏTOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqı Komitəsinin aparat işçiləri komitənin maliyyə şöbəsinin müdir müavini Elşən Süleymanova qardaşı

**ŞAKİR SÜLEYMANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 7458
Sifariş 2796
Qiyməti 40 qəpik